AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
YER ELMLƏRİ BÖLMƏSİ

Budaq BUDAQOV
Qiyasəddin QEYBULLAYEV

5355

# NAXÇIVAN DİYARININ YER YADDAŞI

Respublikası Prezidentinin
İşlər İdarəsi
KİTABXANASI

BAKI – 2004

81, 2 ...

*Naxçıvan Muxtar Respublikasının*
*80 illiyinə həsr olunur*

*Elmi redaktoru*

Səfərəli BABAYEV

*Redaktoru*

**Roza KƏRİMOVA**

**B.Budaqov, Q.Qeybullayev.** Naxçıvan diyarının yer yaddaşı. Bakı, "Nafta-Press", 2004, 120 s.

Naxçıvan MR ərazisindəki coğrafi adlar haqqında çox yazılsa da, bu mövzu ayrıca tədqiqat obyekti olmamışdır.

Təqdim edilən əsərdə müəlliflər bölgənin siyasi və etnik tarixi ilə coğrafi adların yaranma tarixi arasında əlaqəni araşdırmış, hər bir coğrafi adın izahını verərkən mövcud ədəbiyyat materiallarına istinad etmişlər.

$B\frac{4602030000 - 3}{071(2004)}$ **Qrifli nəşr**

© **"Nafta-Press" nəşriyyatı, 2004**



# GİRİŞ

Naxçıvan Muxtar Respublikası ərazisində yayılmış coğrafi adların bir qrupu uzaq tarixi keçmişdə meydana gəldiyi halda, başqa bir qrupu orta əsrlərdə və qismən müasir dövrdə yaranmışdır. Coğrafi adların tarixi, dilçilik, coğrafi baxımdan tədqiqi onların yaranma vaxtının aydınlaşdırılması, mənalarının aşkarlanması, paralellərinin müəyyənləşdirilməsində və coğrafi yerləşməsinin aşkarlanmasında mühüm elmi əhəmiyyət kəsb edir. Deməli, toponimlər tarixi dəlilsiz köksüz, etimologiya baxımından izahsız lal, coğrafi cəhətdən araşdırılmadan isə məkansızdır.

Əsərdə Naxçıvan Muxtar Respublikasının coğrafi adlarının tədqiqində coğrafi amillərlə yanaşı, tarixi faktlara və linqvistik mənbələrə xüsusi fikir verilmişdir.

Naxçıvan MR ərazisindəki coğrafi adlar haqqında bir çox alimlər yazsalar da, tam halda bu mövzu xüsusi tədqiqat predmeti olmamışdır. Təqdim etdiyimiz bu əsər dərin elmi-tədqiqat materialları əsasında yazıldığından hər bir toponimin arxasında nadir tarixi dəlillər durur. Toponimlərin tədqiqində, onların yaranmasında türk dillərinə mənsub olan arxaik sözlərin də aşkar edilməsi onların məna çalarlığını açıqlayır.

Toponimlərin mənasının açılışında elmi istiqaməti olan etimologiyadan, bir də elmi əsası olmayan ehtimalogiyadan istifadə edilir.

Ehtimologiya coğrafi adı eşitdiyi kimi (onun elmi kökünü araşdırmadan) izah etməyə çalışır. Belə halda əfsanələrə və ya coğrafi adın zahiri görünüşünə daha çox istinad edilir.

Bir neçə misal çəkək. Salvartı oykonimində birinci «sal» sözünü çox vaxt biz «sal daş» mənasında işlədirik. Əslində isə sal həm də qədim türk tayfalarından birinin adıdır. Deməli, biz «sal» sözünü ancaq «sal daşla» izah etsək, onda həmin kəndi salmış tayfanın adını inkar etmiş oluruq.

Çox zaman «Keçili» (Şahbuz rayonu) kəndinin adını keçi saxlanan kənd kimi izah edirlər. Əslində Keçililər Kəngərlilərin bir qolu olmaqla etnotoponimdir (bax: Keçili).

Bəydili (Şərur rayonu) coğrafi adını səhvən bəylə bağlayırdılar. Əslində bu, Səlcuq oğuz tayfalarından olan Bəkdili tayfasının adındandır (bax: Bəydili). Qutandağ oronimində olan «qutan» sözü müasir Azərbaycan dilində çox nadir hallarda işləndiyindən bu ad sirli ad kimi başa düşülür. Əslində «qutan» «yaylaqda qoyun saxlanılan ağıl», «tövlə» mənasındadır. Nehrəm coğrafi adı ərəb dilində

«nəhr – axar su» və «əm – camaat, xalq, icma» sözlərindən ibarət olduğundan «icma su»yu mənasındadır.

Uzun müddət sirli bir coğrafi ad kimi qalan Nəhəcir toponiminin birinci komponenti nəh yox Nuh peyğəmbərin adından imiş. Onun ikinci komponenti cir – farsca «yamac» demək imiş. Deməli, Nəhəcir – Nuhun (peyğəmbərin) yamacı demək imiş.

Bəzi coğrafi adların elmi izahından görünür ki, o adlar hansı diyardan buraya gətirilmişdir. Məsələn, Oğuzdaşı (Şərur r-da kənd adı) coğrafi adı göstərir ki, oğuzlar XI-XII əsrlərdə Azərbaycan ərazisinə gəldiyi vaxtlarda meydana gəlmişdir.

Çox vaxt Kükü kəndinin adını xörək növlərindən birinin adı ilə adlandırırlar. Ədəbiyyat materialları göstərir ki, kükünün əsl (tarixi) adı kükü yox, kiqidir. XII əsrə aid ədəbiyyatda göstərilir ki, kiki adı Türkiyənin Van gölündən şimalda yerləşən Kiqi mahalından gətirilmiş oykonimdir (bax - Kükü).

Bizlər Qarabağ etnoniminin mənasını açmağa bəzən çətinlik çəkirik. Əslində Qarabağ Qarabay etnoniminin təhrif olunmuş yazılışıdır. Deməli, Qarabağlar əslində Qarabaylar mənasında imiş. Qarabay peçeneqlərdən ayrılan tayfalardan biridir.

Naxçıvanda tədqiq edilmiş bir çox coğrafi adlarda əsasən tür mənşəli arxaik sözlərə tez-tez rast gəlinir. Məsələn, Sadar (çılpaq, bitkisiz təpələr), cataq (iki dağın bir-birinə qovuşduğu yer), kezen (aşırım, dağ keçidi), bayz (sıldırım), qapı (keçid, aşırım), Qarabaş (əlçatmaz zirvə), kömür (dağın zirvəsində dar, yarğanlı yer), teyl (təpə), vayz (sıldırım qaya), qarqa (daş yığını, çınqıl), yam (liman məntəqəsi, çaparxana), kirka (şaxələnmiş dağ suayrıcı), kora (qışlaqda mal-qara üçün tövlələr) və s.

Topalaq (Babək r-nu) oronimində olan «top» sözü dağın zirvəsinin yumru formada olmasını göstərir. Moldovada quru çöl (step) iqlimə malik olan alçaq dağlıq əraziləri «qırtop» adlandırırlar. Burada qır- quru çöl (step), top isə hamar relyefdir.

Kitabda mövcud coğrafi adlardan başqa «İrəvan əyalətinin icmal dəftəri»nə (300 il bundan əvvəl yazılmışdır) daxil olmuş, ancaq indi mövcud olmayan coğrafi adları da vermişik.

Naxçıvan MR ərazisində mövcud olan coğrafi adlardan bir qrupunun adı türkdilli xalqların yaşadığı ərazilərdə də tarixən kök salmışdır. Odur ki, müəlliflər yeri gəldikcə, həmin toponimlərin paralellərinin də adını çəkir və onların coğrafi mənasını göstərir. Nəticədə oxucu yeni mənşəyə malik olan coğrafi adların zaman və məkan daxilində miqrasiyası haqqında tarixi məlumat alır.



Tarixən əhalinin miqrasiyası çox dinamik olub. Bu yerdə türkdilli xalqlar da miqrasiyaya məruz qalmışlar. Bu tarixi faktı təsdiq edən əsas dəlillərdən biri eynimənşəli coğrafi adların öz mənalarını dəyişməsi faktıdır.

*Naxçıvan MR izahlı lüğətində biz demək olar ki, bu ərazidə erməni dilinə mənsub olan heç bir coğrafi ada rast gəlmədik.* Deməli, Naxçıvan MR ərazisində olan ermənilər azərbaycanlılardan azad edilmiş Azərbaycan kəndlərində (ilkin adı saxlamaq şərtilə) yaşamış və sonradan o kəndləri tərk etmişlər.

Lüğətin tərtibində biz «Kitabi-Dədə Qorqud» dastanında olan coğrafi adların dərin tədqiqatçısı, AMEA-nın müxbir üzvü, professor S.Y.Babayevin əsərindən də istifadə etmişik.

Oxuculara təqdim olunan bu əsərin birinci bölməsini yazmaqda əsas məqsəd Naxçıvan bölgəsinin siyasi və etnik tarixi ilə coğrafi adların yaranma tarixi arasında əlaqəni araşdırmaqdan ibarətdir.

İkinci bölmə tədqiq olunan ərazilərin toponimlərinin coğrafi məsələlərini özündə əks etdirir. Burada yaşayış məntəqələri adları (oykonimlər), relyef bildirən adlar (oronimlər), çay və göl adları (hidronimlər), heyvanat aləmini bildirən adlar (zoonimlər) və bitki aləminə (fitonimlər) aid coğrafi adlar verilmişdir. Biz Naxçıvan MR ərazisində çox geniş yayılmış ayrıq (kövşən) coğrafi adlarına da ilk dəfə olaraq öz münasibətimizi bildirmişik.

Təbii sərvətləri özündə əks etdirən coğrafi adlar haqqında fikir söyləmək müəlliflərin elmi uğurlarındandır.

Əsərin sonunda – üçüncü bölmədə Naxçıvan MR-də mövcud olan toponimlərin izahlı lüğəti verilmişdir.

Bu bölməyə daxil edilmiş hər bir coğrafi ad mövcud ədəbiyyat materialları əsasında yazılmışdır. Başqa sözlə, buradan hər bir toponimin mənşəyinin izahı özülündə elmi baxımdan əsaslanmış ilkin ədəbiyyat məxəzləri durur.

Göründüyü kimi, kitabın ərsəyə gəlməsi üçün gərgin alim əməyi sərf edilmişdir.

Bizcə, "Naxçıvan diyarının yer yaddaşı" əsəri etnik tariximizin qaranlıq səhifələrinin aydınlaşdırılmasında tədqiqatçılara yeni elmi dəlillər verəcək, habelə geniş oxucu dairəsi tərəfindən maraqla qarşılanacaqdır.

**Akademik B.Ə.BUDAQOV**

# I. NAXÇIVAN BÖLGƏSİNİN SİYASİ VƏ ETNİK TARİXİNƏ DAİR

Azərbaycanın tarixən tərkib hissəsi olmuş Naxçıvan Muxtar Respublikası ərazisinin siyasi və etnik tarixi indiyədək xüsusi tədqiqat mövzusu olmamışdır. Yalnız son illərdə azərbaycanlıların obyektiv etnik tarixi məsələlərinə dair tədqiqatlar meydana gəlmiş və xalqımızın mənşəyi problemində müəyyən dərəcədə aydınlıq yaranmışdır. Azərbaycan xalqının etnogenezi haqqında yeni konsepsiya burada eradan əvvəlki minilliklərdə türkmənşəli etnosların yaşadığına əsaslanır. Bu nəzəriyyə Azərbaycan ərazisində (o cümlədən Naxçıvan bölgəsində) eradan əvvəl birinci minillikdə və eramızın birinci minilliyində qədim mənbələrdə çəkilən yer (şəhər, qala, çay və s.) və şəxs (çar, hakim, sərkərdə və s.) adlarının qədim türkmənşəli olması faktlarına əsaslanır. Burada həmin faktların bir də sadalanmasına ehtiyac yoxdur. Təkcə onu əlavə etmək olar ki, eyni ilə belə faktlar Naxçıvan bölgəsində üzə çıxarılmışdır[1]. Aşağıda bu barədə deyiləcəkdir.

Naxçıvan bölgəsi Manna (eramızdan əvvəl IX-VII əsrlər), Maday (eramızdan əvvəl VII-VI əsrlər) və Atropatena (eramızdan əvvəl IV əsr - bizim eranın III əsrinə qədər) dövlətlərinin tərkib hissəsi olmuşdur. Manna və Maday dövlətləri vaxtlarında Naxçıvan bölgəsinin necə adlandığı müəyyən edilməmişdir. Yalnız Strabon (I əsr) bu bölgənin Basoropeda adlandığını yazmışdır ki,[2] bu da qədim erməni mənbələrindəki Vaspurakan və ərəb mənbələrindəki Basfurcan[3] adlarının qədim yunan dilində yazılış formasıdır. Vaspurakan toponimi farscadır ki, bu da "Şahzadə ölkəsi" mənasındadır.[4] Bu ad, deyildiyi kimi, yalnız I əsrdən məlumdur və görünür, Əhəmənilər dövründə yaranmışdır. O dövrdə indiki Naxçıvan bölgəsi də bu dövlətə daxil idi. Naxçıvan adı, aşağıda deyiləcəyi kimi, Klavdi Ptolemeyin əsərində eramızın II əsrindən məlumdur və yalnız şəhər adı kimi qeyd olunmuşdur. Bölgənin bu şəhərin adı ilə Naxçıvan adlanması XII-XIII əsrlərə aiddir.

[1] *Q.Qeybullayev*. Azərbaycan türklərinin təşəkkülü tarixindən. Bakı, 1994.
[2] *Strabon*. XI, 14. 5.
[3] *N.Vəlixanlı*. IX-XII əsr ərəb coğrafiyaşünasları Azərbaycan haqqında. Bakı, 1974.
[4] Bax: Книга деянии Ардашира, сына Папакана. М., 1987, с. 20.



Yuxarıda biz Vaspurakanın Atropatenaya (ondan əvvəl Mannaya və Madaya) mənsub ərazi olduğunu qeyd etmişdik. İndi bu barədə bəzi faktları göstərmək olar. Strabon Basoropedanın ermənilər tərəfindən işğalı haqqında yazır ki, "ermənilər midiyalılardan Basoropedi" qopardılar.[1] V əsr erməni müəllifi yazır ki, erməni çarı Artavazd Midiyadan (burada şübhəsiz, Midiya ənənəvi addır, Artavazd vaxtında Midiya Atropatena adlanırdı) Vaspurakanı qopardı. Digər erməni tarixçisi Sebeos (VII əsr) qeyd edir ki, Naxçıvan Atropatenaya aiddir (Sebeos, 16-cı kitab, 27-ci fəsil). VIII əsr müəllifi Qevond yazır ki, ərəblər Naxçıvanda midiyalı kəndlərini dağıtdılar.[2] Əgər o vaxt Naxçıvanda ermənilər yaşasaydı, onda müəllif midiyalı əvəzinə elə erməni yazardı. Burada iki nəticəyə gəlmək olar: birinci, bu bölgə eramızdan əvvəl II əsrdən əvvəl Ərməniyyəyə daxil deyildi; ikinci, Böyük «Ermənistan dağıldıqda», bölgə yenə Atropatenaya qaytarılmışdır. Bununla da Naxçıvan bölgəsinin tarixən erməni əyaləti olması fikri inkar olunur.

Eranın III əsrində Sasanilər sülaləsi İranda hakimiyyətə gəldikdən sonra Atropatenanın müstəqilliyinə (daha doğrusu, canişinliyinə) son qoyulmuş və Sasanilər dövlətinə qatılmışdır.[3] Lakin bölgə hələ də Vaspurakan adını saxlayırdı. Ərəb coğrafiyaçısı İbn əl-Fəqih də yazır: "Xosrov Ənuşirəvan (531-579) Nəşəva (Naxçıvan - Q.B.) şəhərini bina etdirdi. Bu, (yəni şəhər) Basfurcan vilayətinin mühüm şəhəridir".[4] Eyni ilə bu fikri XIII əsr müəllifi Yaqut əl-Həməvi də vermişdir: "Басфурджан - округ в Арране, главный город которого Нашава; он же Нахджуван, построенный Ануширваном одновременно с Баб ал Абвабом".[5]

Sasanilər bu əyaləti tabe etdikdən sonra oranı canişinlər idarə edirdi. Sasanilərin hakimiyyəti illərində bu bölgə İran-Roma toqquşmalarının meydanına çevrilmişdi. Sasani şahı II Şapur 364-367-ci illərdə Romanın təsir dairəsinə düşmüş əyalətə hərbi səfər təşkil edərək oranı talan etmişdi.[6] V əsr erməni müəllifi Favst Buzand yazır

[1] *Strabon*, XI, 14, 15.
[2] *Qevond*. Göstərilən əsəri, s. 32.
[3] Bu barədə geniş məlumat üçün bax: *Играр Алиев*. Очерки истории Атропатсна. Баку, 1989.
[4] *Vəlixanlı N.M.* IX-XII əsr, ərəb coğrafiyaşünas səyyahları Azərbaycan haqqında. Bakı, 1974.
[5] *Якут ал-Хамави*. Муджам ал-Булдан. (Сведения об Азербайджане). Баку, 1983, с. 21.
[6] История Армении Фавста Бузанда. Пер. М.А.Геворкяна. Ереван, 1953, с. 134.

ki, Şapur oradan 18 min ailə əsir tutub İrana aparmışdı.[1] 387-ci ildə İran ilə Roma arasında sülh müqaviləsi bağlanmış və müqavilənin şərtlərinə görə Naxçıvan əyaləti yenə Sasanilər dövlətinə qatılmışdı. Naxçıvanda yenə Sasani canişinliyi bərpa edilmişdi. Naxçıvan şəhərində zərbxana da vardı. Naxçıvanda VI əsrdə kəsilmiş metal pul üzərində "Naxç" sözü vardır.[2]

654-cü ildə Naxçıvan bölgəsi ərəb ordusu tərəfindən işğal olundu.[3] Ərəb sərkərdəsi Həbib ibn Məsləmə Naxçıvan şəhəri ilə müqavilə bağlamışdı. Bu müqavilədə diqqəti cəlb edən bir cəhət odur ki, naxçıvanlılar maq (məcus) adlandırılır, məbəd və kilsələrin mövcudluğu göstərilir. Buradan aydın olur ki, bölgənin əhalisi o zaman həm atəşpərəst, həm də qismən xristian idi. Naxçıvan bölgəsində atəşpərəstlərin olduğu bir də onunla sübut olunur ki, Babək hərəkatı vaxtında (816-836-cı illər) Naxçıvan xürrəmilərin təsir dairəsinə daxil idi.

İndi isə Naxçıvan bölgəsində əhalinin etnik tarixinə nəzər salaq.

Yuxarıda qeyd etdik ki, Naxçıvan bölgəsi tarixən Cənubi Azərbaycan ərazisində mövcud olmuş dövlətlərin tərkibində olmuşdur. Həmin dövlətlərin türkmənşəli etnosların siyasi qurumları olması artıq şübhə doğurmur.[4] Şübhəsiz ki, Cənubi Azərbaycan ərazisində yaşamış bu tayfalar həm də Naxçıvan bölgəsində məskun idi. Bu, yalnız məntiqi nəticədir, lakin bu nəticəni təsdiqləyən faktlar vardır. Bu faktlar həm bu bölgədə yaşayanlar barədə məlumatlar, həm də bölgənin qədim toponimləridir.

## 1.Etnik mənşəli toponimlərin tarixinə dair

Yuxarıda dedik ki, Naxçıvan bölgəsi erkən orta əsrlərin sonlarında Naxçıvan şəhərinin adı ilə adlanmağa başlanmış və Vaspurakan (Basfurcan) adı unudulmuşdur. Ona görə də Naxçıvan adının aydınlaşdırılmasının prinsipial əhəmiyyəti vardır.

---

1 История Армении Фавста Бузанда. Ереван, 1953, с. 134.

2 *Пахомов Е.А.* Монеты Нахичевана.Известия АН Азерб. ССР.Серия общ. наук.1949,№5.

3 *Буниятов З.М.* Азербайджан в VII-IX вв. Баку, 1965.

4 *Юсифов Ю.Б.* Ранние контакты Месопотамии с северо-восточными странами. (Приурмийская зона). "Вестник древней истории". 1987, № 1, yenə onun: К значении древних топонимов в изучении этнической истории Азербайджана. "Известия АН Азерб. ССР. Серия литературы, языка и искусства". 1987, № 2; Qeybullayev Q.Ə. Azərbaycan türklərinin təşəkkülü tarixindən. Bakı, 1994; Azərbaycanlıların etnik tarixinə dair. Bakı, 1994.



***Naxçıvan*** adı ilk dəfə Naksuana şəklində II əsr müəllifi Klavdi Ptolemeyin "Coğrafi təlimnamə" əsərində çəkilmişdir (Ptolemey, V, 12). Müəllif onu Ermənиyyədə şəhər kimi qeyd edir. Bu məlumat erməni tədqiqatçılarının Naxçıvan şəhərinin və Naxçıvan bölgəsinin tarixən ermənilərə mənsub olmasını demək üçün əslində yeganə faktdır. Lakin Ptolemeyin bu məlumatı er. əvvəlki II-I əsrlərə aiddir. O zaman həqiqətdə də Ərməniyyə ölkəsinə Bosoropeda (Vaspurakan) da qatılmışdı, lakin dövlət dağıldıqda elə er. əv. I əsrdə bölgə Atropatenaya qaytarılmışdı.

Ptolemeyin qeyd etdiyi Naksuana adının yerli tələffüz formasını müəyyən etmək çətindir. Ona görə ki, yunan dilində "ç" səsi olmadığına görə müəllif onu "s" səsi kimi verməli idi; digər tərəfdən, ehtimal etmək olar ki, onun, yaxud istifadə etdiyi məlumatın vaxtında şəhər həqiqətdə də elə Naksuana adlanırdı, başqa sözlə, "s" səsi köklüdür. Ptolemey bu adın sonuna "a" səsini əlavə etmişdir. Lakin V əsr erməni müəllifi Moisey Xorenski artıq "Naxçıvan" formasını qeyd edir.[1] Naxçıvan adını digər V əsr erməni müəllifi Favst Buzand da çəkir.[2] Buradan görünür ki, göstərilən əsrlərdə artıq yerli tələffüz forması "Naxçıvan" idi.

Diqqəti bu cəlb edir ki, IX-XIII əsr ərəb müəllifləri (əl-Balazuri, İbn əl-Fəqih, İbn Xordadbeh, İbn Rüstə və b.) "Naxçıvan" adını hər yerdə Naşava kimi qeyd edirlər. Hətta əslən naxçıvanlı olan Məhəmməd ibn Hinduşah Naxçıvani də "Nəşəva" formasını qeyd etmişdir. XI-XII əsrlərdən sonra Naşava (yaxud Naşəva) adı ortadan çıxır və Naxçıvan adı onu əvəz edir. XIII əsr müəllifi Yaqut əl-Həməvi yazır: "Naşava Azərbaycanda şəhərdir, yaxud bəzilərinin dediyi kimi, Arrandadır. O, Ərməniyyə ilə həmsərhəddir. Xalq içərisində Naxcuvan, yaxud Naxcivan kimi məşhurdur.[3] Bu məlumatda bizim üçün qiymətli bir cəhət vardır: erkən orta əsrlərdə ad məhz Naksuan (yuxarıda deyildiyi kimi, Ptolemey bu adın sonuna "a" səsini əlavə edərək "Naksuana" kimi yazmışdır) kimi "Nakçuvan" formasında idi, yəni, Ptolemeydə olduğu kimi, "s" səsindən sonra "u" səsi qalırdı. Bu faktın prinsipial əhəmiyyəti vardır, çünki aşağıda deyiləcəyi kimi, bu toponimdə türk dillərindəki "su" və onun fonetik forması olan "çu"

---

1 История Армении Моисея Хоренского. Перевод с древне-армянского Н.Эмина. М., 1858, с. 68.

2 *Favst Buzand.* Göstərilən əsəri, s. 134.

3 *Yaqut əl-Həməvi.* Göstərilən əsəri, s. 32.

sözü əksini tapmışdır. Qeyd etmək lazımdır ki, XIII əsrə aid bir mənbədə də bu toponim Naksua kimi qeyd olunmuşdur.[1]

Naxçıvan (yuxarıda deyildiyi kimi, əsli Naksuan və Naxçuvan) adının dil mənsubiyyəti və mənası haqqında çoxlu fikir irəli sürülmüşdür. Biz onları burada sadalamayacağıq, çünki bu fikirlərin heç biri həqiqəti əks etdirmir. Yalnız Y.B.Yusifov son illərdə Naxçıvan adının mənasını aça bilmişdir. O, doğru olaraq bu nəticəyə gəlmişdir ki, Naxçıvan şəhərinin iki adı olmuşdur: Naksuan və Naşəva və bu adların birincisi qədim türkcə, ikincisi farscadır. Müəllif düzgün tapmışdır ki, Naşəva farsca "Xoş su" mənasını verdiyi kimi, Naksuan da türk dillərində "Xeyirxah su yeri" mənasındadır.[2]

Həqiqətdə də Naxçıvan şəhərinin ətrafı mineral su bulaqları ilə zəngindir. Qeyd edilməlidir ki, mineral bulaqlar (xüsusilə müalicə əhəmiyyətli sular) adamlara daha əvvəllər məlum idi. Təsadüfi deyil ki, Azərbaycanın bir sıra yaşayış məntəqə adları məhz belə bulaq adlarını əks etdirir. Buna misal olaraq Naxçıvan bölgəsində Vayxır, Sirab, Badamlı kənd adlarını da göstərmək olar. Azərbaycanın digər bölgələrində Varna, Avaxıl, Xaltan və s. kənd adları da məhz əvvəlcə mineral su adlarıdır.[3]

Bölgənin qədim türkmənşəli toponimlərindən biri ***Ordubaddır***. Bütün tarixi mənbələrdə bu ad "Ordubad" kimi qeyd olunmuşdur. Lakin XVII əsrə aid bir mənbədə (avropalı səyyah Adam Olearinin yol qeydlərində) "Ordabat" forması göstərilmişdir.[4] Bu toponim ilk dəfə VIII əsrə aid mənbədə qeyd edilir.[5] Lakin bu heç də adın həmin əsrdə yarandığı demək deyildir. Əgər VIII əsrdə Ordubad artıq şəhər adı idisə, onda ehtimal etmək olar ki, bir yaşayış məntəqəsi kimi eramızın ilk illərində mövcud imiş. XIII əsr müəllifi Stepan Orbelian Albaniyada xristianlığın yayılması ilə əlaqədar olaraq yazır ki, zəvvar (missioner) Varfolomey fəaliyyətinə Ordubad və Koltanda başlamışdır.[6] Tədqiqatlar göstərmişdir ki, bu zəvvarın fəaliyyəti eranın

---

[1] Путешественники об Азербайджане, т. I. Баку, 1961, с. 26.

[2] *Юсифов Ю.Б.* Топонимика и этническая история древнего Азербайджана. "Azərbaycan onomastikası problemlərinə dair konfransın materialları". Bakı, 1987, s. 108-111.

[3] *Гейбуллаев Г.А.* К происхождении некоторых гидронимов Азербайджана. Известия АН Азербайджанской ССР, серия истории, философии и права, 1983, № 2.

[4] Путешественники об Азербайджане, т. I, Баку, 1961, с. 287.

[5] История Армении Вардапета Гевонда, писателя VIII века. Пер. с древнеармянского К.Патканова. СПб., 1862, с. 32.

[6] *Мамедова Ф Политическая история и историческая география Албании.* Баку, 1985.



I-II əsrlərində baş vermişdir.[1] Ordubad toponimi şübhəsiz ki, qədim türk dillərində ordu sözü əsasında yaranmışdır. Qədim türklərdə ordu dedikdə, düşmən üstünə yürüş və ya başqa məqsədlə tayfanın bütün üzvlərinin toplanan yeri nəzərdə tutulurdu.[2] Sonralar bu söz düşərgə mənasını kəsb etmişdir. Daha sonra ordu "xanın qərargahı", "xanın düşərgəsi", "xanın yurdu" mənasında da işlənmişdir.[3] Oturaq türk xalqları içərisində ordu baş qəsəbə, şəhərcik mənasında olmuşdur.[4] Beləliklə, Ordubad adının birinci komponentinin ordu sözündən ibarət olması şübhə doğurmur. Onu da qeyd etmək lazımdır ki, 1064-cü ildə Səlcuq oğuzlarının sultanı Alp Arslanın Naxçıvan əyalətindəki baş qərargahı məhz Ordubadda yerləşmişdi.[5] Bu faktın özü də göstərir ki, Ordubad şəhərinin ərazisində hərbi düşərgənin – "ordu"nun qurulması müəyyən tarixi ənənəyə əsaslanırdı.

Qeyd edilməlidir ki, "ordu"lar əsasında daimi yaşayış məntəqələrinin yaranması Orta Asiyada da vardı. Məsələn, Mahmud Qaşqarinin (XI əsr) vətəni Qaşqar şəhəri həm də Ordukənd adlanmışdır.[6] Orta Asiyada Balasaqun yaxınlığında Ordu adlı şəhərin mövcud olması da məlumdur.

Ordubad adının ikinci komponenti olan "bad" hissəsinin dil mənsubiyyəti və mənasını aydınlaşdırmaq çətindir. Bir qayda olaraq, tədqiqatçılar bu komponentin fars mənşəli abad – "yaşayış üçün əlverişli yer", "sulu yer" sözündən ibarət olduğunu yazırlar. Bu fikirdə sanki müəyyən həqiqət vardır, çünki Azərbaycan toponimiyasında "abad" sözü bir sıra qədim yaşayış məntəqə adlarında əksini tapmışdır. Digər tərəfdən, Naxçıvan bölgəsinin toponimiyasında hind-Avropa-fars mənşəli sözlər (məsələn, abad, dizə, dəhnə, rud, kuh, av və s.) başqa bölgələrə nisbətən çoxdur. Bu onunla əlaqədardır ki, Naxçıvan bölgəsi, yuxarıda deyildiyi kimi, Sasanilər dövründə bilavasitə İranın tərkibində olmuşdur. Ona görə də toponim yaradıcılığında fars dilinin təsiri daha qüvvətli olmalı idi. Lakin əgər Ordubad toponimində "abad" sözü iştirak etsəydi, onda Azərbaycan dilinin ahəng qanununa görə toponim

---

[1] *Мамедова Ф.* Политическая история и историческая география Албании. Баку, 1985.

[2] *Будагов Л.З.* Словарь турецко-татарских наречий, т. I, с. 124.

[3] *Радлов В.В.* Словарь татарских наречий, том I, часть 2, с. 1072-1073.

[4] *Mahmud Qaşqari*, I, s.124.

[5] *Шопен И.* Исторический памятник состояния Армянской области в эпоху ее присоединения к Российской империи, СПб., 1852, с. 375.

[6] Древнет-тюркский-русский словарь, М. 1969, с. 370.

"Ordabad" formasını kəsb etməli idi.[1] Ə.Səfərli və M.Novruzov yazırlar ki, "Ordu" və "abad" sözlərinin "Ordubad" şəklində birləşməsi Azərbaycan dilinin səs və qanun-qaydası baxımından mümkün deyildir. Əgər belə bir birləşmə mümkün olsaydı, onda bu söz Ordabad şəklində işlənilməliydi. Dilimizdə bu biçim və quruluşda sözlər vardır. Məsələn, Əli Abbas-Əlabbas. Ancaq şəhərin adı bu şəkildə heç vaxt qeydə alınmamış və bu gün də belə deyilmir. Deməli, Ordubad sözünün bu yozumu düzgün və əsaslı sayıla bilməz.[2] Müəlliflər bu adın "Ordu" sözünün qədim türk dillərində "iqamətgah", "düşərgə" mənasında olduğunu söyləyirlər, lakin adın "bad" komponentinin "abad" sözü olmadığını göstərirlər.[3] M.Novruzov "Ordubad" adının mənşəyinə həsr etdiyi məqaləsində "bad" sözünün "divar" mənasında olduğunu yazmışdır.[4] Lakin "bad" komponentinin "divar" mənasında olması fikri ağlabatan deyil. İ.Əliyev Midiyada er. əv. I minillikdə, yer adlarında "ölkə", "yer" mənalarında "bat", "pata", "buta", "biti" sözlərinin olduğunu yazmışdır.[5] Ona görə də güman etməyə əsas vardır ki, Ordubad toponimindəki "bad" komponenti Cənubi Azərbaycan ərazisində hələ Manna və Maday dövlətləri vaxtında bəzi yer adlarındakı "bat", "bad" sözləri ilə mənşəcə eynidir. Məsələn, Midiyada er. əv. I minillikdə Assur mənbələrində Saqbat, Aqbatan (indiki Həmədan), antik mənbələrdə Atropatena ərazisində Azərbad, Astabad və s. adlar məlumdur. Erkən orta əsrlərdə Albaniya ərazisində Tambat, Dizapat, Aqbat və s. toponimlər məlumdur. V əsr erməni müəllifi Moisey Xorenasi Naxçıvan bölgəsində Tambat məntəqə adını qeyd edir (Moisey Xorenasi, I kitab, 30-cu fəsil). Aydındır ki, bu toponimlərdə fars mənşəli "abad" sözü əksini tapa bilməzdi. İqrar Əliyev Midiya toponimlərində "bat" sözündən danışarkən onu elam mənşəli "vate", "pate", "ölkə" sözü ilə əlaqədar etmişdir.[6] Beləliklə, Ordubad toponimində "bad" sözünün dil mənsubiyyəti mübahisəli olsa da, hər halda "yer", "məskən" mənasını kəsb edir. Müqayisə üçün deyək ki, XII əsrə aid mənbədə Azərbayca-

---

[1] *Səfərli Ə., Novruzov M.* Dədə Qorqud yurdu: Ordabad. "Azərbaycan müəllimi", 13 iyun 1986.

[2] Yenə orada.

[3] Yenə orada.

[4] *Novruzov M.D.* Ordubad toponiminin etimologiyası. "Azərbaycan onomastikası problemlərinə dair konfransın materialları"; Bakı, 1987. s. 181.

[5] *Алиев И.* Мидия древнейшее государство на территории Азербайджана, Сб. Очерки по древней истории Азербайджана. Баку, 1956. с. 78.

[6] *Алиев Играр.* История Мидии. Баку, 1960, с. 96



nın şimal-şərqində Kalabad kənd adı çəkilir.[1] Bu toponim bəlkə də qala və "abad" sözlərindən ibarətdir. Ona görə də Ordubad toponimində "abad" sözünün iştirak etdiyi də istisna oluna bilməz.

Naxçıvan bölgəsində qədim türk toponimlərindən biri də ***Culfadır.*** Qeyd etmək lazımdır ki, bu şəhərin əsl qədim adı Culadır. V əsr erməni tarixçisi onu Cuğa kimi yazır.[2] Bunun səbəbi odur ki, erməni dilində o vaxt "l" səsi yox idi, onu "ğ" səsi ilə verirdilər (Alban adının "Ağvan" kimi yazılması da bununla əlaqədardır). Cula Midiyadan er. əv. VI əsrin ortalarında Naxçıvan bölgəsinə köçürülmüş midiyalıların məskəni kimi təşəkkül tapmışdır. Ter-Avetisyan yazır ki, Culfa midiyalıların yaratdıqları yaşayış məntəqələrinə aiddir.[3] Yalnız XVII əsrdə Cula adı "Culfa" formasını kəsb etmişdir ki, bu da Cula adının fars dilində culfa – "toxuyucu" sözü ilə zahiri oxşarlığı ilə əlaqədardır. Cula toponimi bizcə, qədim türk dillərində yul, cul, "keçid" sözü ilə bağlıdır. Həqiqətən Culfa şəhəri bütün tarixi dövrlərdə Naxçıvandan İpək yolu ilə İrana keçid yolu rolunu oynamışdır.

Naxçıvan bölgəsində digər qədim toponim "kol" komponentli adlardır.

Antik müəlliflər indiki Naxçıvan bölgəsində Arazsahili ərazini ***Koltene***,[4] adlandırırlar; "Kol" komponenti Albaniya və Ermənistan ərazisində bir sıra toponimlərdə öz əksini tapmışdır. Moisey Xorenasi Ermənistanın İberiya ilə sərhəddə Kolb yer adını çəkir (Moisey Xorenasi, V kitab, 50-ci fəsil), "VII əsr erməni coğrafiyası" adlı əsərdə Ermənistanda Kolbopor (erməncə por "dərə", "vadi" deməkdir) adı qeyd edilir.

Moisey Xorenasi Ararat vadisində də Kolb toponimini qeyd edir (III kitab, 60-cı fəsil). V əsr erməni müəllifi Favst Buzand 371-ci ilə aid hadisədə Albaniyanın qərbində Kolt əyalətinin olmasını qeyd edir. Ehtimal ki, bu, indiki Tovuz rayonundakı Kol kəndinin adında qalmışdır. "Alban tarixi"ndə Artsaxda (Dağlıq Qarabağda) bir mahalın Kolman (erməncə yazılışda Koğmank) adlandığını yazır.[5] Ermənistanın toponimiyasında XIX əsrdə bir neçə Koğt (yəni Kolt) kənd adları məlumdur. Həmin kəndlərin əhalisi azərbaycanlılar idi.

---

[1] *Минорский В.Ф.* История Ширвана и Дербента. М., 1963. с. 64.

[2] *Тер-Аветисян С* Памятники древности Карабаха и Скифская проблема. Тифлис, 1934.

[3] Yenə orada.

[4] *Птолемей*, V. XII, 9.

[5] *Moisey Kalankaytuklu.* Alban tarixi. Bakı, 1993.

Deyilənlərdən belə nəticəyə gəlmək olar ki, "kol" komponentli toponimlər geniş areala malikdir və bizcə, bu adlar qədim türk mənşəlidir. Türk dillərində kol – "vadi" deməkdir. Lakin bu qədər toponimdə "vadi" sözünün əks olunduğunu söyləmək çətindir. Ona görə belə fikir mövcuddur ki, bu toponimlər qədim türk mənşəli kol, kul tayfasının adıdır. Kol, kul adlı tayfa peçeneqlərdə, bulqarlarda və qıpçaqlarda məlumdur.[1] Azərbaycanda, Ermənistanda, Gürcüstanda, Cənubi Azərbaycanda, Dağıstanda Qullar adlı çoxlu kənd məhz həmin tayfalarla bağlıdır.[2]

Maraqlıdır ki, indi də tatarlarda, türkmənlərdə Kul, özbəklərdə Kol, tuvalılarda Kol, xakaslarda Kul adlı tayfalar vardır.[3]

## 2. Etnik tərkibli coğrafi adların mənşəyinə bir baxış

Naxçıvan bölgəsində əhalinin eradan əvvəlki minillikdə etnik mənsubiyyətcə kimlər olması barədə toponimlərdən başqa tarixi mənbə yoxdur. Lakin bəzi faktları göstərmək olar.

V əsr erməni tarixçisi Moisey Xorenasi yazır ki, (1 kitab, 30-cu fəsil) erməni çarı I Tiqran (O, Maday dövlətinin axırıncı çarı Astiaqın müasiri olmuşdur) er. əv. VI əsrin ortalarında Naxçıvan bölgəsinə Midiyadan 10 min midiyalı ailə köçürmüşdür. Müəllifin məlumatında köçürülənlər Mar adlandırılır ki, bu da Mad (Maday) adının d-r əvəzlənməsi nəticəsidir, yəni qədim ermənilər madaylara marlar deyirdilər. Müəllif əlavə olaraq qeyd edir ki, köçürülənlər Tmbat, Oksiox, Dcquyk (Cula yəni, Culfa adının qədim erməncə yazılış forması), Xram, Xoşakunik kəndlərində yerləşdirilmişdi. Köçürülmüş madaylar Vaspurakan canişinliyində – erməncə mənbələrdə Marakan (əsli Madakan) adlı şəhər salmışdılar.[4] Bir məlumata görə bu yaşayış məntəqəsi indiki Şərur düzündə yerləşirdi. Naxçıvan bölgəsində həmin madaylar erkən orta əsrlərdə də məlum idi. V əsr erməni müəllifi Favst Buzand Naxçıvanda "Marların ölkəsi" ifadəsini işlədir.[5] V əsrdə yaşamış Koryon

[1] *Гейбуллаев Г.А.* К этногенезу азербайджанцев. т. I, Баку, 1991, с.110.
[2] Yenə orada.
[3] Yenə orada.
[4] *Алиев И.Г.* История Мидии, с. 71.
[5] *Favst Buzand*, IV kitab, 24-cü fəsil.



Naxçıvan bölgəsini "marlar ölkəsi" adlandırır.[1] VIII əsr müəllifi Qevond qeyd edir ki, ərəblər Qoxtanda (indiki Ordubad r-nun digər adı) Midiya kəndlərini dağıtdı.[2]

654-cü ildə ərəb sərkərdəsi Həbib ibn Məsləmənin Naxçıvan şəhərinin əhalisi ilə bağladığı sülh müqaviləsində işlədilən "məcus" ifadəsi də məhz madaylara (maqlara) işarədir.

İndi iki suala cavab vermək lazımdır: Midiyadan köçürülənlər (erməncə yazılışda marlar) etnik mənsubiyyətcə kimlər idilər və həmin məlumatda çəkilən yer adları nə dildədir?

Azərbaycan xalqının mənşəyi haqqında yeni nəzəriyyə bunu əsas götürür ki, *madaylar türkmənşəli idilər və onların irandilli sayılması tamamilə uydurmadır.*[3] Ona görə də birinci suala cavab tam aydındır: Naxçıvan bölgəsinə köçürülənlər türkmənşəlilər idi. O ki qaldı madayların köçürülüb yerləşdikləri məntəqə adlarına, onların erməncə, ya da farsca olması haqqında fars və erməni tarixçiləri susurlar, çünki bu adlar həmin dillərdə deyildir. Q.Ə.Qeybullayev göstərilən toponimlər barədə müəyyən mülahizələr irəli sürmüşdür. Onun fikrincə, Cula toponimi qədim türk dillərində yul, cul "keçid", Xram toponimi qədim türk dillərində "karman", monqolca xərəm "qala", Oskiox toponimi qədim türk dillərində əski və oq "tayfa", "Tambat" qədim türk dillərində tam – "qala", Xoşakunik qədim türk dillərində koş – "düşərgə" və s. sözlər əksini tapmışdır.[4]

Əlbəttə, Naxçıvan bölgəsində başqa etnik mənşəli xalqlar da yaşayırdı. Məsələn, 654-cü ildə ərəb sərkərdəsi Həbib ibn Məsləmənin naxçıvanlılarla müqaviləsində yəhudilər də qeyd olunmuşdur. Moisey Xorenasi yazır ki, Qoltanlılar (Ordubad rayonunun ərazisi) Sisakdan (yəni Sisakandan, indiki Sisyandan) gəlmələrdir. Sisakan adının er. əv. VII əsrdə gəlmiş türk mənşəli saklarla bağlılığı məsələsi vardır. İndiki Zəngəzur bölgəsində yaşayan saklar tarixi ədəbiyyatda sisaklar adlandırılır. Tədqiqatçılara görə Sisakan toponimi "si" və "sakan" (yəni "Saklar") hissələrinə ayrılır. Adın "si" komponenti Sisakanda hakimiyyətdə olmuş sülalənin adı olmuşdur. Ona görə də sakların Zəngəzurda məskunlaşmış hissəsi "Si sakları" adlanmışdır. "Sisakan" adı isə alban tarixçisi Musa Kalankatlının "Al-

[1] *Корюн.* Житие Мамтопа, Пер. Ш.В.Смбатяна и К.А.Мелик-Огаджаняна. Ереван, 1962, с. 88.
[2] *Qevond.* Göstərilən əsəri, s. 32.
[3] *Qeybullayev Q.Ə.* Azərbaycan türklərinin təşəkkülü tarixindən. Bakı, 1994.
[4] *Гейбуллаев Г.А.* К этногенезу азербайджанцев. с. 238-239.

ban tarixi" əsərində qısaldılmış şəkildə "Sisak" adlandırılmışdır.[1] Deməli, indiki Ordubad rayonu əhalisinin müəyyən hissəsi mənşəcə saklar olmuşdur.

Erkən orta əsrlərdə Naxçıvan bölgəsində əhalinin etnik tarixinə dair müəyyən məlumat vardır. Bunlar eranın əvvəllərindən başlayaraq şimaldan gəlmiş bulqar, hun, peçeneq, kəngər və xəzər tayfalarıdır.

Naxçıvanda yaşayan kəngərlərin bir qolu XIX əsrin əvvəllərinə aid mənbədə bolqarlar adlanırdı. Bu göstərir ki, qədim türkdilli bulqarlar bu bölgədə də yaşamışlar. Cənub-şərqi Avropanın tarixində böyük rol oynamış və müxtəlif vaxtlarda hunların, suvarların və xəzərlərin tayfa birləşmələrinin tərkibinə daxil olmuş, daha sonra müstəqil dövlət qurumu yaratmış bulqarlar[2] Xəzər dənizinin şimal-qərb sahillərinin və Qara dənizin şimal çöllərinin hunlardan qabaqkı əsrlərinə aiddir.[3] Oradan ayrı-ayrı bolqar qruplarının Cənubi Qafqaza gəlməsi er. əv. II əsrdə baş vermişdir.[4] Qafqaz dağlarından şimalda yaşayan bulqarlar er. əv. 149-127-ci illərdə Şərqi Anadoluda Qars əyalətinə – Ərməniyyəyə köçmüşlər.[5] V əsr müəllifi yazır ki, gələnlər öz başçılarının adı ilə məskənlərini Vənənd adlandırdılar.[6] Ordubad rayonundakı Vənənd kəndinin mənşəyi də Qars əyalətindəki Vənəndlə bağlıdır.

Naxçıvan bölgəsində tarixən kəngərlər mühüm rol oynamışlar. Kəngərlərin Cənubi Qafqazda məskunlaşması eranın əvvəllərinə aiddir. Əvvəlcə onu qeyd edək ki, Kəngər adlananlar Orta Asiyada Kanq dövlətində yaşayanların adıdır və Kəngər "Kanq ərləri, kişiləri" mənasını verir. Eranın əvvəllərində Mərkəzi Asiyadan Şərqi Avropaya hərəkət edən hunlar Kanq əyalətindən keçərək kəngərlərin bir hissəsini özlərinə qatmışdılar.[7]

---

[1] *Qeyhullayev Q.Ə.* Azərbaycan türklərinin təşəkkülü tarixindən. Bakı, 1994, s. 163-164.

[2] *Смирнов А.П.* Очерки по истории древнейших булгар. Труды Государственного Эрмитажа. М., 1940, том II.

[3] *Мерперт Н.* Кочевые племена в степной полосе Восточной Европы. "Очерки истории СССР". М. 1958, с 353.

[4] *Мерперт Н.* Древнейшие болгарские племена в Причерноморье. "Очерки истории СССР". М., 1958, с. 587.

[5] *Голубовский П.В.* Болгары и Хазары. "Киевская старина", 1888, № 7, с. 25.

[6] История Армении Моисея Хоренского. Пер. Н.О.Эмина, М., 1893.

[7] *Məmmədov Altay.* Kəngərlər, Bakı, 1996.



Cənubi Qafqazda kəngərlər əsasən iki bölgədə məskun idilər: birinci Ermənistan-Gürcüstan-Albaniya həmsərhəd bölgələrində və ikincisi Naxçıvanda.

İndiki Ermənistan-Gürcüstan sərhəd rayonlarında kəngərlər barədə ilk məlumat 482-ci ilə aiddir. Mənbədə qeyd olunur ki, erməni ordusu başda Vardan Mamikonian (bu şəxs Ermənistanda türk mənşəli çinli tayfasından idi)[1] və gürcü ordusunun başçısı Vaxtanq Qorqasal Kəngər dağlarından enərək başda Mixran olmaqla fars ordusuna qarşı vuruşdular.[2] Həmin Kəngər dağları indi də Ermənistanda mövcuddur. S.T.Yeremyan bu Kəngər əyalətinin 387-ci ildən IX əsrə qədər Gürcüstana mənsub olduğunu yazmışdır.[3]

V əsr erməni tarixçisi Lazar Parbski Cənubi Qafqazda kəngərlərin yaşadıqlarını qeyd edir. Moisey Xorenasi kəngərlərin Göyçə gölündən şimalda – Albaniya-İberiya sərhədlərində yaşadıqlarını yazır.[4]

Suriya mənbəyində isə Sasani şahı Xosrov Ənuşirəvanın şimala gedərək iberlərlə ermənilərin sərhəddində kəngərlərlə döyüşdüyü qeyd olunur.[5] VII əsrə aid ermənicə mənbədə Kəngər əyalətinin İberiyaya mənsub olduğu qeyd olunur.[6] Təsadüfi deyil ki, XIX əsrin əvvəllərinə aid mənbələrdə qazaxların 33 tayfası içərisində Kəngər tayfasının da adı çəkilir.

Maraqlıdır ki, Musa Kalankatlının "Alban tarixi" əsərində Albaniya və bir xristian ruhanisi Kanqarian adlanmışdır.[7] Bütün orta əsrlər boyu kəngərlər Qazax-Ağstafa bölgəsində yaşamaqda davam etmiş və 1766-cı ildə gürcü çarına boyun əyməyərək Qarabağa köçmüşdülər. Həm də qeyd edilməlidir ki, bu köçənlər içərisində Qarabağ tayfası da var idi.

Yuxarıda qeyd etdik ki, kəngərlərin digər qismi eranın əvvəllərində Naxçıvan bölgəsində məskunlaşmışdı. Bu bölgədə kəngərlər barədə ilk məlumat 542-552-ci illərə aiddir.[8] Ona görə bəzi tədqiqatçıların kəngərlərin Naxçıvan bölgəsində məskunlaşmasını 826 və

---

[1] *Qeyhullaev Q.A.* К этногенезу азербайджанцев. Баку. 1991, с 242

[2] *Кляшторный С.Г.* Древнетюркские рунические памятники как источник по истории Средней Азии. М., 1964. с.179

[3] *Еремян С.Т.* Армения по "Ашхарацуйцу". Ереван, 1963, с. 57

[4] *Кляшторный С.Г.* Göstərilən əsəri.

[5] Yenə orada

[6] Армянская география VII века, с. 40.

[7] *Гейбуллаев Г.А.* К этногенезу азербайджанцев, том I, Баку, 1991, с. 98

[8] Yenə orada. c. 101-102

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

836-cı illərə aid etmələri[1] həqiqətə uyğun deyildir. XIX əsrin əvvəllərinə aid mənbədə kəngərlərin Naxçıvan bölgəsində altıncı və yeddinci əsrlərdə yerləşdikləri qeyd olunur.[2] Ermənicə mənbədə isə Ararat vadisində Kanqark əyalətinin adı çəkilir. Orta əsrlərdə kəngərlər Naxçıvan bölgəsində hakim mövqeyə malik idilər. Naxçıvan xanlığının hakimləri də kəngərlərdən idi.

XIX əsrin əvvəllərinə aid məlumatda kəngərlər Naxçıvanda 920 ailədən ibarət idi.[3] Yenə həmin əsrin əvvəllərinə aid məlumata görə Naxçıvanda kəngərlər aşağıdakı tayfalardan ibarət idi: Yurdçu, Qızıllı, Sarvanlar, Xalxallı, Pirhəsənli, Salaş, Ağabəyli, Qarabağlar, Kəmən, Cağatay, Qaraxan, Hacılar, Cəmşidli, Bilici, Qızılilan, Qurdlar, Qaradolaqlı, Şabanlı, Kəlfir, Ərəfsəli, Qaracallı, Qarakövsərli, Bolqarlı, Kürd Mahmudlu, Əliyanlı, Ziyadlı, Bərgüşadlı.[4]

1831-ci ilə aid mənbədə göstərilir ki, Naxçıvan əyalətində iki böyük tayfa birləşməsi yaşayır: Kəngərlər və Qaracalar. Mənbədə qeyd olunur ki, Kəngər tayfaları aşağıdakı kəndlərdə məskundurlar: Yurdçu-Cəhri kəndində; Cümşüdlü-Govurarx, Xok, Şahtaxtı və Gildasar kəndlərində; Xalxallı-Vayxır kəndində; Qaraxanbəyli - Qaraxanbəyli kəndində; Ağabəyli, Caqataylı, Qaracallı, Bilici, Qaraqulağı, Keçilər, Sarvanlar, Şahbanlı, Əlixanlı - Naxçıvan şəhərində; Ərəvsəli-Dizə - Kərimbəy kəndində; Sələykə-Nəhəcir, Külüs və Mahmudoba kəndlərində; Qızıllı - Kültəpə kəndində; Pir Həsənli - Kaqan kəndində; Qızılqışlaq-Bulğan kəndində; Kəlfir-Tirkəş və Seləsus kəndlərində; Qarabağlar - Qarabağlar kəndində.[5] Qaracalar tayfası isə kürd mənşəli sayılır və Dərələyəz mahalında yarımköçəri həyat tərzi keçirirdilər.[6]

Naxçıvan bölgəsində eramızın əvvəllərində məskunlaşmış digər türkdilli tayfa peçeneqlərdir.

Peçeneqlər Orta Asiyanın qədim türkdilli tayfalarından biri olmuşlar. Mənşəcə onlar antik mənbələrdə qeyd olunan basinelərdir. Basine adı sonralar peçeneq, peçene, becənə formalarını kəsb etmişdir. Peçeneqlərin məhz Orta Asiyada Sır-Dərya çayının hövzələrində

---

[1] *Məmmədhəsən Vəliyev (Baharlı)* Azərbaycan. Bakı, 1993, s. 41.
[2] Статистическое описание Нахичеванской провинции составленное В.Г. СПб.,1833,с 31.
[3] Yenə orada, s. 32.
[4] *Şopen İ.* Göstərilən əsəri, s. 537-538.
[5] Статистическое описание Нахичеванской провинции..., с. 32.
[6] Yenə orada.



eradan əvvəl III əsrdə yaradıqları Kanq dövlətinin yaratmış hissəsi Kəngər adlanmışdır. Deməli, peçeneqlərlə kəngərlər eyni tayfanın adamları idilər. Onlar da eranın əvvəllərində hunların tərkibində Cənub-şərqi Avropa çöllərindən Cənubi Qafqaza gəlmişlər.

Peçeneqlər Albaniyada indiki Ermənistan ərazisində və Naxçıvan bölgəsində məskunlaşmışdılar.

Musa Kalankatlının "Alban tarixi" əsərində Albaniyanın Artasak bölgəsində bir mahal Pazkank adlanır.[1] Həmin mahalın adı VII əsrə dair ermənicə mənbədə Pants-kank kimidir.[2]

Y.B.Yusifov doğru olaraq iki dəfə bu toponimlərin Paçanaq (Peçeneq) etnoniminin qədim ermənicə yazılış forması olduğunu müəyyən etmişdir.[3] Həmin Paskak mahalı indiki Quruçayla Hadrutçay arasındakı ərazini əhatə edirdi.[4] Bu fikir onunla təsdiq olunur ki, XII əsrə aid ermənicə mənbədə Dağlıq Qarabağda Bçans məntəqə adı çəkilir.[5] VII əsrə aid mənbədə isə bu bölgədə Rot-Patsian mahal adı çəkilir[6] ki, bu da farsca rot – "çay" və peçeneq adının qədim ermənicə təhrif forması olan Paçian adından ibarətdir. Qeyd etmək lazımdır ki, Əsgəran rayonunda bir dağ indi də Becenexut adlanır ki, bu da peçeneq etnonimindən və monqolca xud – "düşüncə" cözündən ibarətdir.

Peçeneq etnonimi Ermənistan ərazisində bir neçə toponimdən təhrif olunmuş şəkildə Bcni, Becni və ərəb mənbələrində Bacunays kimi məlumdur.[7]

Naxçıvanda isə bu etnonim Biçənək adlı bir neçə yaşayış məntəqə və aşırım adında əksini tapmışdır.

Peçeneqlərin eranın əvvəlində Cənubi Qafqazda yaşaması iki mühüm tarixi faktla da təsdiqlənir. Birincisi, e.ə. I əsr müəllifi Strabon Şimali Qafqazda Panksan tayfasının yaşadığını qeyd edir. Gürcü mənbələrində isə peçeneqlərin eranın ilk əsrlərində gürcülərlə birlikdə Ermənistana yürüşü qeyd olunur.[8] Əlbəttə, istər Cənubi Qafqaza, istər Naxçı-

---

[1] "Alban tarixi", I kitab, 22-cı fəsil.
[2] Армянская география VII века, с. 40.
[3] *Юсифов Ю.Б.* О некоторых языковых элементах тюркского происхождении в сочинении Албанского историка. "Советская тюркология", 1974, № 2, с. 76.
[4] *Гейбуллаев Г.А.* К этногенезу азербайджанцев, с.104.
[5] Yenə orada.
[6] Армянская география VII века, с. 48.
[7] *Гейбуллаев Г.А.* К этногенезу азербайджанцев. с. 104-105.
[8] *Страбон*, XI, 4,6. *Мровели Леонти.* Жизнь Картлийских царей. М., 1979, с. 69.

van bölgəsinə peçeneqlərin hamısının eranın əvvəllərində gəldiklərini söyləmək çətindir. Məsələ bundadır ki, X əsrə aid mənbədə Cənub-şərqi Avropada yaşayan xəzərlərin[1] və XI-XII əsrlərdə Orta Asiyadan gəlmiş oğuzların[2] içərisində də peçeneq tayfaları məlumdur. Lakin həmin tayfaların hansı qollardan, yaxud tirələrdən ibarət olması məlum deyil.

Peçeneqlər VIII-IX əsrlərdə Cənubi Rus çöllərində ağalıq edən etnos idilər.

VIII əsrin sonlarından IX əsrə qədər Ural-Volqa çayları arasında xəzərlərdən şərqdə peçeneqlər hakim olmuşlar.[3] Lakin IX əsrdə Aral dənizinin şimalı ilə qərbə hərəkət edən qıpçaqlar 889-cu ildə peçeneqləri məğlub edərək Qara dənizin şimal sahillərinə köçməyə məcbur etmişlər.

Peçeneqlərin bir qisminin Cənubi Qafqaza gəlməsi də bu hadisə ilə əlaqələndirilir.[4]

X əsr müəllifi Konstantin Baqryanorodnı Cənub-şərqi Avropada yaşayan peçeneqlərin bir sıra tayfalardan ibarət olduqlarını göstərmişdir. Lakin bu tayfaların adları yunan dilində çox təhrif olunmuş şəkildə yazılmışdır. Həmin mənbədə peçeneqlərin İrtim, Tsur, Qila, Kulpey, Xaravoy, Xopon, Tolmat və Tsopon tayfalarından ibarət olduğu qeyd olunur ki,[5] bunlar yunan dilində "ç" səsinin olmaması üzündən və başqa səbəblərə görə çox təhrifə uğramış formalardır. Cənubi Qafqazda mövcud toponimlər əsasında həmin tayfaların əslində Kuerçi, Erdim, Çur, Kuloba, Qarabay, Qarabaq, Kapan və Çoban adlandıqları müəyyən edilmişdir.[6] Həmin tayfa adlarının Yardımlı, Çoryurt, Göyərçin, Qarabaq və Qapanlı toponimlərində əks olunduğu aşkarlanmışdır. Bunlar içərisində Qarabağ tayfasının adı xüsusilə diqqəti cəlb edir. Ona görə ki, Azərbaycanda Şərqi Türkiyədə və Naxçıvan bölgəsində Qarabağ toponimləri geniş yer tutur.

Qarabağ toponimlərinin peçeneqlərin Qarabay tayfasının adı ilə bağlılığı şübhə doğurmur, çünki peçeneq dilində Qarabay etnoniminin sonundakı "y" səsinin başqa türk dillərində "ğ" səsinə uyğunluğu fikri

---

[1] Очерки истории СССР, М., 1958.
[2] *Hüseynzadə M.* Qaramanlı tayfasının Anadoluya gəldiyi yollar. Azərb. SSR EA Xəbərləri, Tarix, fəlsəfə və hüquq seriyası. 1968, № 3, s. 61.
[3] *Баскаков Н.А.* Введение в изучение тюркских языков. М., 1969.
[4] Yenə orada.
[5] *Багрянородный Константин.* Об управлении империи. М., 1989, с. 155.
[6] *Гейбуллаев Г.А.* К этногенезу азербайджанцев, с. 106-107.



vardır.[1] Digər tərəfdən, Qarabağ toponimləri çox geniş areala malikdir və əsasən peçeneqlərin yaşadıqları bölgələrdə mövcuddur.

Belə güman etməyə əsas vardır ki, X əsr müəllifinin Cənub-şərqi Avropada qeyd etdiyi tayfalar eranın əvvəllərində hunlarla birlikdə Cənubi Qafqaza gəlmiş peçeneqlərin içərisində də var idi.

Naxçıvan MR ərazisindəki toponimlərdən aydın olur ki, orada qədim türk mənşəli Abdal (Abdaldağı oronimi), Hun (Xunut dağ adı və Künüt kəndinin adı), Gorus (Xurs kəndi), Quşçu (Quşçu kənd adı), Bayan (Bayan kənd adı) və b. qədim türk tayfaları da məskunlaşmışdır.

Naxçıvan bölgəsində Xəzəryurd oronimi göstərir ki, orada xəzərlər də yaşamışlar.

Şimali Qafqazın Xəzərsahili ərazisi xəzərlərin ana yurdu hesab olunur.[2] Ona görə də xəzərlərin Cənubi Qafqazla münasibətlərinin qədim tarixi vardır. V əsrə aid qədim erməni mənbəyinə görə xəzərlərin indiki Ermənistan ərazisinə hərbi yürüşləri eranın II əsrində başlanmışdır.[3] Alban tarixçisi Musa Kalankatlı xəzərlərin Albaniyaya ilk hücumunu 350-ci ilə aid edir. Ərəb tarixçisi Təbəriyə görə, Sasani şahı Xosrov Ənuşirəvan Kür-Araz çayları arasında 10 min Xəzər ailəsini yerləşdirmişdi.[4]

Mənbələrdə hələ ondan əvvəl Sasani şahı I Şapurun (240-271) hakimiyyəti illərində Cənubi Qafqaza hücumları barədə məlumat vardır.[5]

Sasani şahı I Qubad (489-531)[6] və Xosrov Ənuşirəvanın (531-579)[7] hakimiyyətləri dövründə xəzərlərin Cənubi Qafqaza basqınları haqqındakı məlumatlar göstərir ki, xəzərlərin bir hissəsi burada məskunlaşmışdı. Sonra da 623-cü ildən başlayaraq 796-cı ilədək vaxtaşırı Ərəb-Xəzər müharibələri baş vermişdir ki, bu müharibələrin döyüş meydanı əsasən Azərbaycan ərazisi idi.[8]

Mənbələrdə xəzərlərin abas, kulas, tarna, avar, oğuz, bulqar, bizal, paçinak, kabar və b. tayfalardan ibarət olduğu qeyd olunmuş-

---

[1] *Baskakov N.A.* Göstərilən əsri, s. 257.
[2] *Плетнева С.А.* Хазары. М., 1976, с. 16.
[3] История Армении Моисея Хоренского, М., 1893, с. 113.
[4] *Буниятов З.М.* Азербайджан в VII-IXвв. Баку, 1965, с.107-116.
[5] Yenə orada.
[6] *Pletneva S.A.* Göstərilən əsəri, s. 17.
[7] *Bünyadov Z.M.* Göstərilən əsəri, s.107-116.
[8] *Артамонов М.И.* История Хазар, Л., 1962, с. 181. 190, 205-211. *Буниятов З.* Göstərilən əsəri, s. 108-115, *Плетнева С.А.* Göstərilən əsəri, s. 35-39.

dur.[1] Ona görə də güman etmək olar ki, Naxçıvan bölgəsinə xəzərlərin içərisində peçeneqlər də gəlmişlər. Lakin Xəzər tayfalarının bu bölgədə məskunlaşma vaxtını dəqiq göstərmək mümkün deyildir. Yalnız "VII əsr erməni coğrafiyası" adlı əsərdə Naxçıvan bölgəsində Tarnavar toponiminin qeyd olunmasına görə[2] belə nəticəyə gəlmək olar ki, xəzərlərin bu tayfası hər halda VII əsrdən qabaq gəlib məskunlaşmışdı.

Bir məsələ də nəzərə alınmalıdır. Naxçıvan bölgəsi ərazicə indi Ermənistan adlanan ölkə ilə həmsərhəddir. Ermənistanda türkdilli tayfaların (kəmər, sak, şirak, quqar, peçeneq, bulqar, basian, cin və b.) er. əv. VIII-VII əsrlərdən başlayaraq eramızın I minilliyinin sonuna qədər yaşaması aşkara çıxarılmışdır. Şübhəsiz ki, bu tayfalar Ermənistan ərazisindən Naxçıvana da keçib yayıla bilərdilər.

Naxçıvan bölgəsində habelə Səlcuq oğuzlarının Xələc, Yaycı, Bəkdili və başqa tayfaları da iz qoymuşlar.

Yuxarıda deyilənlərdən aydın olur ki, Naxçıvan MR ərazisində qədimdən türkmənşəli etnosların yaşadığı şübhəsizdir. Erməni tarixçiləri Naxçıvan bölgəsini binadan erməni ərazisi hesab edirlər. Bu uydurma fikir er. əv. I əsrdə Strabon (I əsr) tərəfindən qədim yunan dilində Basoropeda (ərəb mənbələrində Basfurcan) adlanan indiki Naxçıvan bölgəsinin Erməniyyə tərəfindən işğalına əsaslanır. Lakin Strabon açıq yazır ki, ermənilər Basoropedanı Atropatenadan qoparmışdılar.[3] Eramızdan əvvəl 66-cı ildə Roma ordusu Erməniyyə hökmdarı II Tiqranı məğlub etdikdən sonra Böyük Erməniyyə dağılmışdı.[4] Bununla əlaqədar olaraq Atropatenadan qoparılmış bölgələr də geri alınmışdı. Ona görə də ermənilər heç vaxt Naxçıvan bölgəsində aparıcı xalq olmamışlar. XIX əsrin əvvəlinə aid mənbədə göstərilir ki, Naxçıvan əyalətində ermənilər iki hissədən ibarətdir - yerlilər və gəlmələr. Yerlilər 434 ailə, 1828-ci ildə gəlmələr - 2285 ailə.[5] Bu məlumatdan aydın görünür ki, ermənilər Naxçıvanda yerli deyil. Naxçıvan bölgəsində toponimlərin demək olar ki, hamısının türkmənşəli olması da bunu göstərir.

---

[1] *Баскаков Н.А.* Введение в изучение тюркских языков, с. 195-196, 237.
[2] Армянская география III века, с.48.
[3] *Страбон.* XI, 14, 14.
[4] *Манандян А.* О торговле и городах Армении в связи с мировой торговлей древних времен. Ереван, 1944.
[5] Статистическое описание Нахичеванской провинции, с. 33.



XIX əsrin ortalarında İrəvan qubernasiyasının Şərur-Dərələyəz qəzasını tədqiq etmiş A.V.Parvitski yazır: "По давности заселения края, жители его распределялись то на старожилов и переселенцев; К первым относятся татары (azərbaycanlılar nəzərdə tutulur), **ко вторым принадлежат армяне, преимущественно выселевшиеятся в пределы Шаруро-Даралагезского уезда из Персии в 30-40-х годах".**[1] Müəllif sonra qəzada azərbaycanlı və erməni kəndlərinin miqdarını göstərir: qəzada 55 azərbaycanlı kəndi, 7 erməni kəndi vardı.[2] Bu məlumat göstərir ki, erməni tarixçilərinin Naxçıvan bölgəsini əzəli erməni ərazisi saymaları tarixi faktları saxtalaşdırmadır.

Naxçıvan bölgəsində orta əsrlərdən başlayaraq kürdlər də məskunlaşmışlar.

XIX əsrin əvvəllərinə aid mənbələrdəki məlumatlara görə Naxçıvan bölgəsində Milli, Qaraçorlu, Əlixanlı, Püsyan və b. kürddilli tayfalar yaşayırdı. Yazılı mənbədə qeyd olunur ki, Milli, Hacısamlı, Əliyanlı və Şadmanlı tayfaları Azərbaycan dilində danışırlar.[3]

Yuxarıda deyilənlər təsdiq edir ki, Naxçıvan bölgəsində türkdilli əhali *avtoxtondur.*

## II. TOPONİMLƏR

**Oykonimlər.** Yuxarıda Naxçıvan MR ərazisində olan etnotoponimlərdən danışıldı. Lakin tədqiq olunan ərazidə elə yaşayış məntəqələri vardır ki, onlar təbii şəraitdən irəli gəlmiş cəhətləri öz adlarında əks etdirirlər. Deyilənlərə aşağıdakı misalları çəkmək olar. Zırnel kəndi (Şahbuz r-nu), əslində Zəmil – Qızılçay (Qırmızıçay) deməkdir. Bu kənd sürüşmə nəticəsində dağıldığından onu başqa yerə köçürüblər. Kəndin adı onun ətrafında olan dağ süxurlarının rəngindən götürülmüşdür. Qızılca kəndinin (Culfa r-nu) adı süxurun qırmızı rəngə çalması ilə bağlıdır. Qızılvəng kəndinin (Babək r-nu) adı qırmızı daşdan tikilmiş kilsə deməkdir.

---

[1] *Парвицкий А.В.* Экономический быт гос. крестьян на Северо-Западной части Шарура и восточной части Даралагеза Шаруро-Даралагезского уезда Эриванской губернии. "Материалы для изучения эк. быта государственных крестян Закавказского края", том IV, Тифлис, 1886, с. 99.
[2] Yenə orada.
[3] Сборник сведений о Кавказе, т. XIII, с. 247-248.

Kükü kənd adının (Şahbuz r-nu) Azərbaycan xörəklərindən birinin adından götürüldüyünü hesab edirlər. Kükü yeməli göy otlardan hazırlanır. Əslində Kükü kənd adı Kükü dərəsində olan yaşıllığı, dağ yamaclarını yaşıl ota, çiçəkli çəmənliyə qərq edən subalp çəmənliyi ilə bağlıdır. Kükü kəndindən şimalda Dərələyəz silsiləsi suayrıcında ucalan Kükü dağının adını erməni psevdoalimləri «özününkü etmək» məqsədilə ermənicə Qoqi adlandırmışlar.

Şərur rayonundakı Günnüt kəndi gündəyən yerdə salındığından belə adlanır. Günnüt eyni zamanda etnotoponimdir. Qızılqışlaq xarabalığı adının birinci hissəsi dağ süxurlarının qırmızı rəngə çalmasından alınmışdır.

Qarakəmər dağının adı həmin dağın yüksək hissəsi boyu uzanan qaraya çalan qayalı çıxıntıların yamacı kəmərləməsindən götürülmüşdür (Ordubad r-nu). Dağ süxurları fiziki aşınmanın təsirindən ayrı-ayrı kiçik hissələrə bölündüyündən və onların hər biri pulu, dəmir paranı andırdığından para (para-para, pul-pul olan) daş adının birləşməsindən Paradaş kəndinin adı (Culfa r-nu)meydana gəlmişdir.

Yarımca kəndinin adı (Babək r-nu) kəndin yerləşdiyi ərazinin (və ya ona yaxın təpənin, dağın) bir hissəsinin uçurumlu olması nəticəsində yaranır. Xızı rayonundakı Yarımca dağı da bu qəbildəndir. Kənd böyük sahə əhatə edən düzdə yerləşdiyi üçün onun adı Böyükdüz adlandırılmışdır. Dərədə yerləşən kənd Dərəkənd adlanır. Bəzi kəndlərdə əhalinin kəndin yaxınlığında tədricən küldən yaratdığı təpə Kültəpə adlanırdı.Küldən olan həmin təpəyə yaxın salınmış yaşayış məntəqəsinə belə ad verirdilər. Daşarxı yaşayış məntəqələrinin adı arxın daşlı sahədən çəkilməsi ilə əlaqədar yaranmışdır. Deyilənlərdən aydın olur ki, Naxçıvan MR-də olan toponimlərin bir qismi təbii şəraitlə bağlı olaraq yaranır.

**Oronimlər.** Azərbaycan Respublikası ərazisinin quru hissəsi düzənlik və dağlıqdan ibarətdir. R.Piriyevin yazdığına görə (1963), respublika ərazisinin ümumi sahəsinin (86,6 min kvadratkilometr) 28 metrdən sıfır metrə qədər olan hissəsinin 18 faizini, sıfır metrdən 200 metrə qədər olan hissəsinin 24 faizini, 200 metrdən 500 metrə qədər olan hissəsinin 15,5 faizini, 500 metrdən - 1000 metrə qədər olan hissəsinin 15,5 faizini, 1000 metrdən 1500 metrə olan hissəsinin 12 faizini, 1500 metrdən yüksəkdə olan hissəsinin isə 15 faizini dağlıq təşkil edir.



Naxçıvan MR ərazisi dağətəyi düzənlikdən başlayaraq Qapıcıq dağma qədər (3906 m) ucalır. Muxtar Respublika ərazisinin şərq hissəsində Araz çayının sol sahilindən başlayaraq Biçənək aşırımına (2348 m) qədər Zəngəzur dağları silsiləsi ucalır, qərbdən və şimal-qərbdən başlanan Dərələyəz silsiləsi Biçənək aşırımında Zəngəzur silsiləsinə qovuşur. Gəlinqaya dağının mütləq yüksəkliyi 2773 metrdir. Zəngəzur silsiləsinin qərb yamacından ayrılan dağ qolları çay dərələrinin sağ və sol hissələri boyu uzanmaqla onların hövzələrini hüdudlaşdırır.

Araz çayının sol sahili boyu uzanan Arazsahili düzənlik dağlara doğru tədricən ucalaraq orta dağlıq ərazinin qərb ətəkləri ilə qovuşur.

Naxçıvan MR ərazisinin ən alçaq yeri Ordubad rayonu ərazisində, Araz çayı yatağında 600 metr mütləq yüksəkliyə malikdir. Deməli, Muxtar Respublikanın ərazisi əsasən dağlıqdır. Bu səbəbdən də Naxçıvan MR ərazisində olan oronimlər miqdarca çoxsaylı, mənaca müxtəlif məzmunludur. Bu, ərazinin müsbət və mənfi relyef formalarını əks etdirən coğrafi terminlərin və sözlərin zənginliyi ilə əlaqədardır. Oronim yaradan **topoformantlara** ağ, ala, aran, baş, boğaz, boz, boyun, vəng, qabaq, qapı, qara, qızıl, qoşun, qutan, quzey, dağ, daş, dərə, kəsən, kecəl, gədik, gəz, güney, əxi, kelə, key, kənd, oba, oyuq, sal, sarı, su, səngər, soyuq, taxta, təpə, tap, uzun, çin və s. göstərmək olar. Naxçıvan MR ərazisi tarix boyu Cənubi Azərbaycan və İranla, o cümlədən də Cənubi Azərbaycanla sıx etnik və mədəni əlaqədə olduğuna görə buranın oronimiyasında fars mənşəli sözlər də vardır. Məsələn, VII əsr mənbələrində adı çəkilən məşhur Əlincə qalasının adı qədim fars dilində crizə - "dik, sıldırım, əlçatmaz qaya" sözündəndir. Şahtaxtı və Şahbuz toponimlərində fars dilində şox "sal qaya" sözü iştirak edir. Deməli, bir neçə Şahdağ oronimlərində olan "Şah" sözü kimi, bu adlarda fars dilindəki şah – "hökmdar", "çar" sözünü axtaranlar yanılırlar, heç olmazsa ona görə ki, Şahdağlar heç də ən uca, ən böyük dağlar deyildir.

Topoformantlardan görünür ki, onların içərisində rəng (ağ, qara, göy, qırmızı, qızıl və s.), insanın bədən üzvlərinin adını (baş, boğaz, boyun, burun), heyvanat aləmini (qoç, quş, dəvə, qurd, ilan və s.) bildirən sözlər oronimiyada mühüm yer tutur. Bəzi oronimlər isə xristian və islam dini ibadətgahları adlarını bildirən vəng, dair (deyr), kelye, naus, pir sözlərindən yaranmışdır. Qədim ibadətgahlar (ziyarətgahlar), adətən, dağlıq ərazilərdə yerləşirdi. Bəzi dağlarda bitki

örtüyü ala-tala sahə tutduğundan onlar keçəl adlanır. Türk oronimiyasında bu sözlərlə yaranan oronimlər geniş yayılmışdır. Vulkanogen süxurların bir qrupu çəki etibarilə yüngül olduğundan onlara kəvək (yüngül çəkili) deyirlər ki, ondan da kəvək topoformantı yaranmışdır.

Müsbət relyef formalarının müxtəlif çalarlarını əks etdirən dağ, dik, yoxuş, tap, təpə, uca, dağ düzənliklərini əks etdirən (düz, taxta, sal və s.) sözləri xüsusilə geniş yayılmışdır. Qeyd edilməlidir ki, Muxtar Respublikanın oronimiyasında baz, təhrif forması buz (əsli qədim türk dillərində bayz – "sıldırım qaya"), saqir – "dağ burnu", çin (qədim türk dillərində çinq ("sıldırım dağ yarğanı"), tey (qədim türk dillərində "təpə") sözləri də əksini tapmışdır (Teyvaz və b.).

Naxçıvan MR ərazisində mezooronimlərə Zəngəzur, İlandağ, Dərələyəz, Qapıcıq, Gəlinqaya, Soyuqdağ, Qızılboğaz, Taydaş (əsli Teydaş), Topdağ, Gəvəkdağ, Girdəsər (farsca "Yumrubaş"), Ziyarəttəpə, Dağdağan dağı, Qapıdaşqara, Cindağ, Qabaxtəpə, Qaraburun, Ucubiz, Nəsirvaz, Qırxlardağ, Ucagüney, Oğlangöz, Qoşundaş (monqolca qaşun – "köçəbə", "maldar elin yayda dayanacağı" sözündən), Daşbaşı, Uçurdağ, Oyuxlu, Körpəqoç, Qurdtəpəsi, Dağüstü və s. misal göstərmək olar.

**Hidronimlər.** Hidronim, ümumiyyətlə, su mənbələrinin adlarıdır. Su mənbələrinin iki növü vardır: təbii su mənbələri (göl, çay, nohur, bulaq və s.) və süni su mənbələri (arx, kanal, kəhriz, quyu, ovdan və s.). Buna uyğun olaraq su mənbələrinin adları da mənşəcə müxtəlifdir. Belə ki, təbii su mənbələri etnonimlərdən, rəng, keyfiyyət (dad) bildirən sözlərdən, kənd adlarından və s. ibarət olduğu halda, süni su mənbələri çox halda şəxs adlarından (bulaq, arx, ovdan, kəhriz), kənd adlarından (kanallar) ibarət olmuşdur.

Ümumiyyətlə, Azərbaycan ərazisindən axan bütün çaylar Xəzər dənizinin qapalı hövzəsinə daxildir. Kiçik çayların adları mənşəcə müxtəlifdir. Onların bir hissəsi ərazilərindən axdıqları kəndlərin adları ilə adlanır. Bəziləri isə rəng bildirən sözlərdən və etnonimlərdən yaranmışdır. Bu, Naxçıvan MR ərazisinin su mənbələri adları üçün də səciyyəvidir.

Naxçıvan MR ərazisində hidronimləri yaradan topoformantlar içərisində Azərbaycan (türk) mənşəli, ağ, arx, basar, boz, bulaq, qara, qızıl, duz, kanal, göl, isti, nohur, sarı, sel, sərin, soyuq, su, çay, şirin, şor və s., fars mənşəli ab (su), rud (çay), bah, bəh – "xeyirxah", "yaxşı", "xoş" (məsələn, Bəhrud, Vayxır), çeşmə (bulaq) və ərəb mənşəli



nəhr (çay, kanal) sözləri əsas yer tutur. Bununla əlaqədar olaraq Naxçıvan MR ərazisində su mənbələrinin adları mənaca müxtəlifdir. Suyun keyfiyyətini bildirən topoformantlar içərisində qara – içilməsi məsləhət görülməyən su (məsələn, Qarasu ç., Şərur r-nu) ağ – "içməli su" (Ağbulaq, Ağçay və s.) xüsusilə geniş yayılmışdır. Gursulu yüksək keyfiyyətli sulu bulaqları Xanbulaq (Şərur r-nu), Xançeşmə, Şirinsu, Sərinçeşmə (Ordubad r-nu), Şahbulaq (Şahbuz r-nu) adlandırmışlar. Şırranlıçay (Ordubad r-nu) və Qavalsuçay adları su axdıqda əmələ gətirdiyi səsləri əks etdirir. Bulaqlar üzə çıxarkən göz-göz olur.

Qaynaqların çoxluğunu nəzərə alaraq onları Qırxbulaq adlandırmışlar. İki gözdən qaynayan sərbəst bulaqlara Qoşabulaq demişlər (Babək r-nu). Suyun suvara bildiyi ərazidə salınmış yaşayış məntəqəsinin adı bulaqla bağlı hidronimini yaratmışdır. Məsələn, Çeşməbasar (Babək r-nu) kəndi. Lakin Çeşməbasar adlanan kənddə bulaq (çeşmə) yoxdur. Deməli, bu coğrafi ad (hidronim) kənardan (ilkin mənbədən) gətirilmədir.

Bağırsaqvarı uzanan çayı Bağırsaq dərəsi (Şərur r-nu), Meşəli dərədən axan çayı Meşədərəsi (Culfa r-nu), zoğallı dərədən axan çayı isə Zoğalsu adlandırmışlar.

Mineral bulaqların çoxluğu və onların hidrokimyəvi tərkibi baxımından Naxçıvan MR ərazisini mineral bulaqlar muzeyi adlandırmaq olar.

Azərbaycan Respublikasının Kiçik Qafqaz hissəsində olan yuvenil və metaforik mənşəli karbon qazları Naxçıvan MR ərazisində də geniş yayılmışdır. Əlincəçayın yuxarı axınında olan bulaqlardan biri radioaktivdir. Darıdağ mineral bulağının isə tərkibində arsen vardır.

Naxçıvan MR-də Badamlı, Aşağı Ləkətağ, Yuxarı Ləkətağ, Darıdağ, Cuğa, Sirab, Vayxır, Parağaçay, Gümür adlı mineral bulaqlar vardır. Mineral bulaq adlarının əksəriyyəti oradakı yaşayış məntəqələrinin adlarından ibarətdir. Ancaq Sirab kənd adı oradakı Sir+ab (sirli su) adı ilə bağlıdır. Eyni sözü Vayxır kəndinin adı barədə də demək olar. Q.Ə.Qeybullayevin yazdığına görə, Vayxır kəndinin adı oradakı Vayxır bulağının adındandır. Bulağın adı isə orta (fars dilində) vah – "yaxşı", "xeyirxah" və xvar – "yer" sözlərindən ibarətdir ki, bu da bulağın müalicə əhəmiyyətli mineral su olması ilə əlaqədardır.

Tədqiqatçılar (M.Qaşqay, Ə.Əsgərov) Naxçıvan MR mineral bulaqlarını kimyəvi tərkiblərinə görə hidrokarbonatlı, hidrokarbonat-

lı-xloridli, hidrokarbonatlı-sulfatlı, xlorid-hidrokarbonatlı tiplərinə ayırmışlar.

**Zoonimlər.** Azərbaycan Respublikası ərazisi relyefinin düzənlik və dağlıqdan ibarət olması, iqliminin əlverişliliyi, bitki örtüyünün zənginliyi, quru ərazisinin dənizlə sərhədlənməsi heyvanat aləminin zənginliyi və növ müxtəlifliyinə təbii zəmin yaratmışdır.

Azərbaycan ərazisində olan hər bir landşaft kompleksinin özünəməxsus heyvanat aləmi formalaşmışdır. Məsələn, meşə landşaftı üçün cüyür, dələ, meşəsonası, ayı, vaşaq, meşəpişiyi, oxlu kirpi, qaban, meşəxoruzu, göyərçin və başqa heyvanlar xas olduğu halda, yarımsəhra landşaftı üçün ceyran, qaban, qırmızıquyruq qumsiçanı, bataqlıq qunduzu, çölsiçanı, turac, dovdaq, qaz, gürzə və digər heyvanlar xasdır.

Naxçıvan MR-in ərazisinin bitki örtüyü kasıb olduğundan buranın heyvanat aləmi də həm növ, həm də say baxımından çox seyrəkdir.

Naxçıvan MR-in yüksək dağlıq ərazisində qayakeçisi, ayı, bəbir, daşlıqdələsi, dovşan, canavar, Xəzər uları, göyərçin yaşayır. Orta dağlıq ərazidə Zaqafqaziya muflonu, qayakeçisi, oxlu kirpi, Kiçik Asiya qumsiçanı, gürzə və s. heyvanlar vardır.

Heyvanat aləmi bəzi zoonimlərdə əksini tapmışdır. Ayıdərəsi çayı (Ordubad r-nu), Qurddağ (Babək r-nu), Qurd dərələri (Culfa r-nu), Ceyranlar kövşəni, Qaraquş dağı (2600 m) (Babək r-nu) və s.

Ornetofauna ilə əlaqədar Qaranquş dağı (Ordubad r-nu), Quşqayası dağı ilə Quşqayası kövşəni (Babək r-nu), toponimləri misal göstərilə bilər.

Şahbuz rayonunda Təkəlik (dağ) və Keçili (kənd) coğrafi adları vardır. Təkəlik coğrafi adı dağ keçisinin (təkənin) məskən salması ilə əlaqədardır. Keçili kəndinin adı keçi adından götürülmüş ola bilər. XVII əsrdə Cənubi Azərbaycandan şimala köçərək kəngərlərə qarışmış tayfanın adıdır. Keçmiş elmi mənbələrdə "Tayfeyi Keçili" adlanır.

İlandağ (Culfa r-nu) Naxçıvan MR-in nadir təbiət abidələrindəndir. Zirvəsi dilik-dilik olmuş sivri qayalardan ibarət olan bu dağ ətrafındakı zirvələrin simvoluna çevrilmişdir. Ehtimal ki, dağın adı mənşəcə orada yaşayan ilanların bolluğu ilə əlaqədar yaranmışdır.

Naxçıvan MR ərazisində ev heyvanları ilə bağlı yaranmış zoonimlər də vardır: Ordubad r-da Eşşəkmeydanı və Toxlugədik aşırımları, Babək r-da Qanlıquzey dağı, Aladüyə və Dəvəboynu kövşənləri, Şərur r-da tikilmiş Arpaçay su anbarının altında qalmış Dəvəölən adlı yer, Dəvə adlanan kövşən, Şahbuz r-da Quzuyurdu kövşəni, Culfa r-da Kəlbaşı dağı və s. Bu zoonimlərin bəzisi bənzətmədən (kəlin başını, dəvənin boynunu xatırladan), bəzısı baş vermiş hadisələrdən (Dəvəölən), bəzisi isə bu və ya digər heyvanın məskəni (Təkəlik, Qurd dərələri, Ayıdərəsi, Ceyranlar və s.) olması ilə əlaqədardır.



**Fitonimlər.** Azərbaycan Respublikasının ərazisinin bitki örtüyü növ müxtəlifliyinə görə zəngindir. Qafqazda inkişaf etmiş floranın neçə növü Azərbaycan ərazisində bitir. Burada inkişaf etmiş endemik və relikt bitkilər çox böyük əhəmiyyətə malikdir. Respublikamızın ərazisində meşə (palıd, fıstıq, vələs, dəmirağacı, şabalıdyarpaq palıd, akasiya, tuqay, kol cəngəllikləri, qaratikan və s.) – seyrək kserofit bitkiləri (ardıc, saqqızağacı, şam, seyrək Eldar şamı), çəmən, çəmən-çöl, dağ-kserofit, çöl, yarımsəhra, səhra, efemer bitkiləri inkişaf etmişdir (*Prilipko*).

Naxçıvan MR ərazisi kontinental iqlimə malik olduğundan burada sərt qışa və isti yay aylarına uyğun olan bitkilər üstünlük təşkil edir. Dağətəyi düzənlikdə, qalıq (alçaq) dağlarda, çayların gətirmə konusları üzərində yarımsəhra və qismən səhra bitkiləri – yovşan, yovşanşoran, dağüstü-kserofil (*friqanoid*), şoran-xırda kollu səhra bitkiləri inkişaf etmişdir. Bu bitki növləri Araz çayının sol sahilinə qovuşan düzənliklərdən, tirələrdən və yüksəkliklərdən başqa Naxçıvan MR-in orta yüksəkliyə malik dağlarının (2000-3000 m) yamaclarını da örtür. Yayı quraq keçən soyuq iqlimdə yaranmış bu bitkilər dağ yamaclarını tam örtə bilmədiyindən burada səthi eroziya və denudasiya sürətlə inkişaf edir.

Yüksək dağlığın yamaclarında meşədən sonrakı çölləşmiş çəmən bitkiləri dağüstü kserofit bitkiləri ilə subalp çəmənlik arasında qalan ərazilərdə talalar şəklində yayılmışdır.

Yüksək dağlığın subalp və alp çəmənlikləri, çəmən çölləri, qayalıq-çınqıllıq bitkiləri Zəngəzur dağlarının cənub-qərb və qərb yamacları boyu inkişaf etmişdir. Naxçıvan MR ərazisində inkişaf etmiş meyvə ağacları əsasən çay dərələri boyu yaşıl lent kimi uzanır. Dağ çaylarından və bulaqlardan su içən, bol günəş enerjisindən isinən və bərəkətli torpaqdan baş qaldıran kənd təsərrüfatı bitkiləri yüksək məhsul verir. Bu təbii şəraitdə yetişdirilən meyvələr dadlı və ətirli olur.

Təbii şəraiti və insan əməyinin bəhrəsi ilə becərilən bitkilərin adından Naxçıvan MR ərazisində bir çox fitonimlər yaranmışdır.

Yarpaqlı dağı, Biyanlı kövşəni, Armuddüzü, Alçalıq (Ordubad r-nu), Almalıdağ (Şahbuz r-nu), Alça dağı (Culfa r-nu), Ardıc (Şərur r-nu) və bu kimi başqa coğrafi adları fitonimlərə misal göstərmək olar.

Bu coğrafi adlardan görünür ki, Naxçıvan MR ərazisində ardıc, şam ağacları bitir. Deməli, həmin quraqlıqsevər yerli ağac növlərindən istifadə edib o ərazilərdə meşə sahələri yaratmaq olar. Bu baxımdan fitonimlərin əhəmiyyəti böyükdür. Ola bilər ki, bu və ya digər bitki adları fitonimlərin yaranmasında iştirak etsin, ancaq onların özləri Naxçıvan MR-in təbiətində saxlanılmasın. Bu baxımdan da həmin bitki növlərinin bərpası xüsusi əhəmiyyət kəsb etmiş olur.

Naxçıvan MR ərazisində olan fitonimlərdən ümumi coğrafi ad yaradan bitki kompleksli adlar da vardır. Məsələn, Qoruqlar kəndi (Ordubad r-nu), Çimən kəndi, Qarabağlar kəndi (Şərur r-nu), Qaraçimən kövşəni (Culfa r-nu) kimi coğrafi adlar bir qrup (eyni tipli) bitkilərin cəmindən yaranır. Çəmən adlanan ərazi eyni növ ot bitkilərinin yayıldığı sahəyə deyirlər.

Məlumdur ki, qoruq dedikdə qorunan ərazi nəzərdə tutulur. Keçmişdə qoruq əsasən yuxarı zümrədən olan adamlara (sultanlara, xanlara, feodallara və s.) məxsus otlaq və əkin yerlərini əhatə edirdi. Sıravi adamlar orada ot biçə, gəzə, yaxud qaramal, qoyun sürüsü otara bilməzdilər. Bizcə, Qoruqlar kəndinin adı, "lar" cəm şəkilçisindən göründüyü kimi, XII əsrdə monqolların tərkibində gəlmiş türkmənşəli karık tayfasının adı ilə bağlıdır. Qoruq sahiblərindən başqa istifadəsi qadağan olunmuş ərazilərin qorunması son nəticədə təbiətin qorunması xatirinə olmuşdur.

Bu və ya digər ərazidə daim hər hansı bir kənd təsərrüfatı bitkilərinin əkilməsi ilə həmin ərazilər o floranın adı ilə adlandırılırdı. Arpaçuxur kövşəni (Culfa r-nu) "çuxurda arpa əkilən yer", Qavaxlı - dağ (Culfa r-nu) "qovaq ağacının bitdiyi sahə", Noxuddağ (Babək r-nu) çox güman ki, "noxud əkilən yer", fitonimləri buna misal ola bilər. İndiyədək Culfa rayonundakı Darıdağ oronimini fitotoponimik oronim hesab edir və dağın orada darı bitkisinin əkilməsi ilə əlaqədar olaraq Darıdağ adlandığını yazırdılar.

Dağ çayı yamacının ətəyi boyu axan çayın sahilində salınmış bağa Güneybağ çayı adı vermişlər (Ordubad r-nu). Tək bitən ağac əsasında Yalquzağac kövşəni (Ordubad r-nu) adı yaranmışdır.

Bitki adlarının iştirakı ilə yaranmış toponimlər bir tərəfdən həmin ərazidə hansı bitkilərin coğrafi yayılmasından xəbər verir, digər tərəfdən isə bu və ya digər bitkinin hansı ərazilərdə daha çox rast gəlindiyinə işarə edir.



**Təbii sərvətləri əks etdirən toponimlər.** Azərbaycan Respublikasının ərazisi təbii sərvətlərlə zəngindir. Respublikamızda yeraltı sərvətlərlə yanaşı, yerüstü sərvətlər də boldur. Şübhəsiz ki, təbii ehtiyatların hər biri təbii sərvətdir. Yeraltı sərvətlərə, əsasən, faydalı qazıntılar daxildir.

Azərbaycan Respublikası ərazisində yanacaq (neft, qaz, torf, yanar şist), metal (dəmir, arqans, titan, xromit, mis, polimetallar, kobalt, arsen, qızıl, gümüş, molibden), qeyri-metal (İslandiya şpatı, dağ bülluru, kükürd, barit, alunit, kopal, andaluzit, bitum, duzlar (qlauber duzu, daş duz, çökmə duz), müxtəlif tikinti, odadavamlı və bir çox başqa faydalı qazıntı yataqları vardır.

Azərbaycan Respublikasının faydalı qazıntı yataqları baxımından ən zəngin guşələrindən biri də Naxçıvan MR-in ərazisidir. Naxçıvan MR ərazisində metal yataqları əsasən Ordubad, Culfa və Şərur rayonları ərazisindədir. Arpaçayının üzərində tikilmiş su anbarının şərq hissəsində, Əlincə çayının orta axınında, Gilançayın yuxarı axınında polimetal yataqları vardır.

Naxçıvan MR ərazisinin cənub-şərq qurtaracağında mis, molibden, mərgümüş, andaluzit yataqları vardır. Naxçıvan çayının yuxarı axınında, vulkanogen süxurlarının inkişaf etdiyi ərazilərdə yanar şist, tikinti daşları, kükürd və başqa faydalı qazıntı yataqları müşahidə edilir. Naxçıvan MR-in düzənlik və dağətəyi regionu gips, travertin, daş duz, tikinti daşları, gillər, çınqıl. Yüksək keyfiyyətli travertindən tikintidə əsasən üzlük daşı kimi istifadə edilir. Şərur və Babək rayonları ərazisində travertin daş karxanaları vardır. Naxçıvan-Mincivan dəmir yolu bağlanana qədər Azərbaycanda Şahtaxtı ərazisindəki travertindən respublikada gedən tikintidə geniş istifadə edilirdi. Erməni millətçilərinin işğalçı siyasəti nəticəsində Azərbaycan Respublikasının, o cümlədən onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan MR-in iqtisadiyyatına ciddi ziyan dəymişdir və bu, indi də davam edir.

Naxçıvan MR-dəki faydalı qazıntılar o yerlərdə yaşayan əhaliyə tarixi keçmişlərdən məlum olduğundan həmin ərazilərə müvafiq faydalı qazıntıların adını vermişlər.

Naxçıvan MR-in Şərur və Babək rayonları ərazisində zəngin duz yataqları vardır. Onların bir hissəsi dağ ətəklərində olan alçaq dağlıq ərazidə üzə çıxan və son beş min il ərzində istismar edilən duz

mədənləridir. Duzdağ oronimi Babək və Şərur rayonları ərazisindədir. Babək rayonu ərazisindəki yeni duz yataqları sahəsində olan dağlardan birini Təzəduzdağ adlandırmışlar.

Şərur rayonunun şimal-şərqində Arpaçayır dərəsinin son yamacında polimetal yataqları tapılmışdır. Polimetal yataqlarında olan faydalı qazıntılar içərisində gümüş daha çox olduğundan yatağa Gümüşlü adı verilmişdir. Gümüşlü yatağını tədqiq edən geoloqların qəsəbəsi də Gümüşlü adlandırılmışdır.

Ordubad rayonu ərazisinin şimal, şimal-şərqində, Zəngəzur silsiləsinin suayrıcında olan dağ zirvələrindən biri Dəmirlidağ adlandırılır. Eyni adlı dağ (Dəmirdağ) Culfa rayonu ərazisində də vardır. Əlincəçay dərəsində (Ərəfsə kəndi yaxınlığında) hidrogeoloqların qazdırdığı kəşfiyyat quyusundan çıxan dəmirli suyu da "Dəmirlibulaq" adlandırırlar.

Şübhəsiz ki, dəmir (dağ) və ya dəmirli (dağ, su) toponimləri ilk növbədə dəmir faydalı qazıntıları və onların yer səthində müşahidə olunması əsasında yaranmışdır.

Culfa rayonu ərazisindəki Sürmə gilin qara rəngdə olması (bənzətmə yolu ilə) ilə bağlı ola bilər. Sürmənin (lilin) başqa mənası etnonimdir (Sürməli). Bu toponim başqa regionlarda da (Türkiyənin şərqində, indiki Ermənistanda və s.) müşahidə edilir.

Biləvəçay (Şərur r-nu) həm quru dərəyə, həm də dağa verilmiş addır. Bundan əlavə, Bilə̈v (büloy) dağ süxurları (daş) adını da özündə əks etdirir. Biləv, bilöv bıçağı və başqa dəmir alətləri itilətməyə yararlı daşdır.

Muncuqlu (təpə) ərazisinin adı (Şərur r-nu) təsərrüfat işləri zamanı qədim yaşayış və ya qəbiristan yerlərində müxtəlif daşlardan düzəldilmiş, qadınların boyunlarına, qollarına taxdıqları və onlarla birlikdə dəfn olunmuş muncuqların tapıldığı yerdir. Azərbaycanda Muncuqlu yer adlarına təsadüf edilir.

**Ayrıq (kövşən) coğrafi adları.** Azərbaycan coğrafi adları sırasında, B.Ə.Budaqova görə, əsasən mikrotoponimlərdən ibarət olan ayrıq (kövşən) adları xüsusi yer tutur. Ayrıq coğrafi adlarının Naxçıvan MR ərazisində xüsusilə çox olmasını nəzərə alaraq biz ayrıca bölmədə onlar haqqında danışmağı qərara aldıq.

Tədqiq olunan ərazidə əllidən artıq ayrıq adı məlumdur. Ayrıq adlarının elmi izahı göstərir ki, onların böyük əksəriyyəti yaxınlıqdakı



coğrafi adlardan deyil, sərbəst toponimlərdən yaranmışdır. Deməli, ayrıq adları mənşə etibarilə mikrotoponimlər əsasında əmələ gəlmişdir.

Qaracamal ayrıq adı (Babək r-nu) Kiçik qara nalın (bənzətmə) oxşarlığından yaranmışdır. Rəng bildirən coğrafi adlar (B.Budaqova görə, xromonimlər) topoformantlar əsasında yaranmışdır. Sarıbulaq kövşəninin (Şərur r-nu) adı da sarı ilə bulaq adlarının birləşməsindən əmələ gəlmişdir.

Ayrıq coğrafi adları aşağıdakı zəngin topoformantlar əsasında yaranmışdır: qaraca, nal, sarı, bulaq, ağıl, dəli, baş, quzey, qəmər, güney, külək, göy, yaşıl, araz, dəyən, bəndər, qoç, yurt, gəlin, qaya, əyri, qar, dağ, qızıl, qəndil, təpə, daş, qala, qazan, yayla, sal, arx, üst, çürük, çanax, qar, qamçı, çart, dərə, bal, donuz, qala, çəp, ağ, qaya, kilsə, biçənək, sev, kar və s.

Yuxarıda sayılan topoformantlar əsasında bir qrup toponimlər, o cümlədən Qaracanal, Qarabaş, Güney, Quzey, Külək, Yaşıllı, Qaradaş, Balçamdərə, Qazanyayla, Çürükdaş, Sel, Daşqala (Babək r-nu), Sarıağıl, Sarıbulaq, Daşarxüstü (Şərur r-nu), Çanaqlar, Qəndiltəpə (Ordubad r-nu), Qəmərquzey, Güney, Ağqaya, Çəpdərə, Yamacyurt, Yurt, Sevkar, Gəlinqaya, Göylük, Əyridağ, Əyriqar, Arazdəyən, Bəndər (Şahbuz r-nu) kimi kövşən adları yaranmışdır.

Bu toponimlər bu və ya digər coğrafi adları, həmin obyektin real xarici görünüşünü, rəngini və ya zahiri formasını özündə əks etdirmişdi. Deyilənlərə misal olaraq Qaradaş, Əyriqar, Qazanyayla, Sarıağıl, Sarıbulaq və s. göstərilə bilər. Bir qrup toponimlər günəş şüasının yamacı döyüb güneyi döyməməsi (Quzey), yelin çox əsməsi (Külək), daşın sahəvi olması, süxurun intensiv aşınması (Çürükdaş), müvəqqəti yaşayış yeri olması (Yurt) ilə əlaqədar toponimlərdir. Belə coğrafi adlar təbiətin xarici görkəmini və hətta orada gedən fiziki prosesləri xarakterizə edir. Arazdəyən (Arazdöyən) coğrafi adı o yerdə Araz çayı dərəsinin dar olması səbəbindən suyun bir sahilə istiqamətlənməsindən, onu yumasından yaranmışdır. Yaxud uca təpənin qaşında və ya üstündə yerləşən coğrafi obyektə Qəndiltəpə adı verilmişdir. Bəzən xalq əfsanələrində "nə yerdədir, nə göydə, qəndildədir, qəndildə" kimi ifadə işlədilir. Şahbuz r-da olan bir kövşənin adı erməni dilindən (sev-qara, kar-daş) götürüldüyündən Sevkar adlanır.

Rəng bildirən coğrafi adları B.Ə.Budaqov xromonimlər adlandırmışdır. Buna Qaradaş, Sarıbulaq, Göylük, Ağqaya və başqa coğrafi adlar misal ola bilər.

# İZAHLI TOPONİMİK LÜĞƏT

**ABBASABAD** - Babək r-nu Təzəkənd kəndinin cənub-qərbində qədim qala adı.[1] Abbas şəxs adından və əsli farsca abad – "yaşayış üçün yararlı yer", "oturaq yaşayış məntəqəsi"[2] sözündən ibarətdir. Hələ erkən orta əsrlərdə fars dilindən Azərbaycan dilinə keçmiş "abad" sözü Azərbaycanda hazırda mövcud olan 38 yaşayış məntəqə adında əksini tapmışdır. Deməli, tərkibində "abad" sözü olan oykonimlər əslində Azərbaycan mənşəli adlardır. İrəvan xanlığının Vedibasar mahalında və xanlığın Sürməli mahalında Abbasabad kənd adları[3] ilə mənaca eynidir.

**ABBAS QIŞLAĞI** - Naxçıvan əyalətinin Qışlağat nahiyəsində qışlaq adı.[4] "Qışlağın digər adı Vayxırdır" (yenə orada). Bax: Vayxır k.

**ABDAL** - İrəvan quberniyasının Naxçıvan qəzasında dağ adı.[5] Azərbaycan və Ermənistan ərazisində bir sıra toponimlərdə "abdal" komponenti vardır. Abdal həm qədim türk mənşəli (hun mənşəli) tayfanın adı,[6] həm də orta əsrlərdə sufi ordenlərinə mənsub dərvişlərin adı idi. Ərəbcə abdal "mömin", "zahid", "müdrik" mənasındadır. Bu dağın adında məhz Abdal etnonimi əksini tapmışdır. Abdal bir sıra türk xalqlarının etnik tarixində iştirak etmiş tayfa adıdır. Bu tayfa başqırd, qaraqalpaq, türkmən və qazax xalqlarının tərkibində vardır.[7] Tədqiqatçılara görə bu tayfa hun mənşəlidir.[8] Orta əsrlərdə Türkiyə ərazisində yaşayan tayfalardan biri də Abdal idi.[9] Lakin bu tayfanın Azərbaycan ərazisinə gəlib yerləşməsi vaxtı dəqiq məlum deyil. V əsrdə yaşamış suriyalı bir müəllifin Şimali Qafqazda "Hun əyalətində" yaşayan tayfalar içərisində Abdel tayfasının adını da çəkməsindən[10] belə nəticə alına bilər ki, abdallar, hər halda, eranın əvvəllərində burada məskun idilər. Musa Kalankatlının "Alban tarixi" əsərində (VII əsr) Albaniyada yaşayan tayfalar sırasında ermənicə yazılışda Eptal tayfası da qeyd olunmuşdur (Alban tarixi, I kitab, 8-ci fəsil). Orta əsrlərdə Qarabağda bir kənd Abdal adlanırdı. İndiki Laçın şəhərinin əvvəlki adı Abdallar idi.[1]

---

[1] *Пагирев Д.Д.* Алфавитный указатель к пятиверстной карте Кавказского края. Тифлис, 1913, с. 1.

[2] *Миллер Б.В.* Персидско-русский словарь. М., 1960, с. 1.

[3] *Şopen İ.* Göstərilən əsəri.

[4] İrəvan əyalətinin icmal dəftəri. Bakı, 1996, s. 73.

[5] *Paqiryev D.D.* Göstərilən əsəri, s. 1.

[6] История Туркменской ССР, том. 1, ч. 1. Ашгабат, 1957.

[7] *Гейбуллаев Г.А.* Топонимия Азербайджана. Баку, 1986, с. 59.

[8] История Туркменской ССР, том. 1., ч. I, Ашгабад, 1957, с. 141.

[9] *Гордлевский В.А.* Соч., т. III, М., 1962, с. 108-109.

[10] *Пигулевская Н.В.* Сирийские источники по истории народов СССР. М-Л., 1941, с. 165.



**ABDALLI** - Naxçıvan vilayətinin Qışlağat nahiyəsində kənd adı.[2] Qədim türk mənşəli Abdal tayfasının məskunlaşması nəticəsində yaranmışdır. Bax: Abdal.

**ABİSİYAH** - İrəvan əyalətinin Karbi nahiyəsində (indi Naxçıvan MR-in Şərur r-nunda) kənd adı.[3] Fars dilində ab "su" və siyah "qara" sözlərindən ibarət olub, Qarasu toponiminin kalkasıdır. Bax: Qarasu.

**ABDULABAD** - İrəvan əyalətinin Karbi nahiyəsində (indi Şərur r-nunda) kənd adı.[4] Abdul şəxs adından və abad "kənd", "yaşayış məntəqəsi" sözündən ibarətdir. İrəvan xanlığının Qırxbulaq mahalında Abdulabad kənd adı ilə eynidir.

**AĞAVERDİ** - Şahbuz r-nunda Keçili kəndinin şimal-qərbində dağ adı.

**AĞBULAQ** - Şahbuz r-nunda xaraba kənd adı. Oradakı "Ağbulaq" bulağının adındandır.

**AĞBULAQ** - Şahbuz r-nunda kənd adı.

**AĞQAYA** - Şahbuz r-nunda Keçili kəndinin şimal-qərbində dağ adı.

**AĞQAYA** - Ordubad r-nu Nürgüt kəndinin şərqində dağ adı.

**AĞQAYA** - Babək r-nu Payız kəndinin şimal-qərbində yerləşən Çalxahdağın ən yüksək zirvəsi (1754 m). Adı «Kitabi-Dədə Qorqud»da çəkilir («Ağ qayanın qaplanı»).

**AĞDAĞ** - Culfa r-nu Kərimqulu-Dizə kəndinin şimalında dağ adı.

**AĞDƏRƏ** - Ordubad r-nunda kənd adı.

**AĞMƏT** - Şərur-Dərələyəz qəzasının Şərur sahəsində kənd adı.[5] Mənbədə Əxi-Əhməd kimidir.[6] Orta əsrlərdə Türkiyə ərazisində Sufi ordeni verilmiş şəxslər biri digəri üçün "əxi" (ərəbcə əxi – "qardaş") adlanırdı. Onlara vəqf kimi torpaq sahəsi və hətta kiçik yaşayış məntəqəsi bağışlanırdı. Bundan sonra həmin yer əxinin adını daşıyırdı.

---

[1] *Гейбуллаев Г.А.* К этногенезу азербайджанцев т. I, Баку, 1991.

[2] İrəvan əyalətinin icmal dəftəri, s. 145.

[3] Yenə orada, s. 37.

[4] Yenə orada, s. 39.

[5] Yenə orada, s. 3.

[6] Yenə orada, s. 168.

Adından göründüyü kimi, Axmət – Əhməd adlı Əxiyə mənsub olmuşdur. Sonralar Əxi Əhməd – Axmat formasına düşmüşdür.

**AĞYURD** - İrəvan quberniyasının Naxçıvan qəzasında dağ adı.[1]

**AĞGÜL** - İrəvan əyalətinin Sədərək nahiyəsində (indi Naxçıvan MR ərazisində) kənd adı.[2] Mənbədə kəndin Bayat elinin məskunlaşması nəticəsində yarandığı qeyd olunmuşdur.[3]

**AĞLA** - Culfa r-nun Camaldin kəndinin cənub-şərqində dağ suayrıcının adı.

**AĞRİ** - Naxçıvan əyalətinin Ordubad mahalında Vənənd kəndindən cənubda kənd adı. Mənbədə kənddə 7 ailənin yaşadığı qeyd olunur.

**AĞRIDAĞ** - Ordubad r-nunda Yuxarı Əylis kəndinin şimal-qərbində dağ adı. Y.B.Yusifov Ağrıdağ oronimini türk dillərində eqir – "ekiz", "qoşa" sözü ilə izah etmişdir.[4] Osmanlı türk dilindəki ağrı – "hündür", "uca" deməkdir.[5]

**AĞSAL** - Şərur r-nun indiki Şahbulaq kəndinin şimal-şərqində qayanın (hünd. 1924 m) adı. Azərbaycan dilində rəng bildirən «ağ» və «sal» - bütöv, hamar, yastı daş (qaya) sözlərindən ibarətdir.

**AĞUTİR** - XIX əsrdə İrəvan əyalətinin Naxçıvan qəzasında kənd adı.[6] Mənası məlum olmayan "ağu" və türk dillərində tor – "yüksək dağ örüşü", "dağ vadisinin yuxarı hissəsi"[7] sözlərindən ibarətdir.

**AĞCAQAL** - Naxçıvan vilayətinin Dərə-Şahbuz nahiyəsində kənd adı.[8]

**ADICAMAL** - Naxçıvan əyalətinin Şərur nahiyəsində yaylaq adı.[9]

**ANAQUT** – Ordubad r-nunda kənd adı.

**ARAZ** – Babək r-nunda kənd adı. Bakıdan 527 km-likdə dəmiryol stansiyası əsasında yaranmış və Araz çayının adı ilə adlandırılmışdır.

**ARPAÇAY** - Şərur r-nunda kənd adı. Keçmiş adı Sovetabad idi.

---

[1] *Paqiryev D.D.* Göstərilən əsəri, s. 6.

[2] Naxçıvan sancağının müfəssəl dəftəri, s. 324.

[3] Yenə orada.

[4] *Юсифов Ю.Б.* Топонимия и этническая история древнего Азербайджана. "Azərbaycan onomastikası problemlərinə dair konfransın materialları". Bakı, 1987, s. 109.

[5] *Ягелло И.Д.* Полный арабско-персидско-русский словарь, Ташкент, 1910, с. 110.

[6] *Paqiryev D.D.* Göstərilən əsəri, s. 6.

[7] Уйгурско-русский словарь. М., 1968, с. 759; *Мурзаев Е.М.* Словарь народных географических терминов, М., 1984.

[8] İrəvan əyalətinin icmal dəftəri, s. 167.

[9] Yenə orada, s. 147.



**AZA KƏNDİ** - Ordubad r-nunda Bakıdan 470 km məsafədə dəmiryol stansiyası əsasında yaranmış kənd adı.

**AZAD** - Naxçıvan əyalətinin Azadciran nahiyəsində kənd adı.[1]

**AZADKƏND** – Ordubad r-nunda kənd adı.

**AZADCİRAN** - Naxçıvan əyalətində bir nahiyənin adı.[2] Əsli Azad Qiran. Orta əsrlərdə Ordubad r-nunda mövcud olmuş "Azad kəndinin[3] yaxınlığındakı Giran" mənasındadır. Giran toponimi sonralar Gilan formasını kəsb etmişdir. Bax: Xaraba-Gilan.

**AZNAMİR** - XIX əsrdə İrəvan quberniyasının Naxçıvan qəzasında xaraba kənd adı.[4]

**AYDAŞ** - Naxçıvan əyalətinin Naxçıvan nahiyəsində məzrə (əkin yeri) adı.[5] Əslində Ayıdaş, yəni "Ayıqayası".

**AYIDƏRƏSİ** - Ordubad r-nunda Parağaçayın sağ qolunun adı.

**ALAGÖZ** - Naxçıvan əyalətinin Sair-Məvazi nahiyəsində məzrə (əkin yeri) adı. İrəvan quberniyasının Aleksandropol qəzasında bir kənd də Alagöz adlanırdı.[6] Ehtimal ki, türk dillərində ala və göz sözlərindən ibarətdir. Şimali Qafqazda Dağıstan əyalətinin Teymur-Xanşura dairəsində Ala-az, Qars əyalətinin dairəsində Alagöz kənd adları ilə[7] mənaca eynidir.

**ALANGÖZDAĞ** - Ordubad r-nu Nəsirvaz kəndinin şimal-şərqində dağ adı. Oronim türk dillərində alan – "düzən" və Azərbaycan dilində göz – "dağın başında batıq yer", "gözdək" sözlərindən ibarətdir.

**ALBANTƏPƏ (AĞVANTƏPƏ)** - Şərur r-nunda təpə adı. Axura kəndinin qərbində hündür, uzunsov formalı 5 hektarlıq təpədir. Er. əv. VII-II əsrlərə aid arxeoloji abidədir.[8] Azərbaycan xalqının etnik tarixi baxımından çox qiymətli toponimdir. Bu toponim göstərir ki, Alban müəyyən bir tayfanın adıdır və bu tayfa Naxçıvan əyalətində yaşayırdı. Alban qalası (Qax r-nu Ləkit kəndi ərazisində), Gürcüstanda iki Alpan kəndi, Quba r-nunda Alpan kəndi, Ermənistanda Alpan

---

[1] Naxçıvan sancağının müfəssəl dəftəri, s. 31.

[2] İrəvan əyalətinin icmal dəftəri, s. 147.

[3] *Хамдаллах Казвини.* Нузхат ал-Кулуб (Материалы по Азербайджану). Баку, 1983, с. 51.

[4] *Пагиреев Д.Д.* Göstərilən əsəri, s. 8.

[5] İrəvan əyalətinin icmal dəftəri, s. 168.

[6] *Paqiryev D.D.* Göstərilən əsəri, s.19.

[7] Yenə orada.

[8] *Novruzlu Ə.İ. Baxşəliyev V.B.* Şərur axeoloji abidələri. Bakı, 1993, s. 8.

kəndi və b. kənd adları ilə mənşəcə eynidir. Alban tayfasının türk mənşəli olması fikri mövcuddur.[1]

**ALQURİ** - Ordubad ərazisinin Azadciran nahiyəsində kənd adı.[2] İndi mövcud deyildir. Ehtimal ki, "Kitabi-Dədə Qorqud" eposunda Arkuri toponimi ilə mənşəcə eynidir. İrəvan xanlığında bir kənd də Arquri adlanırdı.[3] Qədim türk dillərində arku – "dağlar arası vadi", yaxud arqu –"dərələrə şaxələnmiş dağ"[4] sözündəndir. Ehtimal ki, Arqun çayının adı da türk mənşəlidir.

**ALIŞAR** - Şərur r-nunda kənd adı. Mənbədə Əlişar kimidir.[5] Kənd Xələcdaşı adlı dağın ətəyində, Araz çayının sahilində "Alışar" adlı yerdə Kəngərlərin Sofulu tayfasının Kəbirli, Mahmudlu, Dəmirçi, Səbirli (Əli Sabirli-qədim türk mənşəli Sabar, Sabir, Suvar tayfasının adından) və başqa tirələrin məskunlaşması nəticəsində yaranmışdır.Kənd qədimdə indiki yerindən 500-600 m uzaqlıqda – "Qala içi" adlı yerdə mövcud olmuş, müəyyən tarixi hadisələrdə əlaqədar olaraq indiki yerə köçmüşdür. Toponim türk dillərində aliş – "çay ağzı", "çay kənarı"[6] və ar – "tərəf", "əks tərəfdə yerləşən" sözlərindən ibarətdir.

**ALIŞAR** - İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında (indi Naxçıvn MR-in Şərur r-nunda) aşırım adı .[7]

**ALTAQ** - Naxçıvan sancağının Dərə-Şahbuz nahiyəsində Şahbuz kəndinə məxsus əkin yerinin (məzrənin) adı.[8]

**ALMALIDAĞ**[9] - Şahbuz r-nu Aşağı Remeşin kəndinin şərqində dağ adı.

**ALOVTƏPƏ** - Şərur r-nunda Yurdçu kəndinin şərqində uzunsov formalı təpə adı. Arxeoloji mədəniyyət abidəsidir.

**ALÇALIDAĞ** - Culfa r-nu Ərəfsə kəndinin şimal-qərbində dağ adı. Dağın adı oradakı yabanı alça ağaclarının bolluğu ilə əlaqədardır.

---

[1] *Гейбуллаев Г.А.* Топонимия Азербайджана, Баку, 1986.
[2] İrəvan əyalətinin icmal dəftəri, s. 179.
[3] *Şopen.* Göstərilən əsəri, s.33.
[4] *Murzayev E.M.* Göstərilən əsəri, s. 58.
[5] İrəvan əyalətinin icmal dəftəri, s. 168.
[6] Древнетюркский словарь. М., 1969, с.36.
[7] *Paqiryev D.D.* Göstərilən əsəri, s.13.
[8] Naxçıvan sancağının müfəssəl dəftəri, s.27.
[9] Yenə orada, s.28.



**ALÇAPAN** - Ordubad r-nun Biləv kəndinin cənub tərəfində dağ adı. Dağın adı Alı (Əli) şəxs adından və çapan (çapılmış mənasında) sözlərindən ibarətdir.

**ANABAD** - Ordubad r-nunda kənd adı. Naxçıvan əyalətinin Şorlut nahiyəsində kənd kimi qeyd olunmuşdur.[1] Bir məlumata görə kənd həm də Anabirt kimi adlanır.[2] Lakin XIX əsrin əvvəllərində toponim Anabat kimi yazılmışdır.[3] Kəndin adı "tərk edilmiş yer", "abad olmayan yer", "adam yaşamayan yer" mənasındadır. Bir məlumata görə, Anabad orta əsrlərdə böyük, abad kənd olmuş, lakin sonra dağılmış və kiçilmiş, ona görə də Anabad adlandırılmışdır.[4] Bu kəndin ərazisi dağlıq olduğuna görə əkinçilik üçün yararsızdır.[5]

**ANAQUT** - Ordubad r-nunda kənd.[6] Toponim türkmənşəli «ana» və «qut» (yurd) sözlərindəndir.

**ANBARAS** - Ordubad şəhərinin məhəllələrindən birinin adı.[7]

**ANDİ** - Ordubad r-nunda yer adı. Türk dillərində ant - "qaravul çəkmək", "keşik çəkmək"[8] sözündəndir.

**APACA** - Naxçıvan əyalətinin Şərur nahiyəsində kənd adı.[9]

**ARAZ** - Araz hidronimini er. əv. V əsr yunan müəllifi Herodot ilk dəfə qeyd etmişdir. Araz hidronimi və mənası barədə indiyədək bitkin fikir yoxdur. Əslində, Araz qədim türk dillərində əraz, urez – "xeyirxah" mənasındadır ki,[10] bu da qədimdən çayın xalqın təsərrüfat həyatında, xüsusilə suvarma əkinçiliyində rolu ilə əlaqədardır. Araz çay adının qədim türk dillərində olması Azərbaycan xalqının etnik tarixinin qədimliyi baxımından mühüm faktdır.

**ARAZDAYAN** - Şərur r-nunda təbii mərz adı. Əsli Arazdöyən və ya Arazdəyən. İrəvan quberniyasının İrəvan qəzasında bir kənd Arazdö-

---

[1] İrəvan əyalətinin icmal dəftəri, s.168.
[2] *Сысоев В.М.* Нахчыван на Араксе и древности Нахичеванской АССР. "Известия Азкомстарис"а, вып. IV, с. 215
[3] Статистическое описание Нахичеванской провинции, с. 268
[4] *Фараджев А.С.* Ордубад. Баку, 1970.
[5] Статистическое описание Нахичеванской провинции, с.268.
[6] İrəvan əyalətinin icmal dəftəri, s. 147.
[7] Yenə orada, s.143.
[8] *Севортян Э.* Этимологический словарь тюркских языков. т. I. М., 1974, с. 157-158.
[9] Naxçıvan sancağının müfəssəl dəftəri, s.325.
[10] *Гейбуллаев Г.А.* Azərbaycanlıların etnik tarixinə dair. Bakı, 1994.

yən adlanırdı.[1] Arazdöyən Araz çayının sahili yuması ilə əlaqədar yaranmış addır.

**ARALIQ** - Naxçıvan qəzasının Şərur nahiyəsində kənd adı.[2] Həmin mənbədə İrəvan əyalətinin bir nahiyəsinin adı kimi göstərilmişdir.[3] İki yaşayış məntəqəsi arasında yerləşdiyinə görə Aralıq adlanır.

**ARACIQ** - Şahbuz r-nunda Keçili kəndinin şərqində kənd adı (3067 m)[4]. Ehtimal ki,"qalacıq" mənasındadır.

**ARBATAN** - Şərur r-nunda kənd adı. Mənbədə Ərbatan kimi qeyd olunmuşdur.[5] Həmin mənbədə kəndin həm də Çörəkkəsməz adlandığı göstərilmişdir.[6] Ehtimal ki, ərəbcə rabat – hərbi məntəqə mənasındadır.[7] Ərəbcə "ar" qoşa və ya qala deməkdir. Arbatan - qoşa batan, mənasındadır. Azərbaycanda XVIII əsrdə Şəki xanlığının ərazisində Arbatan və hazırda Salyan r-nunda Arbatan kənd adları ilə mənaca eynidir. XIX əsrdə Yelizavetpol quberniyasının Cavanşir qəzasında bir kənd Arabat adlanırdı.[8]

**ARVAN ÇAYI** - Culfa r-nunda çay adı. Arvan dağının adı ilə adlanmışdır.

**ARVAN** - Culfa r-nunda dağ adı. Azərbaycan xanlığının etnik tarixi ilə bağlı qiymətli oronimdir. Dağın adı "Alban (Alvan) dağ" adında l ↔ r səslərinin yerdəyişməsi nəticəsində yaranmışdır. Yardımlı r-nunda Arvan (a) kənd adı ilə mənşəcə eynidir.[9]

**ARDIC** - Şərur r-nunda Danzik kəndinin şimal-şərqində dağ adı. Tam adı "Ardıc dağı"dır. Dağın adı orada bitən ardıc (arça) ağaclarının adı ilə əlaqədardır.

**ARIQLIDƏRƏ** - Ordubad r-nu Yuxarı Əylis kəndinin şimal-qərbində dağ adı. Ehtimal ki, Əriklidərə adının təhrifidir.

---

[1] *Paqiryev D.D.* Göstərilən əsəri.
[2] İrəvan əyalətinin icmal dəftəri, s. 168.
[3] Yenə orada, s.70.
[4] Azərbaycan SSR-in izahlı coğrafi adlar lüğəti. Bakı, 1960, s.26.
[5] İrəvan əyalətinin icmal dəftəri, s.168.
[6] Yenə orada.
[7] *Бартольд В.В.* Соч., с. 119.
[8] Yenə orada.
[9] *Гейбуллаев Г.А.* К этногенезу азербайджанцев, с.350.



**ARINC** - Şahbuz r-nunda kənd adı. Mənbədə Ərinc kimidir.[1] Ehtimal ki, türk dillərində arınc – "kanal", "su arxı"[2] sözündəndir. Arınc – «Əranc» adlı kənd əyalətinin Qırxbulaq mahalında da qeyd olunmuşdur.

**ARMUDDÜZ** - Ordubad r-nunda Nəsirvaz kəndinin cənubunda təbii məzrə adı. "Armud ağaclığı olan düz" mənasındadır.

**ARMUDLU** - Naxıvan əyalətinin Dərə-Şahbuz nahiyəsində yayla adı.[3]

**ARPA** - Şərur r-nunda çay adı (Şərqi Arpaçay). Ehtimal ki, çayın suyunun üzündə yabanı arpa bitkisinin olması ilə əlaqədardır.

**ARPADƏRƏ** - Ordubad r-nunda Gilançayın sağ qolunun adı (uz.10 km).

**ARPALIQ** - Naxçıvan əyalətinin Əlincə nahiyəsində məzrə (əkin yeri) adı.[4] Məzrənin adı orada arpa əkilməsi ilə əlaqədardır.

**ARPAÇAY SU ANBARI** -Şərur rayonunda Arpaçay dərəsində tikilmiş su anbarı.

**AĞSU** - Ordubad r-nunda Yuxarı Əylis kəndinin cənub-qərbində dağ adı. Əsli Arısu dağı. Ehtimal ki, türk mənşəli arıs (orıs) tayfasının[5] adını əks etdirir. Arısu-təmiz su mənasında da işlənir.

**AXURA** - Şərur r-nunda kənd adı. XVIII əsrdə İrəvan xanlığının Dərələyəz mahalında da bir kənd Axura adlanırdı. İlk dəfə er. əv. VIII əsrə aid urartu dilində olan mənbədə Akuriani toponimi qeyd edilmişdir.[6] Ehtimal ki, çayın adı türk dillərində aqru "sakit". "dinc", "aramlı",[7] sözündəndir.

**AXURA** - Şərur r-nunda Şərqi Arpaçayın sol qolunun adı (uz. 25 km). Mənbəyini Keçəltəpə dağından alır.[8] Qabaqlıçay da adlanır.

**ACAKƏN** - Şahbuz r-nun Sədərək kəndinin şimal-qərbində dağ adı.

**ACIKƏHRİZ** - İrəvan əyalətinin Karbi nahiyəsində (indi Naxçıvan MR-in Şərur r-nunda) kənd adı.[9] Kəndin adı orada suyunun acılığına (şorluluğuna) görə Acı kəhriz adlanması ilə əlaqədardır.

---

[1] İrəvan əyalətinin icmal dəftəri, s. 167.
[2] *Мурзаев Э.М.* К географической терминологии туркмен. с. 881.
[3] İrəvan əyalətiin icmal dəftəri, s. 167.
[4] Yenə orada, s.182.
[5] Bu tayfa barədə bax: *Гейбуллаев Г.А.* К этногенезу азербайджанцев, с 256.
[6] Yenə orada, s 182.
[7] *Севортян. Э.* Этимологический словарь тюркских языков, т I. M., 1974, с. 193.
[8] Azərbaycan SSR-in izahlı coğrafi adlar lüğəti, s. 31.
[9] İrəvan əyalətinin icmal dəftəri, s.38.

**AŞAĞI AZA** - Ordubad r-nunda kənd adı. Aza kəndindən (indi Yuxarı Aza) yaranmışdır. Mənası barədə bax: Yuxarı Aza.
**AŞAĞI ANZOR** - Naxçıvan əyalətinin Əlincə nahiyəsində kənd adı.[1] Anzor (indi Yuxarı Anzor) kəndindən yaranmışdır.[2] Bax: Yuxarı Anzor.
**AŞAĞI ARALIQ** - Şərur r-nunda kənd adı. XIX əsrə aid mənbədə[3] Aralıq Bəy və Aralıq Xan adlı iki kəndin adı çəkilir.[4] Aralıq-Başkənd (hazırda Yuxarı Aralıq) kəndindən çıxmış ailələrin məskunlaşması nəticəsində yaranmışdır.
**AŞAĞI BUZQOV** - Babək r-nunda kənd adı. Buzqov (Yuxarı Buzqov) kəndindən çıxmış ailələrin məskunlaşması nəticəsində yaranmışdır.
**AŞAĞI QARXIN** - Şərur r-nunda kənd adı. İrəvan əyalətinin Karbi nahiyəsində (indi Naxçıvan MR-in Şərur r-nunda) kənd kimi qeyd olunmuşdur.[5] Kənd XIII əsrdə monqolların tərkibində gəlmiş Karkın türk tayfasının[6] məskunlaşması nəticəsində yaranmışdır. Ermənistanda Eçmiadzin r-nunda Aşağı Qarxun və Ağdaş r-nunda Aşağı Qarxın kənd adları ilə eyni mənşəlidir.
**AŞAĞI DAŞARX** - Şərur r-nunda kənd adı. Daşarx (indi Yuxarı Daşarx) kəndindən çıxmış ailələrin məskunlaşması nəticəsində yaranmışdır. Bax: Yuxarı Daşarx.
**AŞAĞI DANZİK** - Şərur r-nunda xaraba kənd adı.
**AŞAĞI ƏYLİS** - Ordubad r-nunda kənd adı. İlkin adı "Dəşt" olmuşdur. Mənşəcə Əylis (indi Yuxarı Əylis) kəndindən çıxmış ailələrin məskunlaşması nəticəsində yaranmış və yeni məntəqə Aşağı Əylis adlanmışdır. Bax: Yuxarı Əylis.
**ARINCKƏND** – Şahbuz r-nunda kənd adı. Bəzi mənbələrdə Ərinc kimidir. Belə bir kənd adı Qırxbulaq mahalında da qeyd olunmuşdur.
**AŞAĞI ƏNDƏMİC** - Ordubad r-nunda kənd adı. Mənbədə Naxçıvan əyalətinin Şorlut nahiyəsində Yuxarı Əndəmiş və Aşağı Əndəmiş adlı kəndlərin adları qeyd olunmuşdur.[7] Ehtimal ki, türk dillərində ant – 

---

[1] İrəvan əyalətinin icmal dəftəri, s. 38.
[2] Yenə orada, s. 83.
[3] Yenə orada.
[4] *Paqiryev D.D.* Göstərilən əsəri, s. 17.
[5] İrəvan əyalətinin icmal dəftəri, s.37.
[6] *Рашид ад-Дин.* Сборник летописей, т. I, кн. I. М;-Л., 1952.
[7] İrəvan əyalətinin icmal dəftəri, s.148.



"qaravul çəkmək", "keşik çəkmək"[1] və mes "dağın cənub tərəfi", "dağın gündüşən tərəfi"[2] sözlərindən ibarət olmaq etibarilə "Dağın gündüşən (cənub) tərəfində keşikçi (məntəqəsi)" mənasındadır.
**AŞAĞI KƏND** - Culfa r-nunda kənd adı.
**AŞAĞI UZUNOBA** - Babək r-nunda kənd adı.
**AŞAĞI SÜRMƏLİ** - Naxçıvan əyalətinin Naxçıvan nahiyəsində kənd adı.[3] Bu kənd Sürəməlik adlanır.
**AŞAĞI COMAQTUR** - Naxçıvan əyalətinin Şərur nahiyəsində kənd adı.[4] Çomaxtur (indi Yuxarı Çomaxtur) kəndindən ayrılmış bir qrup ailənin həmin kəndə məxsus icma torpağında məskunlaşması nəticəsində yaranmışdır. Çomaxtur adı türk dillərində çutak – "tək təpə"[5] və ter – "yüksək dağ örüşü" sözlərindən ibarətdir.
**AŞAĞI ŞƏHRİYAR** - İrəvan əyalətinin Karbi nahiyəsində (indi Şərur r-nunda) kənd adı.[6]
**AZADKƏND** – Ordubad r-nunda kənd adı. Bax: «Azad».
**AZAKƏND** - Ordubad r-nunda kənd adı. Kəndin qəbiristanlığındakı bir qəbir daşı üzərində "Əl Azadi" (Azad kəndindən olan) sözü vardır.[7] XVIII əsrə aid mənbələrdə həm Aza, həm də Azad (Azadciran) kənd adları ayrı-ayrılıqda çəkilmişdir. Digər fikrə görə, kəndin adı Urartu mənbələrində çəkilən və Kiçik Asiyada yaşaması göstərilən Azzi tayfasının adındandır.[8] Urartu mənbələrində Ararat vadisi Aza adlanırdı.[9] I əsrdə yaşamış antik müəllif Penni Kiçik Asiyada Aza toponimini qeyd etmişdir.[10] Belə nəticə alınır ki, Aza əhalisinin köçməsi ilə Anadoludan gətirilmə addır. Aza yaşayış məntəqəsi adı Qərbi Sibirdə də qeydə alınmışdır (B.Ə.Budaqov. «Türk uluslarının yer yaddaşı», B., 1994).
**BABƏK** – Naxçıvan MR-də inzibati r-n mərkəzinin adı.

---

[1] *Севортян Э.* Göstərilən əsəri, s. 157-158.
[2] *Murzayev E.M.* Göstərilən əsəri, s. 369.
[3] Yenə orada.
[4] Yenə orada, s. 164.
[5] *Мурзаев Э.М.* Словарь народных географических терминов, с. 621.
[6] *Умурзаков С.Х.* Этимологические заметки о некоторых топонимиках Киргизии. "Ономастика Киргизии", I, Фрунзе, 1985, с.4.
[7] *Nemətova M.* Azərbaycanda pirlər. Bakı, 1992, s. 43.
[8] *Капанян Гр.* Историко-лингвистические работы к начальной истории армян. Древняя Малая Азия. Ереван, 1956, с. 43.
[9] *Арутюнян Н.В.* Биайнили. Ереван, 1970.
[10] *Karapsyan,* Göstərilən əsəri, s. 44.

**BABƏK QALASI** - Ordubad r-nun Biləv kəndin yaxınlığında, Gilançayın sağ sahilində qala adı. Xalq arasında rəvayətə görə, qala ərəb işğalına qarşı uzun illər (816-831) mübarizə aparmış Babəkə məxsus olmuşdur.

**BABƏKİ** - Şərur r-nunda kənd adı. Mənbələrdə Babəki-Qarxın kimidir. Kəndin adı Baba-Əxi adından təhrifdir. Orta əsrlərdə Sufi ordeninin üzvləri sayılan əxi (ərəbcə "qardaş") adamlara hakimlər tərəfindən torpaq sahəsi və hətta yaşayış məntəqəsi bağışlanırdı. Ehtimal ki, bu əxinin adı Baba imiş. Tarixi mənbələrdə Babəkin Şərurda qalası olduğu qeyd edilir. Ola bilsin ki, bu ad da həmin qalanın adı ilə əlaqədardır.

**BABALI** - Naxçıvan əyalətinin Sair-Məvazi nahiyəsində (indi Culfa r-nunda) kənd adı.[1]

**BABAXANQALXAN** - Şahbuz r-nunda Aşağı Qışlaq kəndinin şərqində mərz adı.

**BAĞIRSAQ**- Şərur r-nunda Dərələyəz dağ silsiləsinin zirvələrindən birinin adı (hünd. 1992 m).[2] Dağa gedən yolun bağırsaq kimi dolanbac olduğunu bildirir. İstisu kurortundan 1,5-2 km. yuxarıda yerləşən Bağırsaq bulağının və Bağırsaq dağının adı ilə mənaca eynidir.

**BAĞIRSAQDƏRƏSİ** - Şərur r-nunda kiçik çay adı. Quru çay dərəsinin adıdır (uz. 33km).

**BADAMQAYA** - Naxçıvan əyalətinin Qışlağat nahiyəsində kənd adı.[3]

**BADAMLI** - Naxçıvan əyalətinin Dərə-Şahbuz nahiyəsində (indi Şahbuz r-nunda) kənd adı.[4] "Badamlı" mineral bulaqların adı kəndin adındandır.

**BADAMLI** - Naxçıvan şəhərindən 33 km şimalda, çoxdebitli mineral bulağın adı.

**BADAŞQAN** – Babək r-nunda kənd adıdır.

**BAZARYURD** - Naxçıvan əyalətinin Dərə-Şahbuz nahiyəsində yaylaq adı.[5] Qusar r-nunda Baş Qafqaz silsiləsinin zirvələrindən (Bazaryurt, hünd. 4126 m.) birinin adı olan Bazaryurd oronimi ilə mənaca eynidir. Azərbaycanda, Gürcüstanda və Ermənistanda bir sıra Azərbaycan - türk mənşəli toponimlərdə "bazar" sözü fəal iştirak edir. XIX əsrdə Cənubi Qafqazda bu sözün iştirakı ilə düzəlmiş 15 toponim vardı.[6] Tədqiqat göstərmişdir ki, türk mənşəli toponimlərdə bazar sözü üç mənada işlənmişdir: birinci, "alış-veriş yeri" mənasında (məsələn, Astraxanbazar – indiki Cəlilabad, Seyidbazar və b.); ikinci, qədim türk mənşəli bazar, basar tayfasının adını əks etdirir: qırğızlarda, qaraqalpaqlarda, özbəklərdə, kalmıklarda bazar, basar türk tayfası məlumdur;[1] üçüncü, dağ adlarında bazar sözü bir şeyin (çox halda buzlaq mənşəli daşların, yaxud vulkan mənşəli qaya parçalarının) bolluğunu bildirir. Bazaryurd dağ adları da məhz belə daşların bol olduğu yer mənasındadır.

1 İrəvan əyalətinin icmal dəftəri, s. 73.
2 Azərbaycan SSR-in izahlı coğrafi adlar lüğəti, s.35.
3 İrəvan əyalətinin icmal dəftəri, s 145.
4 Yenə orada.
5 Yenə orada, s. 167.
6 *Paqiryev D.D.* Göstərilən əsəri, s. 31.



**BAYANLU** - Ordubad r-nun Urmis kəndinin cənub-şərqində yer adı. Qədim türk mənşəli Bayam tayfasının adını əks etdirir. Uyğurlarda, qırğızlarda və türkmənlərdə indi də Bayam tayfası vardır.[2] Azərbaycanda Daşkəsən r-nundakı Bayan kəndi Cənubi Azərbaycanda bir neçə Bayan kəndi adları[3] ilə mənşəcə eynidir.

**BAYRAMLI** - Naxçıvan əyalətinin Dərə Şahbuz nahiyəsində (indi Babək r-nunda) kənd adı [4]

**BAYRAMXAN MƏZRƏSİ** - İrəvan əyalətinin Karbi nahiyəsində (indi Şərur r-nunda) məzrə (əkin yeri) adı.[5] "Kosacan kəndinin yaxınlığında yerləşir" (yenə orada). Bayramxan adlı birisinə mənsub əkin yerinin adıdır.

**BATABAT** - Şahbuz r-nunda Qələyli yaylağında, 1700 m yüksəklikdə mineral bulaq, meşə, göl, yaylaq adı. Türk dillərində bat -"batdaq" və bət - "üz","səth"[6] sözlərindən ibarətdir. Gölün ətrafının bataqlıq olmasını bildirir.

**BAKSAL** - Şərur r-nunda Axura kəndinin şimalında dağ (hünd. 1910 m) adı. Qədim türk dillərində bək – "təpə"[7] və Azərbaycan dilində sal – "hamar daş, qaya" sözlərindən ibarətdir.

**BAŞBASI** - Naxçıvan şəhər inzibati ərazi vahidi.

**BAŞ KƏND** - Culfa r-nda kənd. 1945-ci ildən sonra Əlincə yaxınlığında salınmış Əlincə kəndinə köçürülmüşdür.

**BAŞBAŞI** - Babək r-nunda dəmiryol stansiyasının adı. Stansiya Başbaşı yerli adı ilə adlanmışdır. Azərbaycanca başı (yuxarısı), Yuxarı başı sözlərindən ibarətdir.

1 *Гейбуллаев Г.А.* О некоторых азербайджанских этнотопонимах."Советская этнография".1985. №3.
2 *Гейбуллаев Г.А.* Топонимия Азербайджана. Баку. 1986.
3 *Савина В.И.* Этноним в топонимии Ирана "Ономастика Востока", М., 1980.
4 İrəvan əyalətinin icmal dəftəri, s.169.
5 Yenə orada, səh 38.
6 *Murzayev E.M.* Göstərilən lüğəti, s. 83.
7 *Гейбуллаев Г.А.* О некоторых Азербайджанских этнотопонимах."Советская этнография", 1985, № 3.

**BAŞ DİZƏ** - Ordubad r-nunda kənd adı. Azərbaycan dilində baş (böyük mənasında) və farsca dizə – "qala" (sonrakı mənasında kənd, məntəqə)[1] sözlərindən ibarətdir.

**BAŞKƏND** - Culfa r-nunda kənd adı. Mənbədə Naxçıvan əyalətinin Dərəşam nahiyəsində yerləşdiyi qeyd olunmuşdur.[2]

**BAŞKƏND** – Ordubad r-nunda kənd adı.[3]

**BAŞKƏND ÇAYI** - Culfa r-nunda Əlincəçayın sol qolunun adı. Başkənd kəndinin adı ilə adlanmışdır.

**BAŞKƏND BULAĞI** - Culfa r-nunda eyni adlı kəndin yaxınlığında yerləşən bulaq.

**BAŞ ÇƏMDƏRƏ** - Babək r-nunda Vayxır kəndinin cənub-şərqində yer adı. Türk dillərində çəm – "şam"[4] və dərə sözlərindən ibarətdir. Şam ağacları bitən dərə mənasındadır.

**BƏZİRLİK** - İrəvan əyalətinin Şərur nahiyəsində kənd adı.[5] "Digər adı Vərməziyar".[6] Azərbaycan dilinin dialektlərində bəzir – "zəyərək adlı bitki yağı" deməkdir. Keçmişdə işləmə prinsipi və quruluşuna görə su dəyirmanını xatırladan bezirxana adlı əldəqayırma maşında şamdanlarda gecələr yandırmaq üçün zəyərək bitkisindən yağ alınırdı ki, buna bəzir deyilirdi. Tərtərçayın sol qollarından biri Bəzirxana çayı adlanır.[7] Bəzirxana zəyərəkdən bəzir çıxarılan yer mənasındadır.

**BERDİK** - Culfa r-nunda Qazançı kəndinin cənub-şərqində dağ adı. Mənbədə[8] Berdik Naxçıvan əyalətinin Əlincə nahiyəsində kənd adı kimi qeyd olunmuşdur.[9]

**BEHZAD BULAĞI** - İrəvan əyalətinin Karbi nahiyəsində (indi Şərur r-nunda) kənd adı.[10] Maxta kəndinin yaxınlığında yerləşir (yenə orada). Kənd oradakı "Behzad bulağı"nın adı ilə adlanmışdır.

---

[1] İrəvan əyalətinin icmal dəftəri, s. 169.
[2] Yenə orada, s. 38.
[3] Yenə orada.
[4] *Radlov V.V.* Göstərilən lüğəti, III, 2, s. 1936.
[5] İrəvan əyalətinin icmal dəftəri, s. 73.
[6] Yenə orada.
[7] *Kərimov S.K.* Azərbaycan SSR cənub-qərb ərazisinin bəzi çay adlarının mənşəyinə dair. Azərbaycan EA Xəbərləri, Yer elmləri seriyası, 1984, № 3, s. 108.
[8] Naxçıvan sancağının müfəssəl dəftəri, s. 85.
[9] Yenə orada.
[10] *Radlov V.V.* Göstərilən lüğəti. II, 1996.



**BEHZAD BULAĞI MƏZRƏSİ** - İrəvan əyalətinin Karbi nahiyəsində (indi Şərur r-nunda) məzrə adı.[1] "Qarabulaq kəndinin məzrəsidir" (yenə orada).

**BEHRUD** - Ordubad r-nunda kənd adı. Mənbədə Naxçıvan əyalətinin Azadçiran nahiyəsində kənd kimi qeyd olunmuşdur.[2] Toponim qədim fars dilində beh "xoş məramlı", "xeyirxah" (bax: Vayxır) və rud "çay", "axan su", "kiçik dağ çayı" sözlərindən ibarətdir. Qədimdə Amu-Dərya çayı da Behrud adlanırdı.

**BERTAQ** - Naxçıvan əyalətinin Azadciran nahiyəsində (indi Naxçıvan MR Ordubad r-nunda) kənd adı.[3] Ehtimal ki, sami mənşəli akkad dilində birtu – "qala" və türk dillərində taq – "dağ" sözlərindən ibarətdir.

**BETQUŞ** - Naxçıvan əyalətinin Şorluq (Şurut) nahiyəsində kənd adı.[4]

**BƏDƏŞXAN** - Babək r-nunda kənd adı. Bədəxşan adının "x" və "ş" səslərinin yerdəyişməsi (metatezası) nəticəsidir. Mənbədə Bədəxşan kimidir.[5] Orta Asiyanın bir sıra qədim adları ilə Naxçıvan MR ərazisindəki toponimlərin mənaca və mənşəcə eyniliyi diqqəti cəlb edir (Qaşqar, Qaraçuq, Tulus, Ordu, Çalxan və s.). Bədəxşan Orta Asiyada Amu-Dərya çayının yuxarı axınında qədim ölkə adıdır. Bədəxşan Tacikistanda muxtar vilayət və Əfqanıstanda coğrafi əyalətin adıdır. Ehtimal ki, erkən orta əsrlərdə Orta Asiyadan gəlmiş türk tayfalarının gətirdikləri adlardandır.

**BƏYDİLİ** - İrəvan əyalətinin Karbi nahiyəsində (indi Naxçıvan MR Şərur r-nunda) kənd adı.[6] "Başqa adı Köçəriabaddır" (yenə orada). Səlcuq oğuz tayfalarından Bəkdili tayfasının adını əks etdirir.

**BƏNLİ YATI** - XIX əsrdə Naxçıvan əyalətinin Naxçıvan qəzasında kənd adı.[7]

**BƏNDƏR** - Şahbuz r-nunda yer adı.

**BƏNƏNYAR** - Culfa r-nunda kənd adı. Mənbədə Naxçıvan əyalətinin Əlincə nahiyəsində kənd adı kimi qeyd olunur.[8] Türk dillərində bələn – "vadi", "aşağı yer"[9] və yar – "dərə", "yarğan" sözlərindən ibarətdir.

---

[1] İrəvan əyalətinin icmal dəftəri, s. 73.
[2] Yenə orada, s. 147.
[3] Naxçıvan sancağının müfəssəl dəftəri, s. 85.
[4] Yenə orada.
[5] Yenə orada.
[6] İrəvan əyalətinin icmal dəftəri, s. 38.
[7] *Paqiryev D.D.* Göstərilən əsəri, s. 47.
[8] İrəvan əyalətinin icmal dəftəri , s. 139.
[9] *Radlov V.V.* Göstərilən lüğəti, IV. 2, s.1712.

**BƏLƏÇİ** - Naxçıvan əyalətinin Qarabağ nahiyəsində qışlaq adı.[1] Əsli Bilicidir. Kəngərlərin Bilici tayfasının məskunlaşması nəticəsində yarandığına görə Bilici etnonimini əks etdirir.

**BƏLGƏDAĞ** - Ordubad r-nunda dağ adı. Ehtimal ki, türk dillərində bəlgə "nişan" sözündəndir. Bundan başqa bəlgə döyüşdə qalxanı əvəz edən əşyaya (ağaca) da deyilir.

**BƏHRUZ KƏNGƏRLİ** – Şərur r-nunda kənd adı.

**BİLA** - Naxçıvan şəhərinin məhəllələrindən birinin adı.[2]

**BİLƏV** - Ordubad r-nunda kənd adı. Naxçıvan əyalətinin Azadciran nahiyəsində Bilav kimi qeyd olunmuşdur.[3] Mənbədə kənd həm də Ağacanlı adlandırılmışdır.[4] Bu məlumatdan aydın olur ki, kənd "Biləv" adlı yerdə Ağacanlı adlı nəslin məskunlaşması nəticəsində yaranmışdır. Biləv kəsici alətləri itiləmək üçün istifadə edilən daş. Kəndin yaxınlığında "Bilav" mineral bulaqları vardır[5] (bax: s. 35-də Biləvqaya barədəki yazı).

**BİLƏVÇAY** - Ordubad r-nunda quru çay dərəsinin adı. Bax: Biləv.

**BİLƏV ÇOVQANI** - Culfa r-nunda təbii mərz adı. Bax: Biləv.

**BİLLAVA** - Şərur r-nunda kənd adı. Yaşayış yoxdur.

**BİLƏDÜZ** - Babək r-nunda Böyükdüz kəndinin şimal-şərqində dağ adı. Dağ onun ətəyindəki düzən yerdə maldar ellərin binələrinin adı ilə adlanmışdır.

**BİRİNCİ DƏRƏŞAM** - Babək r-nunda kənd adı. Dərəşam toponiminin adı ilk dəfə "Kitabi - Dədə Qorqud" eposunda Səkrəyin boyunda çəkilmişdir. Dərəşam kəndindən yaranmış kənd İkinci Dərəşam adlanır. Dərəşam toponimi Azərbaycan dilində dərə və şam sözlərindən ibarət olub, «işıqlı dərə» mənasındadır. «Şam» həm də çay sahillərindəki sıx qamışlığa da deyilir.

**BİST** - Ordubad r-nunda kənd adı. Mənbədə Naxçıvan əyalətinin Azadciran nahiyəsində kənd adı kimi qeyd olunmuşdur.[6] İran dillərində bəst "vadi"[1] sözündəndir. Kənd Zəngəzur sıra dağlarının ətəklərində, iki çay arasındakı vadidə yerləşir.

[1] İrəvan əyalətinin icmal dəftəri, s. 144.
[2] Yenə orada, s.19.
[3] Yenə orada s.179.
[4] Yenə orada.
[5] *Савина В.И.* Словарь географических терминов и других слов, формированных топонимов Ирана. М., 1972, с.273.
[6] İrəvan əyalətinin icmal dəftəri, s. 147.



**BİST** - Ordubad r-nunda Bist kəndinin şimalında, Əlahi çayının sol sahilində bulaq adı. Bist kəndinin adı ilə adlanmışdır.

**BİÇƏNƏK** - Şahbuz r-nunda kənd adı. Qədim türk mənşəli Peçeneq tayfasının adını əks etdirir. Tədqiqat göstərir ki, Azərbaycan ərazisində peçeneqlər iki vaxtda gəlib məskunlaşmışlar. Eranın əvvəllərində Kəngərlərlə birlikdə hunların tərkibində və erkən orta əsrlərdə şimaldan xəzərlərin və qıpçaqların tərkibində[2]. Biçənək kəndi məhz eranın əvvəllərində gəlmiş Peçeneq tayfasının adı ilə əlaqədardır. XII əsrdə Səlcuq oğuzlarının da bir tayfası Biçənək adlanırdı.[3]

**BİÇƏNƏK** - Şahbuz r-nunda yaylaq adı. Qədim türk mənşəli Peçeneq tayfasının adını əks etdirir.

**BİÇƏNƏK** - Şahbuz r-nunda Zəngəzur silsiləsində aşırım (hünd. 2348 m.). Yevlax–Naxçıvan şosse yolu bu aşırımdan keçir. Qədim türk mənşəli Peçeneq tayfasının adını əks etdirir.

**BOZAGİL** - Şərur r-nun Dəmirçi kəndinin şimalında dağ (hünd. 1174 m.) adı. Dağın adı onun üst süxurunun boz rəngli gildən ibarət olması ilə əlaqədardır. Yerli əhali içərində Bozağıl da adlanır.

**BOZAXLI** - Şərur r-nunda Tənənəm kəndinin cənub-şərqində qayadağ adı.

**BOYƏHMƏD** - Culfa r-nunda kənd adı. Türk dillərində boy – "tayfa", "qəbilə", "nəsil" sözündən və Əhməd şəxs adındandır.

**BOYƏHMƏDSU** - Culfa r-nunda çay adı.

**BUZQOV** - Naxçıvan əyalətinin Mülki-Arslan nahiyəsində kənd adı.[4]

**BUZQOV** – Babək r-nunda dağ adı. Yerli əhali içərisində Bızqov kimi də tələffüz olunur. Dəvəçi r-nundakı Bızqov dağının adı ilə eyni mənadadır.

**BULQAN** - Babək r-nunda kənd adı.[5] Monqol dilində bulqaan – "yurd", "düşərgə", türk dillərində isə "bulmaq", "tapmaq", "əldə etmək" sözündəndir.

**BÖYÜKDÜZ** – Kəngərli r-nunda kənd adı.

[1] *Абаев В.И.* Историко-этимологический словарь осетинского языка. т. I. М.-Л., 1958, с.254.
[2] *Гейбуллаев Г.А.* К этногенезу азербайджанцев т. I, Баку, 1991.
[3] *Qasımov A., Əliyev V.* Şahbuzun bəzi etnotoponimləri. "Azərbaycan onomastikası problemlərinə həsr olunmuş III elmi-nəzəri konfransın materialları". Bakı, 1990, s. 291.
[4] İrəvan əyalətinin icmal dəftəri, s.147.
[5] Naxçıvan sancağının müfəssəl dəftəri, s.29.

**BÖYÜKDÜZ** - Naxçıvan şəhərinin qərbində Araz çayının sol sahili boyu uzanan düzün adı. Orta əsrlərdə maldar ellərin qışlaq yeri olmuşdur.
**BÖYÜKDÜZ** - Naxçıvan şəhərinin cənub-şərqində Araz çayının sol sahili boyu yerləşən dağın (hünd. 957 m ) adı.
**BÖYÜKDÜZ** - Naxçıvan əyalətinin Qışlağat nahiyəsində (Babək r-nu) kənd adı.
**BÖYÜK XAÇAPARAQ** - Naxçıvan sancağının Əlincə nahiyəsində kənd adı.[1] Haçaparaq haça-qoşa və para-yaşayış yeri, kənd mənasındadır – Qoşakənd.
**CAMAL** - Şahbuz r-nunda Zəngəzur silsiləsinin zirvələrindən birinin (32000 m) adı.
**CAMALDİN** - Culfa r-nunda kənd adı.[2]
**CANQULUTƏPƏ** - Babək r-nunda dağ adı. Ehtimal ki, türk dillərində çaqıl "bitki ilə örtülmüş qum yüksəklik"[3] sözündən təhrifdir.
**CANIQIŞLAQ** - Naxçıvan əyalətinin Mülki-Arslan nahiyəsində kənd adı.[4]
**CACIXLI** - Şahbuz r-nunda Keçili kəndinin şimal-şərqində yer adı.
**COPUR YAL** - Babək r-nunda yüksəklik adı.
**CƏBRAYILLI** - İrəvan əyalətinin Şərur nahiyəsində kənd.[5]
**CƏBDƏRƏ** - Şahbuz r-nunda Şahbuz kəndinin cənub-qərbində dərə adı. Türk dillərində çəp "dağın daşlı, bitkisiz yamacı, maili[6] və dərə sözlərindən ibarətdir. Zəngilan r-nunda Çəpədərə dağ adı ilə mənaca eynidir.
**CƏLİLABAD** - Naxçıvan əyalətinin Şərur nahiyəsində kənd. Cəlil Məmmədquluzadənin şərəfinə adlandırılmışdır.
**CƏLİLKƏND** – Şərur r-nunda kənd adı.
**CƏHƏNNƏMDƏRƏSİ** - Sədərək r-nunda çay.
**CƏHRİ** - Babək r-nunda kənd adı. Mənbədə Naxçıvan əyalətinin Arslan Mülki nahiyəsində kənd kimi qeyd olunmuşdur.[7] Gürcüstanda Kutaisi quberniyasının Zuqdidi qəzasında Çəhra adlı iki kənd, Dağı-

[1] Naxçıvan sancağının müfəssəl dəftəri, s. 26.
[2] Yenə orada, s. 139.
[3] *Murzayev E.M.* Göstərilən əsəri, s. 605.
[4] İrəvan əyalətinin icmal dəftəri, s. 139.
[5] Yenə orada, s. 141.
[6] *Paqiryev D.D.* Göstərilən əsəri, s. 79.
[7] İrəvan əyalətinin icmal dəftəri, s. 141.



stan əyalətində Çəxri adlı iki kənd məlumdur.[1] Şübhəsiz ki, Naxçıvan MR-dəkı Cəhri kəndinin adı ilə göstərilən kəndlərin adları mənşəcə eynidir. Ehtimal ki, türk dillərində çokra, çokrak – "mənbə", "bulaq", "çaylaq"[2] sözündən fonetik formadır.
**CƏHRİÇAY** - Babək r-nunda Aşağı Buzqov kəndinin ərazisindən axan çayın (uz. 45 km) adı. Cəhri kəndinin adındandır.
**CİNDAĞ** - Ordubad r-nunda Biləv kəndinin cənub-şərqində dağ (1777 m) adı. Cin mifik addır.
**CİNDƏRƏ** - Şərur r-nunda Şahtaxtı kəndindən şərqdə böyük dərə adı. Həm də Cinlidərə adlanır. Cinlərin məskən saldığı dərə.
**CİNDAĞ** - Şahbuz r-nunda Keçəzur kəndinin cənub-şərqində dağ adı. Mifik toponimdir.
**CƏRACUR** - Naxçıvan əyalətinin Əlincə nahiyəsində kənd.[3]
**COŞĞUN** - Culfa r-nunda Göynük kəndindən 8 km qərbdə yerləşən mineral bulağın adı.
**CULĞA** - Naxçıvan əyalətinin Dərəşam nahiyəsində kənd adı.[4]
**CULFA** - Naxçıvan MR-də inzibati rayon mərkəzinin adı. Mənbədə Culha kimi qeyd olunmuşdur.[5] XVII əsrdə toponim Sulfa formasını kəsb etmişdir. Culfa toponimi farsca culfa – "toxuyucu" sözündən deyil, qədim türk dillərində "cul", "yol", "keçid", çayın (Araz) üstündən salınmış keçid (bərə) deməkdir. Culfa fars dilində culfa – "toxuyucu" sözündən uydurma yolu ilə yaranmış xalq etimologiyasıdır.
**CULFA** - Culfa r-nunda Bakıdan 492 km məsafədə dəmiryol stansiyası.
**ÇABAN** - İrəvan əyalətinin Sədərək nahiyəsində kənd adı.[6]
**ÇARXANQALA** – Kəngərli r-nunda kənd adı. Mənbədə Naxçıvan əyalətinin Qarabağ nahiyəsində mövcud olduğu bildirilir.
**ÇARQAYA** - Ordubad r-nunda Biləv kəndinin qərbində dağ adı. Türk dillərində çar (car) "çay – sahili sıldırım qaya", "yarğan"[7], dərə və qaya sözlərindən ibarətdir.

[1] *Paqiryev D.D.* Göstərilən əsəri, s. 79.
[2] *Murzayev E.M.* Göstərilən lüğəti, s. 618.
[3] Naxçıvan sancağının müfəssəl dəftəri, s. 79 .
[4] İrəvan əyalətinin icmal dəftəri, s. 146.
[5] Naxçıvan sancağının müfəssəl dəftəri, s. 30.
[6] Yenə orada, s. 324.
[7] *Murzayev E.M.* Göstərilən lüğəti, s. 607.

**ÇAXMAQLIDAĞ** - Ordubad r-nunda Ələhi kəndindən cənubda yerləşən dağın (2013 m) adı. Çaxmaq daşı, kvars olan dağ mənasındadır.
**ÇARAÇUR** - Ordubad r-nunda Biləv kəndinin qərbində dağ adı.
**ÇATARDAŞ DƏRƏSİ** - Şahbuz r-nunda Nurs kəndinin şimal-şərqindən axan çayın adı.
**ÇEŞMƏBASAR** - Babək r-nunda kənd adı. Orta əsrlərdə Azərbaycanda "basar" dedikdə çayın və ya bulaqdan (kəhrizdən) çəkilmiş arxın suvara bildiyi əkin sahəsi nəzərdə tutulurdu.
**ÇEMOOĞUL** - Şahbuz r-nunda Keçəzur kəndinin cənub-qərbində yer adı.
**ÇƏMƏNLİ** - Şərur r-nunda kənd adı. Mənbədə İrəvan əyalətinin Şərur nahiyəsində kənd kimi qeyd olunmuşdur (İrəvan əyalətinin icmal dəftəri, səh.78).
**ÇƏMƏNLİ** – Şərur r-nunda kənd adı. Keçmiş adı Keştaz idi.
**ÇƏRÇİBOĞAN** - Şərur r-nunda kənd adı. "Çərçi boğulan yer" mənasındadır.
**ÇƏNNƏB** - Ordubad r-nunda kənd adı. Mənbədə Naxçıvan vilayətinin Azadciran nahiyəsində "Çənnab" kimi yazılmışdır.[1]
**ÇƏNNƏB** - Ordubad r-nunda dağ adı.
**ÇİNARQIŞLAQ** - İrəvan əyalətinin Karbi nahiyəsində (indi Naxçıvan MR-in Şərur r-nunda) qışlaq adı.[2] "Quşçu kəndinin yaxınlığında yerləşir" (yenə orada).
**ÇINQILLIBULAQ** - Şahbuz r-nunda Keçili kəndinin cənub-şərqində bulaq.
**ÇINIQ** - Naxçıvan əyalətinin Qarabağ nahiyəsində kənd adı.[3] "Digər adı Bakauldur" (yenə orada).
**ÇOBANBULAQ** - Babək r-nunda bulaq.
**ÇOMAXTUR** – Şərur r-nunda kənd.
**ÇOMAXTUR** - Şərur r-nunda kənd adı. Mənbədə toponim Çomaqtur kimidir.[4] Türk dillərində çunak və tör "yüksək dağ örüşü" sözlərindən ibarətdir. (bax: Aşağı Çomaxtur).
**ÇONQAL** - Ordubad r-nunda Urmis kəndinin şimal-şərqində aşırım adı.
**DABAQLI** - Culfa r-nun şimal hissəsində, Şahbuz r-nu sərhəddində sıra dağ adı.

---

1 İrəvan əyalətinin icmal dəftəri, s. 147.
2 Yenə orada.
3 Yenə orada, s. 166.
4 Yenə orada, s. 168.



**DAĞ** - Naxçıvan əyalətinin Dərə-Şahbuz nahiyəsində kənd adı.[1] Mənbəyə görə kənddə heç kim yaşamır və orada kənar kəndlərin ailələri əkin əkirlər.[2]
**DAĞDAĞAN** - Şahbuz r-nunda dağ aşırımı adı. Dağdağan ağacının bitdiyi yer.
**DAYLAQLI** - Naxçıvan əyalətinin Dərə-Şahbuz nahiyəsində məzrə adı.[3] Şahbuz r-nda kənd kimi mövcuddur.
**DAĞÜSTÜ** - Culfa r-nunda Kərimqulu Dizə kəndinin şimal-qərbində dağ belinin adı.
**DAĞ MƏZRƏSİ** - Naxçıvan əyalətinin Dərə-Şahbuz nahiyəsində kənd adı.[4]
**DANA QALASI** - Şərur r-nunda Axura kəndinin şərqində, Havuş kəndinin cənub tərəfində hündür dağ üstündə qala adı. XI əsrə aid edilir. Mənbədə[5] qeyd olunur ki, kənddə heç kim yaşamır.[6] Dana – «çöl», «açıq yer», «vadi», «cavan», «yeniyetmə» mənalarını verir.
**DANZİK** - Şərur r-nunda kənd adı. Arpaçay dəryaçası sularının altında qalıb.
**DANAYERİ** – Şərur r-nunda kənd adı. Keçmiş adı Yenikənd idi.
**DARKƏND** - Ordubad r-nunda kənd adı.
**DARVADAQ** - Babək r-nunda dağ adı. Davradaq adının fonetik formasıdır. Azərbaycanın bəzi rayonlarında Tövrədaq və Tövrətəpə oronimləri mənaca eynidir. "Dövrə (dəyirmi) formalı" dağ mənasındadır.
**DƏRGƏMƏLİK** - Culfa r-nunda Başkənd kəndinin cənub-şərqində xaraba kənd adı. Kənd Dargəməlik də adlanır.
**DARIDAĞ** - Culfa r-nunda dağ adı (hünd. 1756 m). Yerli əhali içərisində dağın adının darı (taxıl növü) ilə əlaqələndirilməsi xalq etimologiyasıdır.
**DARTAGÜNEY** - Naxçıvan əyalətinin Naxçıvan nahiyəsində məzrə (əkin yeri) adı.[7]
**DAŞARX** - İrəvan əyalətinin Karbi nahiyəsində (indi Naxçıvan MR-

---

1 İrəvan əyalətinin icmal dəftəri, s. 141.
2 Naxçıvan sancağının müfəssəl dəftəri, s. 110.
3 Yenə orada, s. 28.
4 Yenə orada, s. 27.
5 Yenə orada.
6 Yenə orada, s. 326.
7 İrəvan əyalətinin icmal dəftəri, s. 165.

in Şərur r-nunda) kənd adı.[1] Digər adı Məlikkənddir (yenə orada). Bu məlumatdan aydın olur ki, Daşarx yerin adı, Məlikkənd isə həmin yerdə yaranmış məntəqədir.

**DAŞARX** - Naxçıvan əyalətinin Şərur nahiyəsində kənd adı.[2] "Digər adı Əmətli" (yenə orada). Daşarx yerin adı, Əmətli isə orada məskunlaşmış nəsil, ya da tayfa adıdır.

**DAŞARX** - Şərur r-nunda, Bakıdan 596 km məsafədə dəmiryol stansiyası əsasında yaranmış qəsəbə adı.

**DAŞBAŞI** - Ordubad r-nun Çənnəb kəndinin şimal-qərbində dağ (hünd. 1707 m) adı. Zirvəsi (başı) daş (qaya) olan dağ mənasındadır.

**DAŞDUZ** – Naxçıvan şəhər inzibati ərazi vahidi.

**DAŞQAYA** - Naxçıvan əyalətinin Şərur nahiyəsində yaylaq adı.[3]

**DAŞBURUN** - Sədərək kəndindən şimalda dağ (hünd. 1240 m.) adı. "Dağın düzənə girmiş burun formalı qurtaracağı" mənasındadır. Beyləqan r-nunda Daşburun dağ adı ilə mənaca eynidir.

**DAŞQIŞLAQ** - İrəvan əyalətinin Şərur nahiyəsində kənd adı.[4] Daşlıq yerdə qışlaq mənasındadır.

**DAŞQALA** - Babək r-nunda təbii mərz adı. Daş (qaya) üzərində tikilmiş qala mənasındadır.

**DAŞQALA** - Sirab kəndi ərazisində karst mağarasından axan yeraltı çaydır.

**DEKİN** - Naxçıvan əyalətinin Məvaziyi Xatun nahiyəsində kənd adı.[5] Türk dillərində teqin "şahzadə" sözündəndir. Ağdaş r-nunda Qaradeyin kənd adı ilə mənşəcə eynidir.

**DENDABAD** - Mənbədə Naxçıvan əyalətinin Qışlağat nahiyəsində kənd adı.[6] Digər adı Dendivar.[7]

**DƏVƏBOYNU** - Ordubad r-nunda dağ adı.

**DƏVƏBOYNU** - Ordubad r-nunda Nürgüt kəndinin şimal- şərqində dağ adı.

**DƏVƏÖLƏN** - Şərur r-nunda Gümüşlü kəndinin şimalında xaraba kənd.

[1] İrəvan əyalətinin icmal dəftəri, s. 37.
[2] Yenə orada.
[3] Yenə orada, s. 168.
[4] Yenə orada, s. 73.
[5] Yenə orada.
[6] Naxçıvan sancağının müfəssəl dəftəri, s. 27.
[7] Yenə orada, s. 57.



**DƏDYAN** - Naxçıvan sancağının Sair-Məvazi nahiyəsində məzrə.[1]

**DƏLİKDAŞ** - Ordubad r-nunda Urmis kəndinin cənub-qərbində dağ adı.

**DƏMİ** - Culfa r-nunda yer adı. Dəmyə - yer deməkdir.

**DƏMLƏRDAĞI** - Şərur r-nunda dağ adı. Qədim türk dillərində dam, şam, qala, qala divarı[2] sözündəndir.

**DƏMİRLİ BULAQ** – Əlincə çayının yuxarı axınında bulaq.

**DƏMİRDAĞ** - Culfa r-nunda Nəhəcir kəndinin şimalında təbii mərz.

**DƏMİRLİDAĞ** - Ordubad r-nunda Nürgüt kəndinin şimal-şərqində Zəngəzur silsiləsinin zirvəsi(yüksəkliyi 3364 m).

**DƏMİRLİSU** -Culfa r-nunda Ərəfsə kəndinin şərqində çay.

**DƏMİRÇİ** - Şərur r-nunda kənd adı.

**DƏR** - Ordubad r-nunda kənd adı. Ərəb dilində deyr "kilsə", "monastır"[3] sözünün təhrif formasıdır.

**DƏR-ABBAS GƏDİYİ** - Naxçıvan əyalətinin Dərə-Şahbuz nahiyəsində yaylaq adı.[4] Toponim ərəb dilində deyr "kilsə", "monastır" sözündən[5] və "Abbas gədiyi" adından ibarətdir. "Kilsə yerləşən Abbas gədiyi" mənasındadır.

**DƏRVİŞLƏR** - Şərur r-nunda kənd adı. "Qazıxan kəndinin yaxınlığında yerləşir"[6]. Səfəvilər dövləti vaxtında təkyələrdə və zaviyələrdə məskunlaşmış dərvişlərə müəyyən torpaq sahələri bağışlanırdı. Kənd dərvişlərə məxsus ərazidə yaranmışdır.

**DƏRVİŞLƏR** - Şərur r-nunda Dərvişlər kəndinin şimalında xaraba kənd adı (bax: Dərvişlər - Şərur r-nu).

**DƏRƏBƏY** - İrəvan əyalətinin Sədərək nahiyəsində kənd adı.[7] Mənbədə kəndin Dünbili tayfasının məskunlaşması nəticəsində yarandığı qeyd olunmuşdur.[8]

**DƏRƏKƏND** - Şərur r-nunda kənd adı.

**DƏRƏ NÜRGÜT** - Naxçıvan əyalətinin Dərə Kürqüm nahiyəsində kənd adı.[9] Azərbaycan dilində Dərə və Nürgüt toponimindən ibarətdir. Bax: Nürgüt.

[1] Naxçıvan sancağının müfəssəl dəftəri, s. 27.
[2] Древнетюркский - русский словарь. М., 1969.
[3] *Баранов Х.К.* Арабско-русский словарь. М., 1958, с. 342
[4] İrəvan əyalətinin icmal dəftəri, s. 167.
[5] *Баранов Х.К* Арабско-русский словарь, с. 342.
[6] İrəvan əyalətinin icmal dəftəri, s. 38.
[7] Naxçıvan sancağının müfəssəl dəftəri, s. 27.
[8] Древнетюркский словарь. М., 1969.
[9] Naxçıvan sancağının icmal dəftəri, s. 149.

**DƏRƏKƏND** - Şərur r-nunda kənd adı

**DƏRƏŞAM** - Babək r-nunda kənd adı. Qədim yaşayış məntəqəsi kimi məlumdur. Azərbaycan dilində dərə və şam (əsli sami mənşəli akkadca şam "qamış", "qamışlıq" sözlərindən ibarətdir.[1]

**DƏRƏŞAM** - Şərur r-nunda Bakıdan 503 km məsafədə dəmir yol stansiyasının adı. Bax: Dərəşam k.

**DƏRƏŞAM MİNERAL BULAQLARI** - Culfa r-nunda Dərəşam dəmiryol stansiyası yaxınlığında bulaqların adı.

**DƏRƏ ŞAHBUZ** - Orta əsrlərdə Naxçıvan əyalətinin nahiyələrindən birinin adı. Dərə-Şahbuz yaşayış məntəqəsinin adı ilə adlanmışdır. Bax: Şahbuz.

**DƏRKƏ MƏRƏK** - Naxçıvan əyalətinin Dərə Nürgüt nahiyəsində kənd adı.[2] İran dillərində dər – "keçid" və türk dillərində marak – "gözətçi məntəqəsi"[3] sözlərindəndir.

**DƏSTƏ** - Ordubad r-nunda kənd adı. Vənənd çayının kənarında yerləşir. Qədim farsca dasta "kənd", "mülk", "malikanə" sözündəndir. Müasir farsca dəstə –"tərəf", "yer" mənasındadır.

**DƏSTƏ** - Culfa r-nunda kənd adı. Naxçıvan əyalətinin Azadciran nahiyəsində Dəstək kimi qeyd olunmuşdur.[4]

**DƏSTƏBAŞI** - Ordubad r-nunda Dəstə kəndinin şimalında dağ adı.

**DƏSTƏ MİNERAL BULAQLARI** - Ordubad r-nunda Dəstə kəndindən 2 km qərbdə, Arazın sol sahilində iki qrup bulaq adı.

**DƏHNƏ** - Sədərək r-nunda Sədərək kəndinin cənub-qərbində dağ (hünd. 1152 m) adı. Fars dilində dəhnə – "ağız", "keçid", "başlanğıc" sözündəndir. Dağlardan axıb gələn çayın düzənə, ovalığa çıxan yeri dəhnə adlanır.

**DİYADİN** - Şərur r-nunda kənd adı.[5] Ehtimal ki, orta əsrlərdə əhalinin hərəkəti ilə əlaqədar olaraq Şərqi Türkiyənin Diyadin mahalından[6] gələn ailələrin verdiyi addır.

**DİBİ** - Naxçıvan əyalətinin Dərə-Şahbuz nahiyəsində məzrə (əkin yeri) adı.[7]

---

[1] *Həsənov A.* Dərəşam toponimi haqqında. ADU-nun "Elmi əsərləri", Dil və ədəbiyyat ser., 1976, № 4, s. 60-67.

[2] İrəvan əyalətinin icmal dəftəri, s. 149.

[3] *Radlov V.V.* Göstərilən lüğəti, IV, 2, s. 2025.

[4] *Миллер Б.В.* Персидско-русский словарь. М., 1960, с. 217.

[5] İrəvan əyalətinin icmal dəftəri, s. 147.

[6] Yenə orada, səh. 39.

[7] *Paqiryev D.D.* Göstərilən əsəri, s. 16.



**DİBKƏND** - Naxçıvan əyalətinin Dərəşam nahiyəsində kənd adı.[1]

**DİBƏKLİ** - Culfa r-nunda Köynük kəndinin şimal-şərqində dağ adı. XIX əsrdə İrəvan quberniyasının Eçmiadzin qəzasında bir kənd Dibəkli adlanırdı. Ehtimal ki, oradakı əhalinin hərəkəti ilə gətirilmə addır. Kor Cəlallı tayfasının Dibənli nəslinin adını əks etdirir.

**DİDABAD** - Naxçıvan əyalətinin Qışlağat nahiyəsində kənd adı.[2] Qədim fars dilində dida – "qüvvətləndirilmiş şəhər", "qala divarı"[3] və farsca abad "kənd", "yaşayış məntəqəsi" sözlərindən ibarətdir. XIX əsrdə İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında Didvəng adlı kəndi vardı.[4]

**DİDİVAR** - Babək r-nunda kənd adı. XIX əsrə aid ədəbiyyatda kəndin adı Diduvar kimi yazılmışdır.[5] XVIII əsrdə İrəvan əyalətinin Sisyan nahiyəsində də bir kənd Didvar adlanırdı. Qədim fars dilində dida – "qala" və var – "yer" sözlərindən ibarətdir.

**DİZƏ** - Ordubad r-nunda kənd adı. Naxçıvan əyalətinin Azadciran əyalətinin nahiyəsində kənd kimi qeyd olunmuşdur.[6] Keçmiş tam adı Düylüm Dizə olmuş, lakin sonralar danışıqda "Düylün" sözü düşmüşdür. Düylün Dizə kəndinin əsl adı isə Dizə-Mirhəsən olmuşdur.[7] Çünki Düylün-Dizə kəndin Düylün çayının kənarında yerləşdiyini bildirir. İran dillərində dizə – "qala", "kənd", "istehkam" mənalarındadır. Qədim fars dilində dida (Dəvəçi r-nunda Didəvar, Qazax r-nunda Didvandidə və ban – "gözətçi" sözlərindən) toponimlərində qalır, müasir fars dilində "qala" sözünün formasıdır.[8] "Dizə" sözü qədim İran dillərindəki dida sözünün d-z fonetik keçidi sahəsində məhz Azərbaycan dilində tələffüz formasıdır. Naxçıvan MR-in ərazisində bir sıra kənd adlarında əksini tapmış dizə sözü əsas etibarilə "kənd", "məntəqə" mənasındadır.[9]

---

[1] *Paqiryev D.D.* Göstərilən əsəri, s. 145.

[2] Yenə orada, s. 85.

[3] İrəvan əyalətinin icmal dəftəri, s. 146.

[4] Yenə orada.

[5] Yenə orada.

[6] Yenə orada, s. 179.

[7] Azərbaycan Mərkəzi Dövlət Tarix Arxivi, f. 12, siy. 11, vər. 47.

[8] *Грантовский Э.* Раняя история иранских племен Персидской Азии. М., 1970, с. 184.

[9] *Савина В.И.* Словарь географических терминов и других слов, формирующих топонимы Ирана. М., 1971, с. 66.

**DİZƏ** - Culfa r-nunda kənd adı. Keçmiş tam adı Cəfərxan Dizə və həm də Allahverdi Dizəsi olmuşdur. XIX əsrin əvvəllərinə aid mənbədə kəndin "Dizə Hacı Allahverdi" adlandığı qeyd edilmiş və onun 4 evdən ibarət olması göstərilmişdir.[1] Fars dilində dizə – "qala", "kənd", "məntəqə" deməkdir. Bax: Dizə.
**DİZƏ** – Şərur r-nunda kənd adı.
**DİKDAŞ** - Culfa r-nunda dağ adı.
**DİRİDAĞ** - Ordubad r-nunda Yuxarı Əylis kəndinin şimal-qərbində dağ adı. "Məbəd olan dağ, pirdağ" mənasındadır.
**DIRNIS** - Ordubad r-nunda kənd. Mənbədə Ordubad qəzasının Azadciran nahiyəsində kənd kimi qeyd olunmuşdur.[2] XIX əsrdə həm də Dernis kimi yazılmışdır.[3] XIX əsrin əvvəllərinə aid başqa mənbədə isə kəndin adı Derniz kimidir.[4] Farsca «qapısız kənd» mənasını verir.
**DOLANAN** - Şərur r-nunda Gümüşlü kəndinin şimal-şərqində dağ adı.
**DÖVLƏTABAD** - Naxçıvan əyalətinin Karbi nahiyəsində (indi Naxçıvan MR Şərur r-nunda) kənd adı.
**DUZDAĞ** - Şərur r-nunda Dəmirçi kəndinin şimal-şərqində dağ (hünd. 1173 m) adı.
**DÜDƏNGƏ** - Şərur r-nunda kənd adı.[5] Fars dilində "iki" və Azərbaycan dilində dəngə –"nəsil", "məhəllə", bir qrup qohum adamın yaşadığı yer"[6] sözlərindən ibarətdir. Muğan bölgəsində döngə sözü indi də işlənir. XIX əsrdə Azərbaycanda düngə həm də müəyyən ölçüdə torpaq sahəsini ifadə edirdi və bu da "düngəyə məxsus ərazi" mənasını verirdi.[7] N.A.Abelov yazır ki, hər bir maldar el qohum və obalardan, hər düngə isə bir-birinə qan qohumluğu olan ailələrdən ibarətdir.[8] Belə kiçik qohum ailələr qrupu başçılarının adları ilə adlandırılır. İran toponimiyasında düngə həm də "məhəllə", "şəhərin bir hissəsi", "şəhərin altıda bir hissəsi" mənasındadır.[9]

---

1 Статистическое описание Нахичеванской провинции, с. 224.
2 İrəvan əyalətinin icmal dəftəri, s. 179.
3 *Şopen İ.* Göstərilən əsəri, s. 493.
4 Статистическое описание Нахичеванской провинции, с. 284.
5 İrəvan əyalətinin icmal dəftəri, s. 72.
6 *Абелов Н.А.* Экономический быт государственных крестьян Геокчайского и Шемахинского уездов Бакинской губернии. Материалы для изучения экономического быта гос. крестьян Закавказского края, т. IV, Тифлис, 1886, с. 54
7 Yenə orada, s. 108.
8 Yenə orada.
9 *Savina V.İ.* Göstərilən əsəri, s. 64.



**DÜYLÜN** - Ordubad r-nunda kənd adı. Mənbədə Naxçıvan əyalətində Azadciran nahiyəsində yalnız Düylün kəndinin adı çəkilir.[1] XIX əsrin ortalarında bu rayonun ərazisində Düylün və Düylün Dizə kəndləri vardır. Düylün adı əslində Deh Gilan (Gilan kəndi) adının təhrifidir. Dikilan isə farsca deh "kənd" sözündən və Gilan adından ibarətdir. Ordubad şəhərinin 20 km-liyində Xaraba-Gilan adlı şəhər xarabalıqları vardır. Məhz həmin Gilan toponimi Düylün kəndi və Düylünçay toponimlərinin əsasını təşkil edir.
**DÜYLÜNÇAY** - Ordubad r-nunda Arazın sol qolunun adı.
**DÜKAN** - Naxçıvan əyalətinin Azadciran nahiyəsində kənd adı.[2]
**DÜŞQAYA** - Naxçıvan əyalətinin Şərur nahiyəsində yaylaq.[3]
**ELVAR** - İrəvan əyalətinin Karbi nahiyəsində (indi Naxçıvan MR-in Şərur r-nunda) kənd adı.[4] Əli şəxs adından və dialektlərdə bir "maldar elə məxsus ərazi" sözündən ibarətdir.
**ELTİ** - Ordubad r-nunda Biləv kəndinin cənubunda dağ adı. Qədim türk dillərində el və too, tuu, tu "dağ" sözlərindən ibarətdir.
**ƏBRƏQUNİS** - Culfa r-nunda kənd adı.[5]
**ƏZNƏMİRİ** - Naxçıvan əyalətinin Dara Nürgüt nahiyəsində kənd adı.[6]
**ƏYRƏK** - Naxçıvan əyalətinin Dərə-Şahbuz nahiyəsində kənd.[7] Əkərək adının təhrif formasıdır. Bax: Əkərək.
**ƏYRİDAĞ** - Şahbuz r-nunda Kömür kəndinin şərqində təbii mərz.
**ƏYRİQAR** - Şahbuz r-nunda Biçənək kəndinin şimal-şərqində dağ və ayrıq (mərz) adı.
**ƏKƏRƏK** - XIX əsrdə İrəvan quberniyasının Naxçıvan qəzasında kənd adı.[8] Mənbəyə görə kənd Əyrək adlanırdı.[9] Həmin mənbədə orada heç kimin yaşamadığı qeyd olunur və deyilir ki, Külüs kəndi əhalisinin əkin yerləri buradadır.[10] XIX əsrdə Azərbaycanda və Ermənistanda çoxlu miqdarda Əkərə, Əkərək, Akara toponimi məlumdur. Şu-

---

1 Naxçıvan sancağının müfəssəl dəftəri, s. 31.
2 İrəvan əyalətinin icmal dəftəri, s. 179
3 Yenə orada, s. 168.
4 Yenə orada, s. 37.
5 Yenə orada, s. 139.
6 Yenə orada, s. 149.
7 Yenə orada, s. 167.
8 *Paqiryev D.D.* Göstərilən əsəri, s. 5.
9 Naxçıvan sancağının müfəssəl dəftəri, s. 107
10 Yenə orada.

mer dilinə mənsub akar (azərbaycanca əkmək, əkin sözlərini müqayisə edin) "əkilən sahə", "əkin yeri" sözündəndir.
**ƏYLİS** - Naxçıvan əyaləti Ordubad qəzasının Azadciran nahiyəsində kənd adı.[1] "Digər adı Səhrayı Əylis" (yenə orada). Bax: Aşağı Əylis.
**ƏYLİSÇAY** - Ordubad r-nunda Arazın sol qolunun adı. Uzunluğu 24 km.
**ƏYLİSÇAY** - Ordubad r-nun Aşağı Əylis kəndinin şərqindən axan çayın adı. Əylis (əsli Akgilis) kəndinin adı ilə adlanmışdır. Bax: Yuxarı Əylis və Aşağı Əylis.
**ƏLƏDDİNÇAY** - Şərur r-nunda Arpaçayın sol qolunun adı.
**ƏLƏKLİ** - Şərur r-nunda kənd adı. Kəndin əsasını qoymuş nəslin adındandır.
**ƏLƏKLİ** - Şərur rayonunda kənd.
**ƏLƏCİDƏRƏ** - Culfa r-nunda Culfa şəhərindən şimal-qərbdə dağ adı.
**ƏLƏHİ** - Ordubad r-nunda kənd. Həmin kənddəki mineral bulaq da Ələhi adlanır. Yardımlı r-nunda bir mineral bulaq da Ələhi adlanır.
**ƏLİBƏY DİZƏSİ** - Naxçıvan əyalətində məzrə adı.[2] Əlibəy adlı birisinə məxsus kənd mənasındadır.
**ƏLİNCƏ** - Culfa r-nunda qədim qala adı. Dağın üzərində olan bir sahənin adı Şahtaxtıdır. Sıldırım qaya üzərində yerləşir. XIV əsr müəllifi Həmdullah Qəzvini qalanın Alancik formasını da qeyd etmişdir.[3] Bu ad isə qədim türk dillərində olan – "düzən", "açıq yer" və "cik" kiçildici şəkilçisindən ibarətdir. Əlincə qalasının adı «Kitabi-Dədə Qorqud»da Səkrəyin boyunda çəkilir.
**ƏLİNCƏÇAY** - Culfa r-nunda Araz çayının sol qolunun (uzunluğu 26 km) adı. Mənbəyini Dəmirli dağından alır. Xəznədərə və Ləktaq su çaylarının birləşməsindən əmələ gəlir. Əlincə qalasının adındandır.
**ƏLİXANGÜNEYİ** - Naxçıvan əyalətinin Qarabağ nahiyəsində məzrə (əkin yeri) adı.[4]
**ƏRƏBYENGİCƏ** - Şərur r-nunda kənd adı. Yenicə (təzəcə) yaranmış ərəb kəndi mənasındadır. Keçmişdə kəndin bir qrup ailəsi ayrılaraq həmin kəndə məxsus icma torpağında yeni məntəqə əmələ gətirir və vergini ana kəndlə birlikdə verirdisə, bu, yenicə adlanırdı.

---

1 İrəvan əyalətinin icmal dəftəri, s. 179.
2 Yenə orada, s. 164.
3 *Хамдаллах Казвини.* Нузхат ал-Кулуб. Материалы по Азербайджану. Баку,1983, с. 51.
4 İrəvan əyalətinin icmal dəftəri, s. 166.



**ƏRƏBUŞAĞI KÖÇƏRİ YALI QIŞLAĞI** - Naxçıvan əyalətinin Qarabağ nahiyəsində qışlaq adı.[1]
**ƏRƏZİN** - Culfa r-nunda kənd adı. Ərəzin türk dillərində əryə – "çay kənarı"[2] və sin – "dağ beli"[3] sözlərindən ibarətdir.
**ƏRƏZİN** – Naxçıvan qəzasında dağ adı.
**ƏRƏFSƏ** - Culfa r-nunda kənd adı.[4] Bəzi tədqiqatçılara görə Kiçik Asiyada Het dövlətinin çarı II Murşilin (er. əv. XIV əsr) qayaüstü yazısında Ərzurumun şimal-şərqində Aripsa adlı qalanın adı çəkilir.[5] Ehtimal ki, əhalinin hərəkəti ilə Kiçik Asiyadan gətirilmə addır.
**ƏRƏFSƏ MİNERAL BULAĞI** - Culfa r-nunda Əlincəçayın sağ sahilində bulaq adı. Ərəfsə kəndinin adı ilə adlanmışdır.
**ƏRƏFSƏÇAY** - Culfa r-nunda çay adı. Ərəfsə kəndinin adı ilə adlanmışdır.
**ƏRƏMUS** - Naxçıvan əyalətinin Azadciran nahiyəsində kənd adı.[6] Mənbədə kənddə 56 ailənin yaşadığı qeyd olunur.[7]
**ƏSGİH** - Şərur r-nun Mahmudlu kəndinin şərqində xaraba kənd adı. 1919-cu ildə İrəvan quberniyasının İrəvan qəzasındakı Əski kəndindən deportasiya edilmiş azərbaycanlıların məskunlaşması nəticəsində yaranmışdır.
**ƏSNİ** - İrəvan əyalətinin Sədərək nahiyəsində (indi Naxçıvan MR ərazisində) kənd adı.[8]
**ƏSHAB-İ KƏHF** - Culfa r-nunda ziyarətgah. Əshab-i Kəhf dağın (1665 m) və pirin adıdır. Naxçıvan əhalisinin müqəddəs sandığı yer – Əshab-i Kəhf mağarası[9] dağlar arasında yerləşir. «Əshab» yeniyetmə cavan oğlanlar, «kəhf» isə mağara, sığınacaq yeri deməkdir. Deməli, Əshab-i Kəhf yeniyetmə cavanların sığınacaq yeri – mağara mənasındadır.

İslam rəvayətlərinə görə, mağaradakılar Doqyanus adlı padşahın zülmündən qaçıb burada gizlənərək, 300 il yuxuya getdikdən

---

1 İrəvan əyalətinin icmal dəftəri, s. 166.
2 *Radlov V.V.* Göstərilən lüğəti, I, I, s. 478.
3 Yenə orada, IV, I, s. 628.
4 İrəvan əyalətinin icmal dəftəri, s.
5 *Капанцян Г.* Göstərilən əsəri, s. 46.
6 Naxçıvan sancağının müfəssəl dəftəri, s. 31.
7 Yenə orada, s. 190.
8 Yenə orada, s. 324.
9 Tarix elmləri doktoru, professor Seyidağa Onullahinin yazısına isnad edir.

sonra ayılaraq behiştə düşmüş altı yeniyetmə cavan oğlandan və onların yanında olan Qitmir adlı itdən ibarət olmuşdur.

Digər rəvayətə görə, Dəqyanus padşah olduğu vaxt əhalini bütpərəstliyə məcbur edirdi. Təkallahlığa inanan yeniyetmə cavan oğlanlar şahın zülm və təqiblərindən yaxa qurtarmaq üçün şəhərdən qaçıb mağarada özləri üçün sığınacaq tapmışlar. Çələbi, Beyzavinin təfsiri haşiyəsində yazır ki, Rəqim ayəsi lövhəyə yazılıb, həmin mağaranın qapısında təfsir olunmuşdur. O, dağın və ya kəndin adı ilə daşa həkk olunmuş yazıda şərh edilmişdir.

Quranın 18-ci «Əl-kəhf» surəsində bu barədə maraqlı məlumat verilmişdir. Həmin surədə deyilir: «Ey peyğəmbərimiz! Sən fikirləşirsən ki, Əshab-i Kəhf və Rəqim hekayəsi bizim bu qədər qüdrətli hikmətlərimiz müqabilində təəccüblü hadisədir? O vaxt ki, Kəhf cavanları düşmənin qorxusundan dağ mağarasında gizləndilər və Allahdan xahiş etdilər ki, İlahi, sən bizim haqqımızda rəhmə əta eylə, bizə bir kamil yol göstər. Biz haman mağarada onları bir neçə il bihuş etdikdən sonra yuxudan oyatdıq ki, görək onlar, neçə vaxt mağarada olduqları və yuxuya getdiklərini bilə biləcəklərmi?... Onlar cavan-mərdlər idi ki, öz Allahlarına iman gətirdilər. Biz (lütfümüz ilə) onlara düzgün yol göstərdik, onların (təmiz) ürəklərində (Allaha iman və məhəbbət) əlaqələrini möhkəmləndirdik. Onlar (bütpərəstlər və kafirlər) arasında qiyam edib dedilər: «Bizim Allahımız yeri, göyləri yaradandır və biz o tək Allahdan başqa heç kəsi Allahlığa qəbul etmirik. Əgər biz bütpərəstlər kimi fikirləşsək, çox ağır xətaya yol vermiş olarıq...».

Maraqlıdır ki, miladdan əvvəl 18-ci əsrdən miladın 2-ci əsrinə qədər olan müxtəlif xarakterli hekayələrin məcmusundan ibarət olan Tövratda Əshab-i Kəhf barədə məlumat verilmişdir.

1664-cü ildə Təbrizdə olmuş fransız səyyahı və taciri Şarden yazır: «Azərbaycanın maliyyə naziri Mirzə Tahir mənə dedi: «Tapılmış sikkələr arasında Midiyanın qədim şahları tərəfindən zərb edilmiş çoxlu qızıl və gümüş sikkə vardır». Mirzə Tahir həmin sikkələr üzərində yunan hərflərilə yazılar və təsvirlər olduğunu söylədi. Onun dediyinə görə «Dəqyanus» sözü həmin sikkələr üzərində zərb edilmişdir. O, Dəqyanus sözü haqqında məlumat verməyi məndən xahiş etdi. Mən cavabında dedim ki, heç vaxt belə bir ada rast gəlməmişəm. Lakin, hər halda bu, Daranın adı ola bilər».

Qeyd etmək lazımdır ki, I Dara miladdan əvvəl 522-486-cı illərdə hökmranlıq etmişdir. Bəs Dəqyanus kim idi? Azərbaycanın bəzi tarixçiləri iddia edirlər ki, miladi 284-305-ci illər arasında Roma hökm-



darı olmuş Diokletian Qay Avreli ola bilər. Çünki o, xristianları sıxışdırmağa başlamışdı. Lakin apardığımız axtarışlar nəticəsində məlum olmuşdur ki, Dəqyanus təqribən miladi 200-251-ci illər arasında yaşamış və miladi 249-cu ildən Roma imperatoru olmuş Desi Qay Messi Kvin Trayandır. Desi həqiqətən imperiya ərazisinin hər yerində ilk dəfə xristianları təqib etməyə başlamışdır. Nəhayət, 251-ci ildə qatlarla, yəni qədim German tayfaları ilə vuruşmada həlak olmuşdur. Yeniyetmə cavanmərdlər həmin imperatorun zülmündən və təqibindən yaxa qurtarmaq üçün qaçıb Naxçıvandakı mağarada sığınacaq tapmışdılar. Quranın «Əshab-i Kəhf» surəsində Makedoniyalı İskəndərin (miladdan qabaq 336-323-cü illərdə hökmranlıq etmişdir) Dərbənddə dəmir qapı saldırması hadisəsi Əshab-i Kəhf hadisəsindən sonra şərh edilmişdir. Bundan başqa, həmin hadisə Tövratda da qeyd edilmişdir. Deməli, cavanmərdlər mağaraya islamiyyət dövründə deyil, Məhəmməd peyğəmbər anadan olandan təqribən 320 il qabaq sığınmışdılar. Quranda qeyd edildiyi kimi, onların 300 il mağarada yuxuya getmələrini nəzərə alsaq, mərd cavanlar Məhəmməd peyğəmbər anadan olandan 11 il qabaq Allah tərəfindən behiştə aparılmışlar.

Əshab-i Kəhf mağarasında üzərində gözəl nəstəliq xəttilə, ərəb dilində yazı həkk edilmiş daş qoyulmuşdur. Həmin daşın ortasında Qurandan «Əshab-i Kəhf» surəsinin bir neçə ayəsi eynilə köçürülmüş, daşın ətrafında isə Naxçıvan hakimi, Kəngərli tayfasından olan Xudaqulu xanın xələfi Şükrulla xan hicri 1190-cı il səfər ayında (mart, 1776-cı ildə) atası, Naxçıvan hakimi Xudaqulu xanın şərəfinə sözlər yazdırmışdır. Deməli, hələ 220 il bundan öncə Naxçıvan hakimi olmuş Şükrulla xan Əshab-i Kəhfin Naxçıvan şəhəri yaxınlığındakı mağarada olduğunu dəqiq bilirmiş. Daş üzərindəki ərəb dilində yazı ilk dəfə bizim Seyidağa Onullahi tərəfindən oxunmuşdur.

Qəribədir ki, Türkiyə alimləri Əshab-i Kəhfin Anadolu ərazisində yerləşdiyini iddia edir və aldığımız məlumata görə bu barədə kitabça da buraxmışlar. Təəssüf ki, biz həmin kitabçanı əldə edə bilmədik. Lakin Quranda günəş çıxarkən mağaranın sağ tərəfindən, batarkən sol tərəfindən şüa salması, indi də haqqında bəhs etdiyimiz mağarada həmin vəziyyətin mövcud olması, 220 il bundan öncə həmin mağarada üzərində «Əshab-i Kəhf» surəsindən bir neçə ayənin ərəb dilində yazılıb həmin mağaraya qoyulması, mağaranın quruluşu,

görünüşü – bütün deyilənlər bizə qəti fikir söyləməyə imkan verir ki, Əshab-i Kəhf Naxçıvan şəhəri yaxınlığındakı mağaradır.[1]

**FAZİL QIŞLAĞI** - Naxçıvan əyalətinin Qarabağ nahiyəsində məzrə (əkin yeri) adı.[2] "Fazil qışlağı" adlı yer də əkin yeri mənasındadır.

**FƏRHAD** - Naxçıvan əyalətinin Şərur nahiyəsində kənd adı.[3] Əsli "Fərhad arxı" məzrəsidir, "Qalacıq kəndinin yaxınlığında yerləşir" (yenə orada).

**FÜRUZABAD** - Naxçıvan əyalətinin Naxçıvan nahiyəsində kənd adı.[4]

**GAK**- Culfa r-nunda kənd adı.

**GƏDİK** - Culfa r-nunda Zəngəzur silsiləsində aşırım adı.

**GƏDİKDAĞ** - Culfa r-nunda Zəngəzur silsiləsində dağ adı.

**GƏMİQAYA** - Ordubad r-nunda Tivi və Nəsirvaz kəndlərinin şimal-şərqində qaya adı. Digər adı Qapıcıq (hünd. 3906 m). Qapıcıq dağının adı nə vaxtsa xalq arasında dolaşan Nuhun gəmisi haqqındakı əfsanə ilə əlaqədar Gəmiqaya adlanmışdır.

**GƏMİQAYA** - Şahbuz r-nunda Kömür kəndinin şərqində dağ adı (hünd. 2970 m).

**GƏNZƏ** - Ordubad r-nda kənd adı.[5] Ərəb dilində kənisə – "atəşpərəstlərin məbədi" sözündəndir. İsmayıllı r-nunda Kənzə dağı, Kənzə kənd adları ilə mənaca eynidir.

**GƏNZƏÇAY** - Ordubad r-nunda çay (uz. 17 km) adı. Arazın sol qoludur. Mənbəyini Zəngəzur silsiləsinin cənub-qərb yamacından alır. Kənzə dərəsi adlı dərənin adı ilə adlanmışdır. Ərəb dilində Kənisə – "atəşpərəstlərin məbədi" sözündəndir. Bax: Kənzə k.

**GƏRAY** - İrəvan əyalətinin Karbi nahiyəsində (indi Naxçıvan MR-in Şərur r-nunda) kənd adı.[6] "Quşçu kəndinin yaxınlığında yerləşir" (yenə orada).

**GƏRMƏÇATAQ** - Babək r-nunda kənd adı. Mənbədə kəndin adı "Kərim çatağı" kimi yazılmışdır.[7] Türk dillərində çatak – "iki dağın birləşdiyi yer"[8] sözündəndir.

---

[1] *Seyidağa Onullahi.* Cavanlar 30 il Əshab-i Kəhf mağarasında yuxuya getmişdilər. «Naxçıvan» qəzeti, 15 avqust 1996-cı il.

[2] İrəvan əyalətinin icmal dəftəri, s. 166.

[3] Yenə orada, s. 38.

[4] Yenə orada, s. 165.

[5] Yenə orada, s. 148.

[6] Yenə orada, s. 58.

[7] *Шанязов К.К.* К этнической истории узбекского народа. Ташкент, 1974, с. 125.

[8] İrəvan əyalətinin icmal dəftəri, s. 142.



**GƏRMƏÇATAQ ÇAYI** - Babək r-nunda Cəhri çayının sol qolunun (uz. 20 km) adıdır. Kərimçatax kəndinin adı ilə adlanmışdır.

**GİLANÇAY** - Ordubad r-nunda Qoşadizə kəndinin qərbindən axan çay (uz. 53 km) adı. Bax: Xaraba Gilan.

**GİLANÇAY** - Ordubad r-nunda kənd adı. Kənd Gilançayın adı ilə adlanmışdır.

**GİNDİVAZ** - İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında kənd adı.[1] Fars dilində kund –"təpə" və qədim türk-monqol dillərində bays, vayz, vaz – "sıldırım"[2] sözlərindən ibarətdir.

**GİRDƏNİ** - Ordubad r-nunda kənd adı.

**GİRDƏNÇAY** - Ordubad r-nunda Vənəndçayın sağ qolunun adı.

**GİRDƏSƏR** - Şahbuz r-nunda suayrıcının adı.

**GORAN QALASI DAĞI** - Şərur r-nunda Dizə kəndindən şimalda dağ (hünd. 1132 m) adı.

**GORAN QALASI** - Şərur r-nunda Mahmudkənd kəndinin şimal-şərqində dağ adı. Türk dillərində kuran, xuren "maldar elin düşərgə yeri, alaçıqlar qurulan yer", dayanacaq[3] sözündəndir. Rəşidəddin yazır ki, bir kuran 1000 alaçıqdan ibarət olurdu.[4] Qeyd etmək lazımdır ki, Azərbaycanda "Goran" adlı çoxlu yer adı vardır. Məsələn, dağlıq Şirvanda Goran yurdu, Goran yolu, Goran qışlağı və s.[5] Müəllif bu adları Kolanı tayfasının Goran qolunun adı ilə bağlamışdır. Deməli, "Goran qalası" toponimi həm də Qarabağın böyük tayfalarından biri olmuş[6] Kolanı tayfasının adı ilə əlaqədar ola bilər.

**GOVURQALA** - Şərur r-nunda Axura kəndinin şimal-şərqində, Axuraçayla Havuşçayın birləşdiyi yerdə qədim qala adı.

**GÖYDAĞ** - Culfa r-nunda Boyəhməd kəndinin cənubunda dağ adı.

**GÖYNÜK** - Culfa r-nunda kənd adı. Mənbədə Naxçıvan əyalətinin Sair Məvazi nahiyəsində kənd kimi qeyd olunur.[7] Azərbaycan dilində göy (yaşıl, otlaq yer mənasındadır) və türk dillərində nük – "çay yatağı" sözlərindəndir.

---

[1] *Paqiryev D.D.* Göstərilən əsəri, s. 62.

[2] *Кузьмина Г.Г.* Словарь географических терминов и других слов, встречающиеся в бурятских географических названиях. М., 1969, с. 13.

[3] *Radlov V.V.* Göstərilən lüğəti, II, 2, s. 1455.

[4] *Рашид ад-Дин.* Сборник летописей, т. I кн. 1, М-Л., 1952.

[5] *Bəndəliyev N.S.* Dağlıq Şirvanın bəzi toponimlərinin mənşəyinə dair. "Toponimik tədqiqatların tarixi". Bakı, 1992, s. 149.

[6] Bu barədə bax: *Гейбуллаев Г.А.* Топонимы Азербайджана, Баку, 1986

[7] İrəvan əyalətinin icmal dəftəri, s. 140.

**GÖMÜR** - Şahbuz r-nunda kənd adı.[1] Qədim türk dillərində kömür – "dağın zirvəsində dar, yarğanlı yer"[2] sözündəndir.
**GÖMÜRÇAY** - Şahbuz r-nunda Naxçıvançayın sol qolunun (uzunluğu 13 km) adı.
**GÖYGÖL** - Ordubad r-nunda Zəngəzur silsiləsinin cənub yamacında 3065 m yüksəklikdə şirin sulu, axarlı gölün adı.[3] Gilançayın sol qolu Sakkarsu çayının mənbəyidir.
**GÜNEY QIŞLAQ** – Şahbuz r-nunda kənd adı. Keçmiş adı Yuxarı Remeşin kəndi idi.
**GÖYNÜK** - Naxçıvan əyalətinin Sair-Məvazi nahiyəsində kənd adı.[4]
**GÖYNÜK** - Şahbuz r-nunda Keçili kəndinin şimal-şərqində təbii mərz adı.
**GÜLÜSTAN** – Culfa r-nunda kənd adı. Bax: Culfa.
**GÖYÇÜ** - İrəvan əyalətinin Karbi nahiyəsində (indi Naxçıvan MR-in Şərur r-nunda) kənd adı.[5]
**GÜNEY** - Şahbuz r-nunda Nurs kəndinin şimalında dağ adı.
**GÜZNÜT** - Babək r-nunda kənd adı. Mənbədə Naxçıvan əyalətinin Əlincə nahiyəsində kənd kimi qeyd olunur.[6] Güznüt əkin yerinin (məzrənin) adıdır və Ərəzin kəndinin yaxınlığında olan bu məzrədə Ərəzin və Nehrəm kəndlərinin əhalisi əkin əkir.[7]
**GÖYNÜK** – Culfa r-nunda kənd adı.
**GÜLEYMAR** - Culfa r-nunda mineral bulaq adı.
**GÜLÜM-GÜLÜM** - Ordubad r-nunda Nəsirvaz kəndinin cənubunda dağ adı.
**GÜLŞƏNABAD** - Babək r-nunda kənd adı.
**GÜMBƏZ** - Naxçıvan şəhərinin məhəllələrindən birinin adı.[8] "Digər adı Nuri-Kamanlar" (yenə orada).
**GÜMÜŞLÜ** - Şərur r-nunda kənd adı.
**GÜMURÇAY** - Şahdağ r-nunda çay adı, həmin r-ndakı Kömür kəndinin adındandır. Bax: Kömür.

---

1 İrəvan əyalətinin icmal dəftəri, s. 141.
2 *Радлов В.В.* Опытный словарь тюркских наречий, II, 2, с. 1321.
3 Azərbaycan SSR-in izahlı coğrafi adlar lüğəti, s. 157.
4 Naxçıvan sancağının müfəssəl dəftəri, s. 27.
5 İrəvan əyalətinin icmal dəftəri, s. 37.
6 Yenə orada.
7 Naxçıvan sancağının müfəssəl dəftəri, s. 89.
8 İrəvan əyalətinin icmal dəftəri, s. 19.



**GÜNEYBAĞ** - Ordubad r-nunda çayın adı.
**GÜNNÜT** - Şərur r-nunda kənd adı. Qədim türk mənşəli Hun (xun) etnonimindən və qədim türk dillərində cəm bildirən şəkilçidən[1] ibarətdir. Xunut dağının adı ilə mənşəcə eynidir. Bu toponim «günəşli» yer, güney mənasını da verir. Bax: Xunut dağı.
**GÜHNAR** - Naxçıvan əyalətinin Azadciran nahiyəsində kənd adı.[2]
**HATƏMXAN** - İrəvan əyalətinin Sədərək nahiyəsində (indi Naxçıvan MR ərazisində) kənd adı.[3] Mənbədə kəndin Dünbili tayfasının məskunlaşması nəticəsində yarandığı qeyd olunmuşdur.[4]
**HACATI** - Naxçıvan əyalətinin Dərə-Nürgüt nahiyəsində kənd adı.[5]
**HACIBƏY** - 1590-cı ildə Naxçıvan şəhərinin məhəllələrindən birinin adı.[6] Ehtimal ki, Hacıbəy məhəllənin aliminin, ağsaqqalının, ya da nəsil başçısının adıdır.
**HACIVAR** - Babək r-nunda kənd adı. Hacı şəxs adından və var "maldar elin qışlaqda yeri" sözündən ibarətdir. Digər adı Hacıabad.[7]
**HACI QAYIB** - Şərur r-nunda Axurçayın sol sahilində mağara və pir adı. Əsli: Hacı Qaib piridir.
**HACI İSLAM** - İrəvan əyalətinin Şərur nahiyəsində kənd adı.[8] Əhalisi Dünbülü əşirətindəndir (yenə orada).
**HACI LALƏLİ** - Naxçıvan əyalətinin Şərur nahiyəsində kənd adı.[9]
**HACI MƏHƏMMƏD** - Naxçıvan əyalətinin yaylaqlarından birinin adı.[10]
**HAVUŞ** - Şərur r-nunda kənd adı. İrəvan əyalətində mövcud olmuş Havuş kəndi ermənilər tərəfindən sonra əhalinin indiki əraziyə köçüb yerləşməsi nəticəsində yaranmışdır.
**HAVUŞDAŞ** - Şərur r-nunda Havuş kəndinin şimalında dağ adı. Dağ sıldırım qayalar arasında 15 metrlik mağaranın və oradakı Havuş pirinin adındandır.
**HAVUŞÇAY** - Şərur r-nunda Qabaqlıçayın sol qolunun adı.
**HEYDƏRABAD** - Sədərək r-nunda qəsəbə. Sədərək r-nunun mərkəzi.

---

1 Древнетюркский словарь, с. 326.
2 Naxçıvan sancağının müfəssəl dəftəri, s. 31.
3 Yenə orada, s. 324.
4 Yenə orada.
5 Yenə orada, s. 149.
6 İrəvan əyalətinin icmal dəftəri, s. 19.
7 Yenə orada, s. 73.
8 Yenə orada, s. 168.
9 Yenə orada, s. 168.
10 Yenə orada, s. 166.

**HAVUŞ** – Şərur r-nunda kənd adı. Keçmişdə Avuş adlanırdı.
**HƏDƏL** - Naxçıvan əyalətinin Sədərək nahiyəsində keçmişdə mövcud olmuş kənd adı.
**HƏMZƏLİ** - Şərur r-nunda kənd adı. Kəndin əsasını qoymuş nəslin adıdır.
**HƏRƏMİ** - Ordubad r-nunda Biləv kəndinin şimal-qərbində aşırım adı.
**HORNİ** - Naxçıvan əyalətinin Sair-Məvazi nahiyəsində kənd adı.[1]
**HURCEŞİN** - Naxçıvan əyalətinin Dərə-Şahbuz nahiyəsində kənd adı.[2]
**HUREMEŞİN** - Naxçıvan əyalətinin Naxçıvan nahiyəsində kənd adı.[3]
**XALXAL** - Babək r-nunda kənd adı. Cənubi Azərbaycan ərazisində qeyd olunmuşdur.[4] Şimali Azərbaycan ərazisində Xalxal və Xalxal-qışlaq kəndləri vardır. Bəzi tədqiqatçılara görə bu toponim Azərbaycan dilinin dialektlərindən olub, çəpərlənmiş (hasarlanmış) yer, ağıl, qoyun yatağı mənasındadır.
**XAMLİDAĞ** - Ordubad r-nunda Zəngəzur silsiləsinin zirvələrindən birinin (hünd. 2690 m) adı.
**XANABAD** - İrəvan əyalətinin Karbi nahiyəsində (indi Naxçıvan MR-in Şərur r-nunda) qışlaq adı.[5] Ehtimal ki, Naxçıvan xanlarına mənsub kəndlərdən olmuşdur. Xana mənsub abad (kənd) mənasındadır.
**XANƏCAN** - Culfa r-nunda kənd adı. Fars mənşəli xanəgah "dərvişlər üçün məbəd", "Sufilərin yaşadıqları yer"[6] sözünün təhrif formasıdır. Bu xanəgahda hürufilik cərəyanının başçısı, İmadəddin Nəsiminin müəllimi Fəzlullah Nəimi "Şeyx Xorasani" adı ilə dəfn olunmuşdur.
**XANAĞA** - Culfa r-nunda Xanağa kəndinin şərqində dağ (hünd. 1910 m) adı. Bax:Xanağa k.
**XANBULAQ** - Şərur r-nunda Havuş kəndinin cənubunda bulaq adı.
**XANƏGAH** - Naxçıvan əyaləti, Ordubad qəzasının Azadciran nahiyəsində kənd adı.[7]
**XANLIQLAR** - Şərur r-nunda kənd adı. Naxçıvan xanlarına məxsus kəndlərdəndir. "Xana məxsus, xanlıq kənd" mənasındadır.

---

[1] Naxçıvan sancağının müfəssəl dəftəri, s. 27.
[2] Yenə orada.
[3] Yenə orada, s. 25.
[4] *Vəlixanlı N.M.* IX-XII əsr ərəb coğrafiyaşünas səyyahları Azərbaycan haqqında. Bakı, 1974.
[5] İrəvan əyalətinin icmal dəftəri, s. 28.
[6] *Бартольд В.В.* Соч. том. II, ч. I., М., 1963, с. 218.
[7] İrəvan əyalətinin icmal dəftəri, s. 179.



**XANÇEŞMƏ** - Ordubad r-nunda Urmis kəndinin şimal-qərbində bulaq adı.
**XARABA GİLAN** - Ordubad r-nunda Gilançayın sol sahilində xaraba şəhər adı. Bir fikrə görə, XIII əsrdə monqollar tərəfindən dağıdılmış və bir daha dirçəlməmişdir.[1]
**XARKU** - Babək r-nunda Sirab kəndinin şimal-şərqində çay adı.
**XATUNKƏHRİZ** - İrəvan əyalətinin Sədərək nahiyəsində kənd adı.[2] Mənbədə kəndin Dünbili tayfasının məskunlaşması nəticəsində yarandığı qeyd olunur.[3]
**XAÇAPARAQ** - Culfa r-nunda Bənənyar kəndinin şimalında xaraba kənd adı. Haça – qoşa və baraq (gecələr mal-qara salınan yer) mənasındadır.
**XƏZƏRDƏRƏQLUX** - Culfa r-nunda, Cuğa kəndinin şimal-şərqində dağ adı. Azərbaycan ərazisində Xəzər etnonimini əks etdirən coğrafi adlardan, Azərbaycan dilində dərə və zirvə sözlərindən ibarətdir.
**XƏZƏRYURD** - Ordubad r-nunda Nəsirvaz kəndinin cənub-şərqində dağ (hünd. 3168 m) adı. Erkən orta əsrlərdə Azərbaycan ərazisində məskunlaşmış xəzərlərin adını əks etdirir. Oronimlərdəki "yurd" sözü göstərir ki, dağ xəzərlərin yaylaq yeri olmuşdur.
**XƏLƏC** - Şərur r-nunda kənd adı.[4] Azərbaycanın müxtəlif rayonlarında bu adda beş kənd vardır. Səlcuq oğuzlarının Xələc tayfasının adını əks etdirir. Mahmud Qaşqariyə görə, oğuzlar əvvəlcə 24 tayfa idilər. Sonra onlardan ikisi birləşərək Xələc tayfasını yaratmışdır.[5] Ərəb müəlliflərinə görə Amu-Dəryanın cənubundakı əyalətlərdə yaşamış türk tayfalarından biri xələclər olmuşlar.[6] Şübhəsiz ki, XI-XII əsrlərdə Səlcuq oğuzlarının tərkibində Azərbaycan ərazisinə gəlmişlər. M.H.Vəliyev xələclərin Azərbaycana gəlişini 826-836-cı illərə aid edir[7].
**XƏLƏC** - Şərur r-nunda Alışar kəndinin şərqində dağ adı. Xələcdaşı da adlanır. Səlcuq oğuzlarının Xələc tayfasının[8] adını əks etdirir.

---

[1] *Сысоев В.М.* Нахичеванский край. Известия Азкомстариса, вып IV, с 245.
[2] Naxçıvan sancağının müfəssəl dəftəri, s. 324.
[3] Yenə orada.
[4] İrəvan əyalətinin icmal dəftəri, s. 38.
[5] *Mahmud Qaşqari*, III., s. 304-306.
[6] *Бартольд В.В.* Соч. т., V, с. 89.
[7] *Vəliyev M.H.* Göstərilən əsəri, s. 395.
[8] *Рашид ад-Дин.* Сборник летописей, т. I., М., 1952, с. 83-85.

**XƏLFƏLİ** - Naxçıvan əyalətinin Qışlağat nahiyəsində kənd adı.[1] Şahsevənlərin 400 alaçıqdan ibarət Sərxanlı tayfasının Xəlfəli tirəsinin adını əks etdirir.
**XƏLİLLİ** - Babək r-nunda kənd adı. Kənd etnonimdir.
**XƏLİLİ** - Naxçıvan əyalətinin Azadciran nahiyəsində kənd adı.[2]
**XƏLİLXARABASI** - Naxçıvan əyalətinin Naxçıvan nahiyəsində məzrə adı.[3]
**XƏLİFƏ** - Naxçıvan əyalətinin Qışlağat nahiyəsində kənd adı.[4]
**XƏLİFKƏND** - İrəvan əyalətinin Karbi nahiyəsində (indi Naxçıvan MR-in Şərur r-nunda) kənd adı.[5]
**XƏLİFƏDÜZƏN** - Naxçıvan əyalətinin Naxçıvan nahiyəsində (sancağında) kənd adı.[6] "Hacıabad kəndi yaxınlığında yerləşir" (yenə orada).
**XƏLİCƏ** - İrəvan əyalətinin Karbi nahiyəsində (indi Naxçıvan MR-in Şərur r-nunda) kənd adı.[7]
**XƏTAİ** – Şərur r-nunda kənd adı.
**XINCAB** - Kəngərli r-nunda kənd adı. Mənbədə Naxçıvan əyalətinin Qarabağ nahiyəsində Xincab adı kimi qeyd olunur.[8]
**XIZIR** - Naxçıvan əyalətinin Əlincə nahiyəsində məzrə adı.[9]
**XIZIRXANA** - Naxçıvan əyalətinin Mülki-Arslan nahiyəsində məzrə adı.[10]
**XINZİRƏK** - Naxçıvan əyalətinin Dərə-Şahbuz nahiyəsində kənd adı.[11]
**XOK** - Kəngərli r-nunda kənd adı. Naxçıvan əyalətinin Qarabağ nahiyəsində kənd adı.[12] "Əhmədağa dizəsi" adı ilə tanınır (yenə orada). Digər Xok adlı kənd İrəvan əyalətinin Maku nahiyəsində vardı.[13] İ.Şopenin bu

---
[1] İrəvan əyalətinin icmal dəftəri, s. 145.
[2] Naxçıvan sancağının müfəssəl dəftəri, s. 31.
[3] İrəvan əyalətinin icmal dəftəri, s. 138.
[4] Naxçıvan sancağının müfəssəl dəftəri, s. 30.
[5] Yenə orada, s. 38
[6] Yenə orada, s. 138.
[7] Yenə orada, s. 38.
[8] Yenə orada, s. 144 .
[9] Yenə orada, 182.
[10] Yenə orada, 166.
[11] Yenə orada.
[12] İrəvan əyalətinin icmal dəftəri, s. 166.
[13] Yenə orada, s. 41.



kəndin adını fars dilində xuk – "donuz" sözü ilə izah etməsi,[1] inandırıcı deyil.
**XOK** - Kəngərli r-nunda Böyükdüz kəndinin şərqində dağ (1060 m).
**XORNİ** - Naxçıvan əyalətinin Dərə-Şahbuz nahiyəsində kənd adı.[2]
**XORXAT** - Ordubad r-nda Kilit kəndindən şimalda dağ adı.
**XOŞKEŞİN** - Culfa r-nunda kənd adı. Mənbədə kəndin həm də Firəng Göy adlandığı qeyd olunur.[3]
**XOŞKEŞİN ÇAYI** - Culfa r-nunda Əlincəçayın sol qolunun (uz.16 km) adı.
**XOŞKEŞİN** - Culfa r-nunda dağ suayrıcının adı.
**XOCAMVERDİ** - Naxçıvan əyalətinin Qışlağat nahiyəsində məzrə adı.[4] "Nehrəm kəndinin tərəfindədir" (yenə orada).
**XOŞLUQIŞLAĞI** - Naxçıvan əyalətinin Qarabağ nahiyəsində kənd adı.[5]
**XOŞLUDAĞ** - Ordubad r-nunda dağ adı. Qədim türk dillərində xoş "köçəbə yeri", "maldar elin yaylaq yerində düşərgə yeri" sözündəndir.
**XUNUT** - Şərur r-nunda Künnüt kəndinin şimalında dağ adı. Eramızın əvvəllərində şimaldan gəlib məskunlaşmış hun etnonimi ilə bağlıdır. Qədim hun etnoniminin əsl forması məhz Xun olmuşdur.[6] Erkən orta əsrlərdə Albaniyada, indiki Tovuz r-nun ərazisində, Kürün sol sahilində Xunan qalasının adı (V əsrdən məlumdur), Gürcüstanda keçən əsrdə əhalisi azərbaycanlılardan ibarət Xunevi, Xundisubani,[7] Gədəbəy r-nunda Xunus (Novo Spaskoe) adları ilə mənşəcə eynidir. Dağın adı Xun etnonimindən və qədim türk dillərində cəm bildirən - ut şəkilçisindən ibarətdir. Həmin dağın adı təhrif olunmuş şəkildə Künnüt kəndinin adında əksini tapmışdır. Bax: Künnüt.
**XURS** - Ordubad r-nunda kənd adı. Qədim türk mənşəli Qorus tayfasının adını əks etdirir. Dağıstanın Axtı rayonundakı Quruş kəndinin adı da türk mənşəli Qorus etnonimindəndir. Ermənistanda Sisyan r-nunda Gorus və Qarabağda Xoruzlu toponimləri ilə mənşəcə eynidir.
**XOŞLUYER** - Naxçıvan əyalətinin Qarabağ nahiyəsində qışlaq adı.[8] Bu toponim "Xoşlu yer", "xoşa gələn yer", "gözəl yer" mənasındadır.

---
[1] *Şopen İ.* Göstərilən əsəri, s. 330.
[2] İrəvan əyalətinin icmal dəftəri, s. 166.
[3] Yenə orada, s. 139.
[4] Yenə orada, s. 145.
[5] Naxçvan sancağının müfəssəl dəftəri, s. 29.
[6] *Qumilyov L.N.* Xuntu. M., 1960, s. 48.
[7] *Paqiryev D.D.* Göstərilən əsəri.
[8] İrəvan əyalətinin icmal dəftəri, 145.

**XUZMƏRƏK** - 1590-cı ildə Naxçıvan şəhərinin məhəllələrindən birinin adı.[1] Qədim türk dillərində küz – "dağın gündüşən tərəfi", "payız otlağı", "qoyunların payızda otarıldığı yer" və mərək – "nəzarət məntəqəsi"[2] sözlərindən ibarətdir.

**İBADULLA** - Şərur r-nunda kənd adı. Kəndin əsasını qoymuş şəxsin adındandır.

**İQAN-KİT** - Ordubad r-nunda çay adı.

**İKİNCİ QARAXANBƏYLİ** - Naxçıvan əyalətinin Naxçıvan şəhərinin yaxınlığında kənd (dizə ) adı.[3]

**İKİNCİ DƏRƏŞAM** - Babək r-nunda İkinci dünya müharibəsindən sonrakı illərdə yaranmış qəsəbənin adı. Bax: Dərəşam.

**İLANDAĞ** - Culfa r-nunda dağ adı. Mütləq yüksəkliyi 2412 m.-dir. Kəlbəcər r-nunda İlandağ, Şamxor r-nunda İlancadağ adları ilə mənaca eynidir.

**İLƏXBAŞI** - Şahbuz r-nunda dağ suayrıcının adı.

**İLƏÇİ** - Naxçıvan əyalətinin Azadciran nahiyəsində kənd adı.[4]

**İMAMQULU QIŞLAĞI** - Naxçıvan əyalətinin Şərur nahiyəsində qışlaq adı. İmamqulu şəxs adındandır.

**İMAMQULUÇAY** - Şahbuz r-nunda Keçili kəndinin cənubundan axan çay adı.

**İMƏŞCƏ** - Naxçıvan əyalətinin Qışlağat nahiyəsində kənd adı.[5]

**İSAXAN** - İrəvan əyalətinin Sədərək nahiyəsində kənd adı.[6] Mənbədə kəndin Dünbili tayfasının məskunlaşması nəticəsində yarandığı qeyd olunmuşdur.[7]

**İSACAN** - Naxçıvan əyalətinin Şərur nahiyəsində kənd adı.[8]

---

1 İrəvan əyalətinin icmal dəftəri, s. 19.
2 *Radlov V.V.* Göstərilən lüğəti, IV, 2. s. 2025.
3 Naxçıvan sancağının müfəssəl dəftəri, s. 49.
4 Yenə orada, s. 168.
5 Yenə orada, s. 145.
6 Yenə orada, s. 324.
7 İrəvan əyalətinin icmal dəftəri, s. 20.
8 Yenə orada, s. 140.



**İSLAM KEÇİDİ** - 1728-ci ildə Naxçıvan əyalətinin Sair-Məvazi nahiyəsində kənd adı.[1] İslam şəxs adındandır.

**İSLAMİ** - Naxçıvan əyalətinin Qışlağat nahiyəsində kənd adı.[2]

**İSHAQLI YÜZBAŞI QIŞLAĞI** - Naxçıvan əyalətinin Şərur nahiyəsində qışlaq adı.[3] İshaq şəxs (mülkədar) adındandır.

**İSFƏNDİYAR ZAVİYASI** - Naxçıvan əyalətinin Mülki-Arslan nahiyəsində zaviya adı.[4]

**İTQIRAN** - Şərur r-nunda Malxan dağında xaraba kənd adı. XIX əsrdə İrəvan quberniyasının Dərələyəz qəzasındakı İtqıran kənd adı ilə eyni mənşəlidir. Qıpçaqların Ete tayfasının adından[5] və türk dillərində kuran, kuren – "hərbi düşərgə", "maldar elin müvəqqəti dayanacaq yeri" sözündən ibarətdir.

**HUŞTƏRƏNGƏ** - Ordubad şəhərində bir məhəllənin adı.[6]

**KABUDLAR** - Naxçıvan əyalətinin Əlincə nahiyəsində kənd adı.[7] Mənası məlum deyil.

**KAHAÇAY** - Babək r-nunda Nəcəfqulu-Dizə kəndinin şimalından axan çayın (uzunluğu 21 km) adı.

**KAZIMBULAQ** - Şahbuz r-nunda Nurs kəndinin şimal-şərqində göl adı.

**KAZIMDƏHNƏ** - Ordubad r-nunda çaylardan birinin sol qolunun adı.

**KARAMOLIX** - Şahbuz r-nunda təbii mərz adı.

**KARVANSARAY** - Şahbuz r-nunda Keçili kəndinin şimal-şərqində təbii mərz adı.

**KAHALAR** - Naxçıvan əyalətinin Mülki-Arslan nahiyəsində məzrə adı.[8]

**KEVİKSU** - Culfa r-nunda Qavaxsu çayının sol qolu. Türk dillərində keyik, kevik ("Kitabi-Dədə Qorqud" eposunda - Keyik) "ceyran" və su sözlərindən ibarətdir. "Ceyranların su içdiyi çay" mənasındadır.

**KELA QEYMAR** - Culfa r-nunda kənd adı. Ərəb dilində kelye müqəddəslərin məbəddə evi, "ziyarətgah" və Qeymar toponimindən ibarətdir.

---

1 İrəvan əyalətinin icmal dəftəri, s. 129.
2 Naxçıvan sancağının müfəssəl dəftəri, s. 30.
3 Yenə orada, s. 129.
4 Yenə orada, s. 28.
5 *Попов А И.* Названия народов СССР, Л., 1973, с. 129.
6 İrəvan əyalətinin icmal dəftəri, s. 20.
7 Yenə orada.
8 Yenə orada, s. 165.

**KELA QEYMAR** - Culfa r-nunda çay adı.
**KELLUX** - Şahbuz r-nunda Gecəzur kəndinin şərqində təbii mərz adı. Kelyəlik (Kelyə olan) yer adından təhrifdir.[1]
**KOTAM** - Ordubad r-nunda kənd adı.
**KOTAM** - Ordubad r-nunda Kilit kəndinin şimalında dağ adı.
**KOTAMÇAY** - Ordubad r-nunda Arazın sol qolu.
**KEÇİLİ** - Şahbuz r-nunda kənd adı. Naxçıvan əyalətində Keçili tayfası adlı tayfanın yaşadığı qeyd olunmuşdur.[2] Keçili adlı türk tayfası orta əsrlərdə Türkiyə ərazisində də yaşayırdı.[3] V.A.Qordlevskiyə görə səlcuq oğuzlarının Kayn tayfasının bir qolu Qızıl Keçili, digəri Çəpni adlanırdı.[4] Keçililər Naxçıvan əyalətində Kəngərlərin bir qolu olmuşdur. Keçmişdə Araz çayının sağ sahilində yaşamış bu tayfa Səfəvilər vaxtında Naxçıvana keçərək Kəngərlərə qarışmışdır.[5] Anadolu yarımadasında Sarı Keçili tayfasının yaşaması da məlumdur.[6]
**KƏLƏKİ** - Ordubad r-nunda kənd adı.[7] Kələki - Kələ fars dilində böyük, uca, yüksək, guh, "dağ" deməkdir. İkinci mənada kəndin adı ərəb dilində «kelyə» - "müqəddəslərin məbəddə evi"[8] və farsca ki (farsca ku – "dağ" sözünün təhrifi) sözlərindən ibarətdir. Toponim Məbəd dağı mənasındadır. İsmayıllı r-nunda Kelaxana kənd adı ilə mənaca eynidir.
**KƏLƏNTƏR DİZƏ** - Ordubad r-nunda kənd adı. Orta əsrlərdə bəylərbəyi tərəfindən təyin edilmiş ticarət və sənətkarlıq üzərində nəzarət edən şəhər başçısı. Kələntər və dizə – "kənd" sözlərindən ibarətdir.
**KƏNGƏRLİ** – Naxçıvan MR-də inzibati rayon mərkəzinin adı.
**KÜRDƏTAL** - Ordubad şəhərinin məhəllələrindən birinin adı.[9] Digər adı "Meydan" (yenə orada).
**KƏRBƏLA** - İrəvan əyalətinin Sədərək nahiyəsində kənd adı.[10]

[1] *Бартольд В.В.* Соч , т , II, ч. I., с. 218.
[2] Передняя Азия в документах. Кн. I, Нахичеванские рукописные документы. XVII-XIX вв. Тифлис, 1936, с. 44
[3] *Гордлевский В.А.* Соч. т. III, с. 109
[4] Yenə orada.
[5] Передняя Азия в документах. Кн. I. Нахичеванские рукописные документы. с. 49
[6] *Еремеев Д.Е* Юрюки. М., 1969, с. 10
[7] İrəvan əyalətinin icmal dəftəri, s. 147.
[8] *Бартольд В.В.* Соч. т., II, ч. I. с. 218.
[9] İrəvan əyalətinin icmal dəftəri, s. 49.
[10] Naxçıvan sancağının müfəssəl dəftəri, s. 325.



**KƏRDƏSƏR** - Naxçıvan əyalətinin Dərə-Şahbuz nahiyəsində kənd adı.[1]
**KƏRKİ** - Sədərək r-nunda kənd adı. Orta əsrlərdə Naxçıvanda yaşamış türkdilli Kərki tayfasının[2] məskunlaşması nəticəsində yaranmışdır. Türk mənşəli Kerki tayfasının mənşəyi haqqında məlumat vardır.[3] Özbəklərdə Kərki tayfası[4] məlumdur. Qazax r-nunda Kərkibaşlı kənd adı ilə mənşəcə eynidir.
**KƏRKİCİK** - İrəvan əyalətinin Sədərək nahiyəsində (indi Naxçıvan MR ərazisində) kənd adı.[5] "Kiçik Kərki kəndi" mənasındadır. Bax: Kərki k.
**KƏRİMBƏYLİ** - Şərur r-nunda kənd adı.
**KƏRİMQULU DİZƏ** - Culfa r-nunda kənd adı. Kərimqulu şəxs (mülkədar) adından və dizə "kənd", "məntəqə" sözündən ibarətdir.
**KƏSƏNDAĞ** - Culfa r-nunda Culfa şəhərindən şimalda dağ (1099 m) adı. Türk dillərində kezen – "aşırım", "dağ keçidi"[6] sözündən ibarətdir.
**KEÇƏLDAĞ** - Şahbuz r-nunda Yuxarı Qışlaq kəndinin şimalında dağ adı (hünd. 3115 m). Naxçıvan və Şərqi Arpa çaylarının suayrıcında Dərələyəz silsiləsinin zirvəsidir.[7] Dağ adlarında keçəl sözü "seyrək bitkili" mənasındadır.
**KEÇƏLTƏPƏ** - Babək r-nunda Yuxarı Buzqov kəndinin şimal-qərbində dağ (hünd. 2470 m) adı. Dərələyəz silsiləsində zirvələrdən biridir.[8]
**KEÇƏL ÇƏRKƏZ** - Culfa r-nunda dağ adı.
**KİLİT** - Ordubad r-nunda kənd adı. Qədim İran dillərində keləş - "dağ başında qala" sözündəndir.[9]
**KİLİTÇAY** - Ordubad r-nunda çay adı. Kilit kəndinin adındandır.
**KIRNA** - Culfa r-nunda kənd adı. Naxçıvan əyalətinin Əlincə nahiyəsində kənd adı.[10]

[1] İrəvan əyalətinin icmal dəftəri, s. 73.
[2] Yenə orada, s. 167.
[3] *Аристов Н.А.* Заметки об этническом составе тюркско-татарских племен и народностей. СПб., 1897, с. 140.
[4] *Лерх П.* Исследование об иранских курдах и их предках северных халдеях. Спб., 1832, с. 75.
[5] Naxçıvan sancağının müfəssəl dəftəri, s. 324.
[6] *Мурзаев Э.М.* Словарь народных географических терминов, с. 268.
[7] Azərbaycan SSR-in izahlı coğrafi adlar lüğəti, s. 131.
[8] Yenə orada.
[9] *Миллер Б.В.* Персидско-русский словарь, с. 40.
[10] İrəvan əyalətinin icmal dəftəri, s. 139.

**KİÇİK TUNBUL** - Naxçıvan əyalətinin Qışlağat nahiyəsində kənd adı.[1] Tunbul (bəzi mənbələrdə Tumbul) Dünbili türk tayfasının adındandır.

**KİÇİKOBA KƏNDİ** – Şahbuz r-nunda kənd adı.
**KƏNDULTƏPƏ** - Ordubad r-nunda Çənənəb kəndinin şimal-qərbində təbii mərz adı.
**KÖRPƏQOÇ** - Ordubad r-nunda Nəsirvaz kəndinin cənub-qərbində təbii mərz adı.
**KÖÇƏRİ** - Naxçıvan əyalətinin Azadciran nahiyəsində kənd adı.[2] Maldar elatın məskunlaşması nəticəsində yaranmışdır. Azərbaycan dilində köçəri (tərəkəmə) sözündəndir.
**KOLANI** - Şahbuz r-nunda kənd adı. Mənbədə Naxçıvan əyalətinin Qışlağat nahiyəsində kənd kimi qeyd olunmuşdur.[3] Kolanı adlı kəndlər Sabirabad, Salyan, Qobustan və Dəvəçi rayonlarında, Ermənistanda da vardır. Mənşəcə kürd mənşəli Kolanı tayfasının adını əks etdirir. Kolanı əsasən Qarabağın yerli və qədim tayfalarındandır.[4] Mirzə Adıgözəlbəy Qarabağda Uşacıq kəndindən Göycə mahalının sərhədinə qədər uzanan Tərtər çayı sahillərini kolanıların məskəni adlandırır.[5] Mirbəşir r-nun Dəmirçilər kəndi yaxınlığında "Kolanı yataqları" adlı yerin olması da bunu təsdiqləyir. Maldar həyat keçirən kolanıların oturaq həyata keçməsi nəticəsində yaranmışdır.
**KOLANI KAHASI** - Şahbuz r-nunun Aşağı Qışlaq kəndi yaxınlığında yer adı.
**KOLANISU** - Culfa r-nunda Bəyəhmədsu çayının sol qolunun adı.
**KOTANAVAR** - Babək r-nunda kənd adı. Türk dillərində kutan – "tövlə", "gecələr heyvan salınan bina", "qışlaqda qoyunun saxlanması üçün münasib yer"[6] və var – "yer", "maldar elin qışlaqda istifadə etdiyi ərazi" sözlərindəndir.
**KOTAM** – Ordubad şəhər inzibati ərazi vahidi tərkibində kənd adı.
**KOSACAN** - Naxçıvan əyalətinin Şərur nahiyəsində kənd adı.[7] Digər adı "Badili" (yenə orada), Kosacan və Zəngilan r-nundakı Kusakan kəndlərinin adları orta əsrlərdə əhalinin hərəkəti ilə Anadolu yarımadasından (Trabzon əyalətində) Kusakan mahal adının gətirilməsi nəticəsində yaranmışdır. Kusakan şəhərindən bəhs edən səyyah Klavixo yazır ki, onu tatarlar dağıtmışlar.[1'] Ehtimal ki, məhz bundan sonra əhalinin bir qismi Naxçıvana köçmüşdür.
**KUHDAM** - Naxçıvan əyalətinin Azadciran nahiyəsində kənd adı.[2'] Fars dilində kuh – "dağ" və Azərbaycan dilində dam – "mal-qaranın qışda saxlandığı tavan, bina" sözlərindən ibarətdir.
**KUHİ-PÜRƏN** - Naxçıvan əyalətinin Naxçıvan nahiyəsində kənd adı.[3'] Fars dilində kuh "dağ" və mənası məlum olmayan "pürən" adındandır.
**KÜKÜ** - Şahbuz r-nunda kənd adı.[4'] Əsli – Kiki XIII əsrə aid mənbədə Türkiyənin şərqində Van gölündən şimalda Kiqi mahalından əhalinin gətirdiyi addır.
**KÜKÜ DAĞI** - Kükü kəndinin şimal-qərbində dağ (3120 m).
**KÜKÜÇAY** - Şahbuz r-nunda çay adı (uz. 20 km). Naxçıvan çayının sağ qoludur.
**KÜLTƏPƏ QARXIN** - İrəvan əyalətinin Şərur nahiyəsində kənd adı.[5'] Kültəpə kəndinin yaxınlığındakı Qarxın kəndi mənasındadır. Kültəpə qədim yaşayış yerinin adıdır.
**KÜLTƏPƏ** - Babək r-nunda kənd adı.
**KÜLÜB** - Naxçıvan əyalətinin Azadciran nahiyəsində kənd adı.[6']
**KÜLÜS** - Şahbuz r-nunda kənd adı. Naxçıvan əyalətinin Dərə Şahbuz nahiyəsində kənd kimi qeyd olunmuşdur.[7'] XIX əsrə aid məlumata görə Kəngərlərin Saleykə tayfasının yaşadığı kəndlərdəndir.[8']
**KÜLÜTDAĞ** - Şahbuz r-nunda dağ adı.
**KÜRÇÜLÜ** - Şərur r-nunda kənd adı.
**KÜRKÜZAR** - Babək r-nunda, Nehrəm kəndinin cənub-qərbində dağ adı. Türk dillərində kırka – "şaxələnmiş dağ beli", "bərk süxur-

---

[1] İrəvan əyalətinin icmal dəftəri, s. 145.
[2] Yenə orada, s. 147.
[3] Yenə orada, s. 145.
[4] *Mirzə Adıgözəlbəy.* Qarabağ tarıxi.
[5] *Mirzə Camal Cavanşir.* Qarabağ tarixi.
[6] *Budaqov L.Z.* Göst. lüğəti, II. c. s. 270.
[7] İrəvan əyalətinin icmal dəftəri, s. 168.



---

[1'] Путешественники об Азербайджане, т. I. с. 52.
[2'] İrəvan əyalətinin icmal dəftəri, s. 179.
[3'] Yenə orada, s. 165.
[4'] Yenə orada, s. 141.
[5'] Yenə orada, s. 73.
[6'] Yenə orada, s. 179.
[7'] Yenə orada, s. 73.
[8'] Статистическое описание Нахичеванской провинции, с. 32.

lardan ibarət dağ qarıncı"[1] və fars dilində zar – "yer" (gülzar, laləzar, çəmənzar və s. sözlərdə olduğu kimi) sözlərindən ibarətdir.

**KÜRƏDİZ** - Naxçıvan əyalətinin Məvaziyi-xatun nahiyəsində kənd adı.[2] Türk dillərində kora – "qışlaqda mal-qara üçün tövlələr"[3] və düz (düzən yer) sözlərindən ibarətdir. Toponim Düzən yerdə kora (maldar elin qışda mal-qara salmaq üçün tövlələri) mənasındadır. Füzuli r-nunda Qoradiz "Horadiz" toponimi ilə eynidir.

**KÜRƏKÜS YER** - Naxçıvan əyalətinin Əlincə nahiyəsində kənd adı.[4] Türk dillərində kora – "qışlaqda mal-qara üçün tövlələr", küz – "payız otlağı"[5] və yer sözlərindən ibarətdir.

**KÜRÇÜLÜ** - Şərur r-nunda kənd adı. Qurd etnonimi və qədim türk mənşəli çullu etnonimindən ibarətdir. XIX əsrdə qurd Kəngərlərin tayfalarından birinin adı idi.[6] Adın ikinci hissəsi isə qədim türk mənşəli çul tayfasının adını əks etdirir.[7]

**QABAQYAL** - Şərur r-nunda Mahmudkənd kəndinin şimal-şərqində dağ adı. Qabaq-mövqe (ön yal) bildirir.

**QABAQLIÇAY** - Şərur r-nunda Arpaçayın sol qolunun adı. Həm də Axuraçay adlanır.

**QABAQLISU** - Culfa r-nunda çay adı.

**QABAQTƏPƏ** - Şahbuz r-nunda, Qızıl Qışlaq kəndinin cənub-şərqində dağ adı.

**QABAQDAĞ** - Şərur r-nunda Danzik kəndinin qərbində dağ adı (hünd. 1718 m).

**QABILLI** - Kəngərli r-nunda kənd adı. Qabullu tayfasının adı ilə adlanmışdır.

**QARABÜRC** – Şərur r-nunda kənd adı.

**QARĞALIQ** – Naxçıvan şəhər inzibati ərazi vahidi.

**QAVAXLIDAĞ** - Culfa r-nunda dağ adı. Ehtimal ki, dağ orada bitən qovaq ağacının adı ilə əlaqədar belə adlanmışdır.

**QAVAXSU** - Culfa r-nunda çay adı.

---

[1] *Radlov V.V.* Göstərilən əsəri, II, I, s. 747.
[2] İrəvan əyalətinin icmal dəftəri, s. 143.
[3] *Radlov V.V.* Göstərilən lüğəti, II, I, s. 551.
[4] İrəvan əyalətinin icmal dəftəri, s. 139.
[5] *Radlov V.V.* Göstərilən lüğəti, II c, I h., s. 551.
[6] *Şopen İ.* Göstərilən əsəri.
[7] *Гейбуллаев Г.А.* К этногенезу азербайджанцев, т. I. Баку, 1991.



**QAZANYAYLA** - Babək r-nunda Yuxarı Buzqov kəndinin şimal-şərqində yayla adı. Yayla Qazan xanın ("Kitabi-Dədə Qorqud") adı ilə adlanmışdır. Bulağın adındakı "qazan" (çökək) sözü bulağın qazan (qab) formalı olduğunu da bildirə bilər.

**QAZANGÖLDAĞ** - Ordubad r-nunda Nəsirvaz kəndinin şimal-şərqində dağ adı. Zəngəzur silsiləsinin suayrıcındadır (3814 m). Dağ Qazan xanın adı ilə adlanmışdır.

**QAZANÇI** - Culfa r-nunda kənd adı.[1] İrəvan xanlığının Vedibasar mahalında Qazançı kənd adı[2] ilə mənşəcə eynidir. Qədim türk mənşəli bulqarların Kazan tayfasının[3] məskunlaşması nəticəsində yaranmışdır.

**QAZANÇI** - Culfa r-nunda Əlincə çayının "Daşarası" adlı dar dərəsində bir neçə bulaq adı.

**QAZANÇILAR** - İrəvan əyalətini Karbi nahiyəsində (indi Naxçıvan MR-in Şərur r-nunda) kənd adı.[4] İndiki adı Yengicədir. Bax: Yengicə.

**QAZİYİ-CAHAN** - Naxçıvan şəhəri məhəllələrindən birinin adı.[5] Mənbədə məhəllənin həm də Xacə Mirixli adlandığı qeyl olunmuşdur (yenə orada).

**QAZIXAN** - İrəvan əyalətinin Karbi nahiyəsində (indi Naxçıvan MR Şərur r-nunda) kənd adı. Qazıxan şəxs adıdır.

**QAİBQULU QARXIN QIŞLAĞI** - İrəvan əyalətinin Şərur nahiyəsində kənd adı.[6] Qarxın Naxçıvan MR ərazisində qədim türk mənşəli Qarxın tayfasının adını əks etdirən bir neçə kəndin adıdır. Bax: "Aşağı Qarxın". Bu kəndlər mülkədarlara mənsub mülklər və əhalisi orta əsrlərdə maldarlıqla məşğul olduğuna görə mülkədarların adı ilə adlanırdı. Kəndin adı Qaibqulu adlı şəxsə (mülkədara) mənsub "qarxınların qışlaq yeri" mənasındadır. Bax: həm də Qaxıcan Qarxın qışlağı.

**QALA** - Ordubad r-nunda Biləv kəndinin qərbində dağ adı.

**QALA** - Naxçıvan şəhərinin məhəllələrindən birinin adı.[7] Şəhərin qədim qala hissəsinin adını əks etdirir.

---

[1] İrəvan əyalətinin icmal dəftəri. s.139.
[2] *Şopen İ.* Göstərilən əsəri.
[3] *Гейбуллаев Г.А.* Словарь географических терминов Азербайджана. Известия АН Азерб ССР, серия истории, философии и права, 1973, №2, с. 121-122
[4] İrəvan əyalətinin icmal dəftəri, s. 37
[5] Yenə orada, s. 37.
[6] Yenə orada, s. 139.
[7] Yenə orada, s.19.

**QALACIQ** - Naxçıvan qəzasının Şərur nahiyəsində kənd adı.[1]
**QALACIQ** - Ordubad r-nun Nəsirvaz kəndinin şərqində dağ adı.
**QALACIQ** - Şərur r-nunda Qarabağlar kəndinin şimal-şərqində 30 hektarlıq qədim qala xarabalığının adı.
**QALACIQ** - *Naxçıvan əyalətinin Qışlağat nahiyəsində kənd adı.*[2]
**QAMIRQALA** - Ordubad r-nunda Çənənəb kəndinin cənub-qərbində təbii mərz adı.
**QAMIRQALA** - Ordubad r-nunda Çənənəb kəndinin cənub-qərbində qala adı. Eradan əvvəl VIII əsrdə şimaldan Cənubi Qafqaza gəlmiş qədim türk mənşəli Qamar (Qəmər, Kəmər) tayfasının[3] adını əks etdirir.
**QANDAQ** - Şərur r-nunda dağ adı. Ehtimal ki, Səlcuq oğuzlarının Qandal (xandal) tayfasının adını əks etdirir.
**QANLIQUZEY** - Babək r-nunda Sirab kəndinin şərqində dağ adı. Dağ oradakı quzey (şimal) yamac adı ilə adlanmışdır. Oronimdəki "qanlı" sözü yerində bədbəxt hadisənin baş verdiyini bildirir.
**QANLIGÖL** - Şahbuz r-nunda Zırnel kəndinin şimalında, Keçəldağın yamacında göl adı.
**QAPI DAŞQARA** - Şahbuz r-nunda dağ belinin adı. Dağın adı türk dillərində qapı – "keçid" və Daşqara ("qara rəngli qaya" mənasında) sözlərindən ibarətdir.
**QAPI QABAĞI** - Culfa r-nunda təbii mərz adı. Türk dillərində qapı – "keçid" və "qabağı" sözlərindən ibarətdir.
**QAPICIQ** - Ordubad r-nunda Nəsirvaz kəndinin şərqində, Zəngəzur silsiləsinin suayrıcında dağ adı. Digər adı Gəmiqaya (3906 m). Dağın adı qədim türk dillərində qapı "keçid", "aşırım" sözlərindən ibarətdir. Bax: Gəmiqaya.
**QARAAĞAC** - Naxçıvan əyalətinin Qışlağat nahiyəsində kənd adı.[4] Kənd oradakı qarağac ağacının adı ilə adlanmışdır. "Kəndin əhalisi Salman camaatındandır".[5]
**QARABABA** - Şahbuz r-nunda kənd adı. Kənddə toplanmış şifahi məlumata görə kəndin hakimi Hümmət bəyin atası əvvəlcə Qarabağda yaşamış, sonra xanla mübahisə etmiş və ona görə də rəiyyəti

---

[1] İrəvan əyalətinin icmal dəftəri, s. 186.
[2] Naxçıvan sancağının müfəssəl dəftəri, s. 30.
[3] *Qeyhullayev Q.* Azərbaycan türklərinin təşəkkülü tarixindən. Bakı, 1994.
[4] İrəvan əyalətinin icmal dəftəri, s. 145.
[5] Naxçıvan sancağının müfəssəl dəftəri, s. 165.



ilə buraya köçərək "Qarababa" adlı yerdə kəndin əsasını qoymuşdur. Bu toponim Zəngilan r-nunda da vardır.
**QARABAĞLAR** - Kəngərli r-nunda kənd adı. Orta əsrlərdə adı Qarabağ. Bu kəndin adı ilə Naxçıvan əyalətinin bir nahiyəsi Qarabağ adlanırdı.[1] Orta əsrlərdə iri yaşayış məntəqəsi idi. Azərbaycanın Qarabağ bölgəsinin adı ilə mənşəcə eynidir. Qarabağ adının guya "şimal-qərb bağı",[2] "sıx, qalın, çoxlu bağ"[3] və b. mənalarda olması fikirləri inandırıcı deyil. Ona görə ki, Qarabağ qədim türk mənşəli peçeneqlərin Qarabağ tayfasının adını əks etdirir. X əsr müəllifi Konstantin Baqryanorod Cənub-şərqi Avropa çöllərində yaşayan peçeneqlərin bir tayfasının Qarabay adlandığını yazmışdır.[4] Türkoloqlar müəyyən etmişlər ki, qədim peçeneqlərin dilindəki "y" səsi başqa türk dillərində "q" səsini əvəz edirdi.[5] Ona görə də Qarabay etnonimi "Qarabağ" kimi oxunmalıdır.

Yuxarıda "Biçənək" toponimi ilə əlaqədar peçeneqlərin və Kəngərlərin Azərbaycan ərazisinə gəlib məskunlaşması məsələsi nəzərdən keçirildikdə qeyd edildi ki, peçeneqlər buraya iki vaxtda gəlmişlər: birinci, eranın əvvəllərində, ikinci XII-XIII əsrlərdə. Qarabağ tayfasının məhz hansı vaxtda gəldiyi hələlik aydınlaşdırılmamışdır.

Göyçay və Xanlar r-nlarında iki kəndin Qarabağlar adlanması da Qarabağ sözünün tayfa adı olduğunu göstərir. Qarabağlar Naxçıvanda yaşayan Kəngərlərin bir tirəsinin adıdır.[6] Gəncə qəzasında maldar həyat keçirən bir el Qarabağlar adlanırdı.[7]
**QARABAĞLIÇAY** - Şərur r-nunda Axura kəndinin cənubundan axan çay adı. Kəngərlərin Qarabağ tayfasına mənsub ailələrin adı ilə bağlıdır. Bax: Qarabağlar.

---

[1] İrəvan əyalətinin icmal dəftəri, s. 144.
[2] *Cəmşidov Ş.* "Kitabi - Dədə Qorqud" qəhrəmanlarının mərkəzi yaşayış yerləri haqqında. Respublika Əlyazmaları Fondunun Əsərləri. Bakı, 1972, s. 63.
[3] *Юзбашов Р.* О некоторых чертах топонимики Азербайджана. Известия АН Азербайджанской ССР. Серия наука о Земле, 1968. № 3, № 1, с. 135.
[4] *Баскаков А.Н* Введение в изучение тюркских языков. М., 1969. с 237.
[5] Статистическое описание Нахичеванской провинции, с. 32.
[6] *Абелов Н.А.* Экономический быт гос. крестьян Елизаветпольского уезда Елизаветпольской губернии, с. 11
[7] İrəvan əyalətinin icmal dəftəri, s. 141.

**QARABAŞ** - Şahbuz r-nunda dağ adı. Bu dağın adı haqqında fikrə görə ondakı qara sözü "yaman", "pis", "çətin"[1] mənasındadır və bütünlükdə Qarabaş "çətin, əlçatmaz zirvə" deməkdir.[2]

**QARABAŞ** - Babək r-nunda Xalxal kəndinin şimal-şərqində dağ adı.

**QARABOYALIQ** - Naxçıvan əyalətinin Dərə-Şahbuz nahiyəsində kənd adı.[3] Qaraboyalaq və Qaraboya da adlandırılmışdır.

**QARABULAQ** - İrəvan əyalətinin Şərur nahiyəsində kənd adı.[4] Kənd "qarabulaq"ın adı ilə adlanmışdır. Qarabulaq yeraltı sulardan qidalanan, içməyə az yararlı su ilə bağlıdır.

**QARABULAQ** - Şərur r-nunda Dəmirçi kəndinin şimal-şərqində bulaq adı. Mənbələrdə Naxçıvan əyalətinin Qarabağ nahiyəsində kənd kimi qeyd olunmuşdur.[5]

**QARABURUN** - Sədərək r-nunda Sədərək kəndinin şimal-qərbində dağ adı. Dağ qara rəngli süxurlu burun (çıxıntı) hissəsinin adı ilə adlanmışdır.

**QARABURC** - Naxçıvan əyalətinin Şərur nahiyəsində kənd adı.[6] Kənd oradakı "Qaraburc" qalasının adı ilə adlanmışdır.

**QARAQAYA** - Şərur r-nunda Gümüşlü kəndinin şimal-şərqində dağ adı. Oronim qara rəngli qaya mənasındadır.

**QARAQAYA** - Babək r-nunda Sirab kəndinin şimal-şərqində dağ adı. Qaya böyüklüyünə görə belə adlandırılmışdır.

**QARAQUŞ** - Naxçıvan əyalətinin Mülki-Arslan nahiyəsində kənd adı.[7] Kənd Qaraquş dağının adı ilə adlanmışdır.

**QARAQUŞ** - Şərur r-nunda Tənənəm kəndinin şərqində dağ adı (2600 m). Dağın adı oradakı qayalarda qaraquş adlı quşun bolluğu ilə əlaqədardır.

**QARADAĞ** - Culfa r-nun Göynük kəndinin şimalında dağ adı.

**QARADAŞ** - Babək r-nunda Güznüt kəndinin şərqində təbii mərz adı.

**QARADAŞ** - Şərur r-nunda Dəmirçi kəndinin şimalında dağ adı. Dağ oradakı qara rəngli daşın (qayanın) adı ilə adlanmışdır. Ona görə də dağ həm də Qaraqaya adlanır.

---

[1] Древнетюркский словарь, с. 423.

[2] *Babayev A.M.* Naxçıvan MR-in toponimiyasında "qara" komponenti. "Azərbaycan onomastikası problemləri". M., Bakı, 1987, s. 138.

[3] İrəvan əyalətinin icmal dəftəri, s. 141.

[4] Yenə orada, s. 73.

[5] Yenə orada, s. 144.

[6] Yenə orada, s.168

[7] Yenə orada, s. 142.



**QARADƏRƏ** - Culfa r-nunda Kərimqulu Dizə kəndi ərazisində çay adı.

**QARADOLAQ** - İrəvan əyalətinin Sədərək nahiyəsində kənd adı.[1] Kəngərlərin Qaradolaq tayfasının adını əks etdirir.

**QARAYOXUŞ** - Culfa r-nunda Culfa şəhərinin şimalında dağ suayrıcının adı. Ordubad r-nunda dağ boyunca uzanan bir yol da "Qarayoxuş" adlanır. Bu oronim "hündür, dik yoxuş" mənasındadır.[2]

**QARAKƏMƏR** - Ordubad r-nunda Gilançay qəsəbəsinin şimalında dağ adı.

**QARAMABULAQ** - Şahbuz r-nunda Keçili kəndinin şimal-şərqində təbii mərz adı.

**QARANQUŞ** - Ordubad r-nunda Nəsirvaz kəndinin cənub-şərqində Qapıcıq silsiləsində dağ adı (hünd. 3188 m.)

**QARAÖRƏNƏ** - Culfa şəhərinin şimalında dağ adı. Dağın adı qara (rəng bildirir) və örənə (viranə) -"xarabalıq" sözlərindən ibarətdir.

**QARAPAÇABURUN** - Culfa r-nunda dağ adı.

**QARAPİR** - Ordubad r-nunda Nəsirvaz kəndinin cənubunda dağ adı. Dağ oradakı "Qarapir" pirinin adı ilə adlanmışdır.

**QARASU** - Şərur r-nunda çay adı.

**QARASU QALASI** - Naxçıvanda Gümüşlü kəndindən şimalda təpə üzərində qədim qala xarabalığının adı. Qala oradakı "Qarasu" bulağının adı ilə adlanmışdır.

**QARASU DƏRƏNLİ** - İrəvan əyalətinin Sədərək nahiyəsində kənd adı.[3]

**QARATƏPƏ** - Şərur r-nunda dağ adı.

**QARATƏPƏ** - İrəvan əyalətinin Sədərək nahiyəsində kənd adı.[4]

**QARAULTƏPƏ** - Babək r-nunda Əliabad kəndinin şimal-qərbində (Duzdağ tirəsində) dağ adı.

**QARAULGƏDİK** - Ordubad r-nunda Üstüpü kəndinin cənubunda dağ adı.

**QARAULTƏPƏ** - Şərur r-nunda Tənənəm kəndinin cənub-şərqində dağ adı. Dağın adı "Gözətçi təpəsi" mənasındadır.

**QARAULXANA** - Şərur r-nunda Yuxarı Yaycı kəndinin şimal-şərqində dağ adı.

**QARAULXANA** - Ordubad r-nunda Biləv kəndinin qərbində dağ adı.

---

[1] Naxçıvan sancağının müfəssəl dəftəri, s. 325.

[2] *Babayev A.M.* Naxçıvan MR-in toponimiyasında «qara» komponenti. "Azərbaycan onomastikası problemləri", s. 138.

[3] Yenə orada, s. 73.

[4] İrəvan əyalətinin icmal dəftəri, s. 144.

**QARAHASARLI** - Naxçıvan əyalətinin Şərur nahiyəsində kənd adı.[1] Kəndin ərazisində yerli əhali içərisində "hasar" adlandırılan tsiklonik tikinti (qalaça) vardır.

**QARAHƏSƏNLİ** - Şərur r-nunda kənd adı. Naxçıvanda yaşamış Qarahəsənli tayfasının adını əks etdirir.

**QARAXANBƏYLİ** - Babək r-nunda kənd adı.[2] Kəngərlərin Qaraxanbəyli tayfasının adını əks etdirir. Bu tayfa Qacarlı, Məhəmmədli, Eynəddinli, Məşədi Əhmədli və Qaradağlı tirələrindən ibarət idi. Füzuli r-nunda Qaraxanbəyli kəndi ilə mənşəcə eynidir.

**QARA XORZATLI** - İrəvan əyalətinin Şərur nahiyəsində kənd adı.[3]

**QARAÇALA** - Babək r-nunda Nəzərabad kəndinin cənub-şərqində dağ adı. Oronim yeraltı suların (qara suların) mövcud olduğu çala (çökək yer) mənasındadır.

**QARAÇATAL** - Babək r-nunda Sirab kəndinin şərqində təbii mərz adı.

**QARAÇUĞ** - Babək r-nunda kənd adı. Mənbədə Qaraçuq kimidir.[4] Ehtimal ki, qədim türk tayfalarının Orta Asiyadan gətirdikləri qədim adlardandır. İlk dəfə "Kitabi-Dədə Qorqud" eposunda (II boy) çəkilir. Dağlıq Qarabağda (Xocavənd r-nu ərazisində) də Qaraçuq adlı dağ (hünd. 632 m) vardır. A.M.Babayevin bu oronimi "Qalın çubuqluq" kimi mənalandırması (müəllif "qara" sözünün "qalın" mənasında olduğunu güman edir) fikri inandırıcı deyildir.[5] Ehtimal ki, Qaraçuq türk tayfalarının miqrasiyası ilə Orta Asiyadan gətirilmiş etnonimdir.

**QARAÇİMƏN** - Culfa r-nunda Ərəzin kəndinin qərbində təbii mərz adı. Əsli Qaraçəmən.

**QARAÇOBAN** - Şərur r-nunda Dəmirçi kəndinin şimal-qərbində maili düzənlikdir.

**QARAÇI** - Şərur r-nunda qədimdə mövcud olmuş kənd adı.[6] Köçəri xalqın adını əks etdirir.

**QARACAKƏND** - Naxçıvan əyalətinin Qışlağat nahiyəsində kənd adı.[7] Dərələyəz mahalında yaşamış Qaracalar tayfasının[8] adını əks etdirir.

---

[1] İrəvan əyalətinin icmal dəftəri, s. 168.
[2] Naxçıvan sancağının müfəssəl dəftəri, s. 49.
[3] İrəvan əyalətinin icmal dəftəri, s. 144.
[4] Naxçıvan sancağının müfəssəl dəftəri, s. 29.
[5] *Babayev A.M.* Naxçıvan MR-in toponimiyasında «qara» komponenti, II, Bakı, 1987, s. 139.
[6] *Будагов Л.З.* Словарь тюркско-татарских наречий, т. II. с. 45.
[7] İrəvan əyalətinin icmal dəftəri, s. 145.
[8] *Şopen İ.* Göstərilən əsəri.



**QARINQULAQ** - Ordubad r-nunda Nəsirvaz kəndinin cənubunda yer adı. Türk dillərində kulak – "dərə", "çökəklik", "çuxur"[1] və qarın (qarın formalı landşaft) sözlərindən ibarətdir. Qarın formalı dağda, təpəlikdə dərə mənasındadır. Nehrəm kəndi ilə (Babək r-nu) Əlincəkənd arasında yüksəklik adı. Şərqi Türkiyənin Qarğabazar mahalından gətirilmiş addır. Türk dillərində karqa-vulkan mənşəli daş yığını, "üst-üstə düşmüş buzlaq mənşəli daş (qaya) parçaları"[2] (çınqılı) və nəyinsə bolluğunu bildirən bazar sözlərindən ibarətdir.

**QARQULUQ** - Naxçıvan şəhərində dəmiryol stansiyası əsasında yaranmış qəsəbə adı. Qarqalıqın təhrif olunmuş formasıdır. Masallı və Xaçmaz r-nlarında Qarqalıq kənd adları ilə mənaca eynidir. Erkən orta əsrlərdə Şərqi Türküstanda Taraz şəhəri yaxınlığında Qarqalıq qalası vardı.[3] Ehtimal ki, türk tayfalarının hərəkəti ilə Orta Asiyadan gətirilmə addır. Orta Asiyadakı Qarqalıq isə qədim türk mənşəli Karqa tayfasının[4] adını əks etdirir.

**QARXUN** - Şərur r-nunda kənd adı. Mənbədə Yuxarı Qarxın və Aşağı Qarxın kəndlərinin adları qeyd olunmuşdur (bax: Aşağı Qarxın). Monqolların tərkibində XIII əsrdə gəlmiş qədim türk mənşəli Karkın tayfasının adını əks etdirir.

**QARXUN** - İrəvan əyalətinin Şərur nahiyəsində kənd adı.[5] Digər adı Quşxanadır (yenə orada). XIII-XIV əsrlərdə monqol işğallarında iştirak etmiş oğuz-türk mənşəli Karkın tayfasının[6] adını əks etdirir. Quba r-nunda Qarxun, Yevlax r-nunda Aşağı Qarxın və Yuxarı Qarxın, Dağıstanda və Ermənistanda Karxın kənd adları ilə mənşəcə eynidir.

**QAÇDAŞ** - İrəvan əyalətinin Dərə-Şahbuz nahiyəsində yaylaq adı.[7] Qaç türk sözündən olub «neçə», «çox» mənasındadır.

**QAXICAN QARXIN QIŞLAQ** - İrəvan əyalətinin Şərur nahiyəsində kənd adı.[8] Qarxın kəndindən Qaxican adlı mülkədara mənsub ailələrin qışlağı mənasındadır.

---

[1] *Murzayev E.M* Göstərilən əsəri, s. 260, 310-311.
[2] Yenə orada, s. 260.
[3] *Mahmud Qaşqari*, I, s. 527.
[4] *Гейбуллаев Г.А.* Топонимия Азербайджана, Баку, 1986.
[5] İrəvan əyalətinin icmal dəftəri, s. 72.
[6] *Рашид ад-Дин.* Сборник летописей. т. I, кн. I, М-Л., 1952, с 83-85.
[7] İrəvan əyalətinin icmal dəftəri, s. 168.
[8] Yenə orada, s. 73.

**QIRXLARDAĞ** - Ordubad r-nunda dağ adı. Dağ oradakı "Qırxlar" pirinin adı ilə adlanmışdır.

**QAHAB** - Babək r-nunda kənd adı.[1] Kəndin adı farsca qah – "düzən", "çay yatağı" və ab – "su" sözlərindən ibarətdir.

**QAHAB** - Naxçıvançayın sol qolunun (uz. 21 km) adı. Qahab – düzəndən axan çay mənasındadır.

**QƏLEYLİ** - Şahbuz r-nunda dağ adı. "Qalalı", "Qala olan" (dağ) mənasındadır.

**QƏLEYLİ** - Şahbuz r-nunda Batabat mineral bulaqları. Qəleyli dağının adı ilə adlanmışdır.

**QIŞLAQABBAS** – Şərur r-nunda kənd.

**QIVRAQ** - Kəngərli r-nunda qəsəbə adı. Gəncə quberniyasının Zəngəzur qəzasında (indi Ermənistanın Sisyan r-nunda) da bir kənd Qıvraq adlanırdı. Qıvraq yığcam, balacaboy, kiçik mənasındadır.

**QIZ QALASI** - Şərur r-nunda Havuş kəndinin şərq tərəfində qala adı. Xalq arasında "Qız evi" də adlanır. Orta əsrlərə aid qaladır.

**QIZ QALASI** - Şərur r-nunda Aşağı Yaycı kəndinin cənub-qərbində Uzunqaya dağ silsiləsinin Arpaçaya endiyi yerdə qala adı.

**QIZGƏLİN ÇUXURU** - Ordubad r-nunda Qapıcıq (Gomiqaya) dağının yamacında alp çəmənliyinin adı.

**QIZILBOĞAZ** - Babək r-nunda dağ adı. Vayxır dəryaçası tikildiyi ən dar (təngi) yer.

**QIZILBURUN** - Naxçıvan şəhərinin cənubunda (18 km-liyində), Araz çayının sol sahilində dağ burnunun adı.

**QIZILVƏNG** - Babək r-nunda Təzəkənd kəndinin cənubunda, qədim Alban kilsə xarabalığının adı. Qırmızı daşdan tikildiyinə görə belə adlanmışdır. XIX əsrdə Cənubi Qafqazda 6 Qızılvəng vardı.[2]

**QIZILVƏNG** - Babək r-nunda Bakıdan 527 km-likdə dəmiryol stansiyası əsasında yaranmış qəsəbə adı. Stansiya yaxınlığındakı "Qızılvəng" Alban kilsəsinin adı ilə adlanmışdır.

**QIZILQAYA** - Şərur r-nunda Danzik kəndinin şimalında qaya adı.

**QIZILQAYA** - Culfa r-nunda Yaycı kəndinin şimal-qərbində dağ adı.

**QIZILQAYA** - Culfa r-nunda Camaldin kəndinin cənub-qərbində dağ suayrıcının adı.

**QIZIL QIŞLAQ** - Şahbuz r-nunda kənd adı (bu kənd keçmişdə Aşağı Remeşin adlanırdı).

---

[1] Naxçıvan sancağının müfəssəl dəftəri, s. 27.

[2] *Paqiryev D.D.* Göstərilən əsəri, s. 131.



**QIZIL QIŞLAQ** - Şahbuz r-nunda kənd adı. Güney Qışlaq kəndindən çıxmış ailələrin məskunlaşmasından yaranmışdır. Qızıl Qışlaq kəndinin xarabalıqları bu gun də qalmaqdadır.

**QIZILQAYA** - Şərur r-nunda Şərqi Arpa çayından sağ tərəfdə dağ (hünd. 1682 m) adı. Vulkan mənşəli olduğuna görə "Qırmızı süxurlu qaya" mənasındadır. Quba, Şəki və Laçın r-nlarında Qızılqaya dağ adları ilə mənaca eynidir.

**QIZILDAĞ** - Şahbuz r-nunda Tırkeş kəndinin cənub-qərbində dağ adı. "Qırmızı rəngli süxurlu dağ" deməkdir.

**QIZILYURD** – Şahbuz r-nunda Kömür kəndinin şərqində təbii mərz adı.

**QIZILCA** - Culfa r-nda kənd adı.

**QIZILCA** - Naxçıvan əyalətinin Qışlağat nahiyəsində qışlaq adı.[1] Vulkan mənşəli olduğuna görə qırmızı süxurlu ərazini bildirir.

**QİYASLI** - Naxçıvan əyalətində Qışlağat nahiyəsində kənd adı.[2] Kəndin əsasını qoymuş nəsil adıdır.

**QIRDAŞ** - Naxçıvan əyalətinin Qarabağ nahiyəsində kənd adı.[3]

**QIRXLARDAĞ** - Culfa r-nunda Qazançı kəndinin cənub-qərbində dağ (hünd. 1733 m) adı. Oradakı "Qırxlar" pirinin adındandır.

**QILINCYURD** - Culfa r-nunda dağ adı. Qədim türk mənşəli Kilic tayfasının adını əks etdirir.

**QIŞLAQABBAS** - Şərur r-nunda kənd adı. Azərbaycanın bir sıra yaşayış məntəqələri qışlaqlar əsasında yaranmışdır. Qışlaq maldar elin təkcə mal-qarasının qışda saxlandığı yer, həm də maldar elin yaylaqdan dönərək gələn, yaylaq vaxtına qədər yaşadığı yer idi. Qışlaq iki cür idi: sığırxana və yataq. Sığırxanada iribuynuzlu mal-qara, yataqda qoyun-quzu saxlanılırdı. Bir qayda olaraq, yataq evlərdən bir qədər aralıda, sığırxana isə ailələrin yaşadıqları evlərin yaxınlığında yerləşirdi. Ona görə ki, sağmal heyvan səhər-axşam sağılmalı idi. Sığırxana, bir qayda olaraq, gündüşən yerdə salınırdı.[4] Qışlaq, ya yerli coğrafi mövqeyini, landşaftını əks etdirən coğrafi terminlə, ya da şəxs adı ilə adlanırdı. Kəndin adı "Abbasa məxsus qışlaq" mənasındadır.

**QOÇÖLƏN** - Şərur r-nunda Tənənəm kəndin şimal-şərqində dağ adı.

---

[1] İrəvan əyalətinin icmal dəftəri, s. 145.

[2] Naxçıvan sancağının müfəssəl dəftəri, s. 30.

[3] Yenə orada, s. 29.

[4] *Абелов Н.А.* Экономический быт гос. крестян Елизаветпольского уезда Елизаветпольской губернии; Экономический быт государственных крестян Закавказского края, Тифлис, 1886, том IV, с. 70.

**QOVALI** - Naxçıvan sancağının Sədərək nahiyəsində kənd adı.
**QOYLUCA** - Naxçıvan əyalətinin Əlincə nahiyəsində kənd adı.[1]
**QOYUNLU** - Naxçıvan əyalətinin Dərə-Şahbuz nahiyəsində məzrə (əkin yeri) adı. Digər adı "Suyu məzrəsi",[2] "Dağ məzrəsi" adlanır (yenə orada).
**QOYCALAR** - Ordubad r-nunun Biləv kəndinin cənub-qərbində dağ adı.
**QORUQLAR** - Ordubad r-nunda kənd adı. Monqolların tarixini yazmış Rəşid əd-din (XIV əsr) monqolların yürüşlərində karkın və Karıq oğuz tayfalarının iştirak etdiyini yazır.[3] Bu tayfaların birincisi Naxçıvan MR ərazisində Qarxın, ikincisi isə Qoruqlar (əsli Qarıqlar) kənd adlarında iz qoymuşdur. Məlumdur ki, XV-XVI əsrlərdə Qızılbaşların Zülqədər tayfasının bir qolu Koruqlu (Karıqlıdan fonetik forma) adlanırdı.[4]
**QORXAN** - Ordubad r-nunda Urmis kəndinin şimal-qərbində təbii mərz adı. Ehtimal ki, monqolların tərkibində XIII əsrdə gəlmiş türk mənşəli Qoriqan tayfasının[5] adını əks etdirir.
**QOTURDAĞ** - Şahbuz r-nunda Nurs kəndindən şimal-şərqdə dağ (hünd. 2046 m) adı. "Seyrək bitkili dağ" mənasındadır. Əli Bayramlı və Kəlbəcər r-nlarında Qoturdağ oronimləri ilə mənaca eynidir.
**QOCALIYURD** - Şahbuz r-nunda Kömür kəndinin şərqində təbii mərz adı. Qocalı tayfasının adını əks etdirir.
**QOŞADİZƏ** - Babək r-nunda kənd adı. Yanaşı Dizə (kənd) mənasındadır.
**QOŞADİZƏ** - Ordubad r-nunda kənd adı. Yanaşı Dizə (kənd) mənasındadır.
**QOŞUNDAŞ** - Ordubad r-nunda Bist kəndinin şərqində dağ adı. Monqol dilində qaşun – "şoran", "duzlaq"[6] və Azərbaycan dilində daş (qaya) sözlərindən ibarətdir.
**QUZEY** - Şahbuz r-nunda Nurs kəndindən şimalda təbii mərz adı.
**QUR** - Ordubad r-nunda Urmis kəndinin şimalında dağ adı.
**QURDTƏPƏSİ** - Ordubad r-nunda Yuxarı Əylis kəndinin şimal-qərbində təpə adı. Canavar (qurd) yaşayan təpə mənasındadır.

---

[1] İrəvan əyalətinin icmal dəftəri, s. 180.
[2] Yenə orada, s. 166.
[3] *Рашид ад-Дин.* Сборник летописей т. I, ч. I, М-Л., 1952, с 83-85.
[4] *Петрушевский И.П.* Очерк феодальных отношений в Армении и в Азербайджане в XVI-XIX вв. Л., 1949, с. 92-94.
[5] Рашид ад-Дин. Сборник летописей, т. I, ч. I., с. 83-85.
[6] *Murzayev E.M.* Göstərilən əsəri, s. 142.



**QURDDAĞ** - Babək r-nunda Sirab kəndinin şərqində dağ adı. Canavar (qurd) yaşayan dağ mənasındadır.
**QURD DƏRƏLƏRİ** - Culfa r-nunda təbii mərz adı.
**QURD KEÇİDİ** - Şərur r-nunda Vəlidağ ilə Dəhnədağ arasında gədik adı. Sədərək düzənliyi ilə Şərur düzənliyini birləşdirir. "Qurd (canavar) keçidi" mənasındadır.
**QURŞAQLI** - Culfa rayonunun Bənəçiyar kəndinin şimal-qərbində dağ. Onu qurşaqvari əhatə edən süxurla əlaqədar adlandırılmışdır.
**QUTANDAĞ** - Babək r-nunda Qahabkəndin şimalında kənd adı. Türk dillərində kutan – "yaylaqda gecələr qoyun salınan yer", "tövlə"[1] və dağ sözlərindən ibarətdir.
**QUŞDAŞ** - Ordubad r-nunda Bist kəndinin şərqində dağ adı. Quşların yuva saldıqları qaya mənasındadır.
**QUŞ QAYASI** - Babək r-nunda qaya adı. Quşların yuva saldıqları qaya mənasındadır.
**QUŞÇU** - Naxçıvan qəzasının Şərur nahiyəsində kənd adı.[2] Cənubi Qafqazda geniş yayılmış adlardandır. Qafqazda 25 Quşçu kənd vardı.[3] Quşçu qədim türk mənşəli tayfalardan birinin adıdır. M.H.Vəliyevə görə Quşçu adı ilə məlum kəndlərin əhalisi III-IV əsrlərdə Azərbaycana gəlmiş hunlardır.[4] Kuş qədim türkdilli xalqdır. Onlar eranın əvvəllərində Kuşan imperiyasını yaratmışdılar. Kuşçu isə Kuş etnonimindən və mənsubiyyət bildirən "çu" şəkilçisindən ibarətdir.[5]
**QUŞÇU** - İrəvan əyalətinin Karbi nahiyəsində (indi Naxçıvan MR-in Şərur r-nunda) kənd adı.[6] Quşçu türk tayfasının adındandır. Cənubi Qafqazda Quşi kimi qeyd olunmuşdur.[7]
**QUŞÇU TƏPƏSİ** - Naxçıvanda bir təpə adı.[8] Quşçu tayfasının adını əks etdirir. Quşçu tayfasının yaşadığı təpə mənasındadır.

---

[1] *Murzayev E.M.* Göstərilən əsəri, s. 323.
[2] İrəvan əyalətinin icmal dəftəri, s. 149.
[3] Кавказский календарь, 1914, с 149.
[4] *Велиев М.Г (Бахарлы).* Азербайджан страна этнографических сокровищ Кавказский календарь на 1925 г Баку, 1924. с. 393.
[5] Quşçu toponiminin mənşəyi barədə.bax: *А.Гусейнзаде.* К этимологии топонима Кушчу. "Советская тюркология", 1971, № 6.
[6] İrəvan əyalətinin icmal dəftəri, s. 38.
[7] Армянская география VII века, с. 41.
[8] Передняя Азия в документах. Нахичеванские рукописные документы, XVII-XIX вв. Тифлис, 1936, с. 135.

**LƏKƏTAĞ** - Culfa r-nunda kənd adı.[1]
**LƏKƏTAĞ** - Culfa r-nunda Bəyəhməd kəndinin şərqində dağ adı.
**LƏKƏTAĞ** - Culfa r-nunda mineral bulaq adı. Ləkətağ kəndinin adındandır.
**LİZBİRD** - Babək r-nunda kənd adı. Mənbədə Naxçıvan əyalətinin Mülki Aslan nahiyəsində Lizbird kəndi qeyd olunmuşdur.[2] Bu kənddə yaşayış yoxdur.
**LİVİS** - Naxçıvan əyalətinin Məvaziyi-Xatun nahiyəsində kənd adı.[3]
**MAĞARGƏDİK** - Şərur r-nun Künnüt kəndinin şərqində dağ adı.
**MAQSUDLU** - Naxçıvan qəzasının Şərur nahiyəsində kənd adı.[4]
**MAMATSAN** - Şərur r-nunda Danzik kəndinin şimal-qərbində xaraba kənd adı.
**MANARX** - Culfa r-nunda dağ adı.
**MƏRƏLİK** - Şahbuz r-nunda kənd adı.
**MAXTA** - Şərur r-nunda kənd adı.[5] Bəzi tədqiqatçılara görə bu toponimdə maq etnonimi əksini tapmışdır.[6] Bu fikri təsdiq edə biləcək faktlar vardır. V əsrdə yaşamış Moisey Xorenskinin yazdığına görə, er. əv. VI əsrin ortalarında Midiyadan Naxçıvan bölgəsinə 10 min nəfər midiyalı köçürülmüşdür.[7] Məlum olduğu kimi, Midiyanın 6 tayfasından biri (er. əv.V əsrdə yaşamış yunan tarixçisi Herodotun yazdığına görə) maq adlanırdı. Ehtimal ki, "Maxta" adının qədim forması "Maqtay" olmuşdur ki, bu da maq etnonimindən və türk dillərində tay – "yer" sözündən ibarətdir.
**MAHMUDKƏND** - Şərur r-nunda kənd adı.
**MAHMUDOBA** - Şahbuz r-nunda kənd adı. Naxçıvan əyalətinin Dərə Şahbuz nahiyəsində Mahmudabad kimidir.[8] Mahmud adlı şəxsə (nəsil başçısına) mənsub oba mənasındadır.
**MEQRƏ DƏRƏSİ** - Şərur r-nunda Yuxarı Yaycı kəndinin şimal-şərqində dərə adı. Türk dillərində miqir, mükir, muxor, "yarğan, uçurum",[9] ya da mukir - "kiçik azsulu çay" sözlərindən biri ilə əlaqədardır.
**MEHRİ** - Naxçıvan əyalətinin Azadciran nahiyəsində kənd adı.[10]

---

[1] İrəvan əyalətinin icmal dəftəri. s. 142.
[2] Yenə orada, s.
[3] Naxçıvan sancağının müfəssəl dəftəri, s. 28.
[4] İrəvan əyalətinin icmal dəftəri, s. 68.
[5] Yenə orada, 38.
[6] *Rəhimov A.R.* Azərbaycan paleotoponimiyasında maq etnonimi «Azərbaycan onomastikası problemlərinə dair konfransın materialları», Bakı, 1987, s. 83.
[7] *Моисей Хоренски.* История Армении, I кн., гл 30.
[8] Naxçıvan sancağının müfəssəl dəftəri, s. 28.
[9] *Абдуррахманов А.* Географические названия Казахстана. Алма-Ата, 1959, с 127.
[10] Naxçıvan sancağının müfəssəl dəftəri, s. 31.



**MEHRİDAĞ** - Şərur r-nunda Şahbulaq kəndinin şimal-şərqində dağ (hünd. 1866 m) adı. Bax: Mehrə dərəsi.
**MƏZRƏ** - Şahbuz r-nunda kənd adı. Ərəb dilində məzrə "düzən yerdə əkin yeri", "suvarıla bilən əkin yeri", sonralar məzrə əsasında yaranmış məntəqə[1] sözündəndir. Azərbaycanda Ordubad, Qubadlı və Cəbrayıl r-nlarında Məzrə kənd adları ilə mənaca eynidir.
**MƏZRƏ** - Ordubad r-nunda kənd adı.
**MƏZRƏ** - Babək r-nunda kənd adı. Məzrə (əkin yeri) mənasındadır.
**MƏZRƏSU YAL** - Şahbuz r-nun Nurs kəndinin şimalında dağ suayrıcının adı. Əkin yerinə su gətirilən dağ yalı mənasındadır.
**MƏLİKKƏND** - Naxçıvan əyalətinin Şərur nahiyəsində kənd adı.[2]
**MƏMMƏDRZA DİZƏ** - Babək r-nunda kənd.
**MƏMMƏDSABİR** - Şərur r-nunda kənd adı.
**MƏRƏDƏRƏ DAĞI** - Ordubad r-nunda dağ adı.
**MƏHƏLLƏYİ-KƏBRAN** - Naxçıvan şəhərinin bir məhəlləsinin adı.[3] Kəbiran adlı-sanlılar, böyüklər məhəlləsi deməkdir.
**MİKAYIL MƏZRƏSİ** - Naxçıvan əyalətinin Əlincə nahiyəsində kənd adı.[4] "Mikayılın əkin yeri" mənasındadır.
**MİLAX** - Culfa r-nunda kənd adı. Naxçıvan əyalətinin Dərə-Nürgüt nahiyəsində kənd adı kimi qeyd olunmuşdur.[5] Həmin rayondakı Qazançı kəndindən çıxmış bir qrup ailənin "Milax" adlı yerdə məskunlaşması nəticəsində yaranmışdır.[6]
**MİNGİS** - Ordubad şəhərinin məhəllələrindən birinin adı.[7]
**MİRZƏBƏY** - Naxçıvan şəhərinin məhəllələrindən birinin adı.[8] Mirzəbəy (yaxud Mirzə bəy) şəxs adıdır.
**MİRZƏ ƏLİ İSHAQIN QIŞLAĞI** - İrəvan əyalətinin Şərur nahiyəsində qışlaq adı.[9]

---

[1] *Savina V.İ.* Göstərilən əsəri, s. 62.
[2] Naxçıvan sancağının müfəssəl dəftəri, s. 326.
[3] İrəvan əyalətinin icmal dəftəri, s. 19.
[4] Yenə orada.
[5] Naxçıvan sancağının müfəssəl dəftəri, s. 32.
[6] *Никифоров Н.К* Экономический быт государственных крестьян и Западной части Нахичеванского уезда Эриванской губернии. Материалы для изучения эк быта государственных крестьян Закавказского края т. I, с. 390.
[7] Yenə orada, s. 19.
[8] İrəvan əyalətinin icmal dəftəri, s. 19.
[9] Yenə orada, s. 72.

**MİSKÜNKAŞAN** - Naxçıvan əyalətinin Azadciran nahiyəsində (indi Ordubad r-nunda) kənd kimi qeyd olunmuşdur.[1]
**MİSDAĞ** - Babək r-nunda Xalxal kəndinin şərqində dağ adı.
**MOLLA ƏHMƏD** - Naxçıvan şəhərinin məhəllələrindən birinin adı.[2]
**MOLLA MƏHƏMMƏD MƏCRƏSİ** - Naxçıvan əyalətinin Naxçıvan nahiyəsində məzrə (əkin yeri) adı.[3] "Molla Məhəmmədin əkin yeri" mənasındadır.
**MOLLA XƏLİL** - İrəvan əyalətinin Sədərək nahiyəsində kənd adı.[4] Mənbədə kəndin Dünbili tayfasının məskunlaşması nəticəsində yarandığı qeyd olunmuşdur.[5]
**MOLLA HƏMDİ** - Naxçıvan əyalətinin Qışlağat nahiyəsində məzrə adı.[6]
**MORANŞAH** - Naxçıvan əyalətinin Sair-Məvazi nahiyəsində kənd adı.[7]

**MÖVSÜNABAD** - İrəvan əyalətinin Şərur nahiyəsində kənd adı.[8] Digər adı "Zülfüqar Qarxın" (yenə orada). Mövsün şəxs adından və abad -- "kənd", "yaşayış məntəqəsi" sözündən ibarətdir. "Mövsün kəndi" mənasındadır.
**MUĞAN** - Naxçıvan əyalətinin Dərə-Şahbuz nahiyəsində kənd adı.[9]
**MUĞANLI** - Şərur r-nunda kənd adı. Cənubi Qafqazda bir sıra toponimlərdə əksini tapmış etnonimdir. Hər halda, Muğan çölündə yaşamış müxtəlif qədim türk tayfalarının ümumi adıdır. V əsrdə Muğanda böyük türk tayfa birliyi vardı.[10] Ehtimal ki, bu tayfanın əsasını həm yerli türk tayfaları, həm də eranın əvvəllərində gəlmiş hunlar və b. tayfalar təşkil etmişdir.
**MUĞANCIQ** - Naxçıvan əyalətinin Şərur nahiyəsində kənd olub.[11] "Kiçik Muğanlı (kəndi)" mənasındadır.
**MUĞANCIQ MEHRAB** - Şərur r-nunda kənd adı. Mənbədə "Muğancıq Mehrab" kimi yazılmışdır.[12] Mehrab adlı şəxsə məxsus Muğanlı ailələri mənasındadır.

---

[1] İrəvan əyalətinin icmal dəftəri, s. 179.
[2] Yenə orada, s. 19.
[3] Yenə orada, s. 165.
[4] Naxçıvan sancağının müfəssəl dəftəri, s. 324.
[5] Yenə orada.
[6] İrəvan əyalətinin icmal dəftəri, s. 145.
[7] Yenə orada, s. 140.
[8] Yenə orada, s.73.
[9] Naxçıvan sancağının müfəssəl dəftəri, s. 28.
[10] *Феофилакт Симокатта* История, с 36, 77, 102; 3 *М Буниятов* Азербайджан в VII-IX вв с 180.
[11] İrəvan əyalətinin icmal dəftəri, s. 168.
[12] Yenə orada.



**MUĞANCIQ MÜSLÜM** - Şərur r-nunda kənd adı. "Müslüm adlı şəxsə məxsus Muğanlı ailələri" mənasındadır.
**MUĞANCIQ SENİ** - İrəvan əyalətinin Şərur nahiyəsində kənd adı.[1] "Seni (Sani?) adlı şəxsə (mülkədara) məxsus Muğanlı ailələri" mənasındadır.
**MUĞARAL** - Naxçıvan əyalətinin Dərə-Şahbuz nahiyəsində kənd adı.[2] Mənbədəki bu coğrafi adın oxunuşu şərtidir.[3] Çünki onu Muğaran kimi də oxumaq olar.
**MUNCUQLU** - Şərur r-nunda Yuxarı Yaycı kəndinin şimal-şərqində təpə adı. Təpə təsərrüfat işləri zamanı qədim qəbir yerindən çoxlu muncuq üzə çıxdığına görə belə adlanmışdır.
**MURADDƏRƏ** - Ordubad r-nunda Gilançayın cənubunda dağ adı. Əsli Moradərədir. Türk dillərində mora -- "örüş yeri", "otlaq" və dərə sözlərindən ibarətdir.
**MURADXAN BİNƏSİ** - Naxçıvan əyalətinin Naxçıvan nahiyəsində kənd adı[4]. "Muradxan adlı şəxsə mənsub binə" mənasındadır.
**MÜNXBALAOĞLU** - Şərur r-nunda Aşağı Danzik kəndindən şimalda dağ (hünd. 1429 m) adı. Monqol dilində münxe "daimi", "həmişəlik",[5] azərbaycanca bala (kiçik) və oyuqlu (oyuğu olan) sözlərindən ibarətdir. Qazax r-nda Saloğlu (əsli Saloyuqlu) dağ adı ilə mənaca eynidir.
**NAĞICAN** - İrəvan əyalətinin Sədərək nahiyəsində kənd adı.[6]
**NAXÇIVAN** - Naxçıvan MR-in paytaxtının adı. Naxçıvan Azərbaycanın ən qədim şəhərlərindən biridir. İlk dəfə II əsr yunan müəllifi Klavdi Ptolemeyin əsərində Naksuana kimi qeyd olunmuşdur (Ptolemey, V, 12). Lakin adın bu yazılışında "s" səsi iki cür izah oluna bilər: ya yunan dilində "ç" səsi olmadığına görə Ptolemey onu "s" kimi vermişdir, ya da bu səs köklüdür, yəni əvvəldən mövcud olmuş, sonralar danışıqda "ç" səsinə çevrilmişdir. 593-cü ilə aid Sasanilər dövlətinə mənsub metal pul üzərində "Naxç" (adın belə qısaldılmış formada pulların üzərində həkk olunması Sasanilər dövlətinin pulları

---

[1] İrəvan əyalətinin icmal dəftəri, s. 72.
[2] Yenə orada, s. 166.
[3] Yenə orada. Mənbəni nəşr etmiş müəlliflər bu adı "Muğaran" kimi yazmışlar
[4] Yenə orada, s. 138.
[5] *Кузьмина Г.Г.* Словарь географических терминов и других слов, встречающиеся в бурятских географических названиях. М., 1969, с. 30.
[6] Naxçıvan sancağının müfəssəl dəftəri, s. 325.

üçün səciyyəvi idi) adının yazılması[1] göstərir ki, Naxçıvan forması, hər halda, VI əsrdə mövcud idi. Beləliklə, deyilənlərdən belə nəticə alınır ki, Naşava və Naksuvan bir adın qədim fars və qədim türk dillərində yazılmış formaları olmaq etibarilə eyni mənalıdır. VII əsrə aid mənbədə toponimin "Naxçuvan" kimi qeyd olunması[2] göstərir ki, hər halda, bu səsin "ç" kimi tələffüzü VII əsrə qədər baş vermişdir. Son tədqiqatlar göstərmişdir ki, addakı "s" səsi köklüdür və deməli, onun "ç" səsinə çevrilməsi prosesi olmuşdur. Bu çevrilmənin hansı dil əsasında baş verməsi müəyyən edilməmişdir.

Naxçıvan adının mənşəyi və mənası barədə çoxlu miqdarda mülahizələr irəli sürülmüş, lakin son vaxtlara qədər inandırıcı fikir söylənilməmişdir. Erməni tarixçiləri adın erməni mənşəli olmasını sübut etmək məqsədilə toponimin sonundakı "van" hissəsinə əsaslanmağa səy etmiş və onu ermənicə avan – "yaşayış məntəqəsi", "kənd" (əsli qədim farscadır) sözü ilə bağlamağa çalışmışlar. Yalnız Y.B.Yusifov toponimin mənşəyini müəyyən etməyə nail olmuşdur. O, adın bəzi IX-X əsrlərə aid ərəb mənbələrində "Naşava" kimi yazılış forması əsasında ("Naşava" – qədim farsca "naş", azərbaycanca nuş, "xeyirli" və av – "su" sözlərindən Naksuan adının qədim türk dillərində nak, nik, "xoş su" və İran mənşəli van – "yer", "ərazi"[3] sözlərindən ibarət olduğunu və bütünlüklə adın "Xoş su yeri" mənasını verdiyini yazmışdır.[4] Naxçıvan adının bu etimologiyası tamamilə düzdür.

**NAXÇIVAN ÇAYI** - Arazın sol qolunun (uz. 81 km) adı. Mənbəyini Keçəldağın cənub yamacından (2720 m) alır.

**NAXÇEDƏNİZ** - Naxçıvan əyalətinin Sair-Məvazi nahiyəsində kənd adı.[5]

**NEHRƏM** - Babək r-nunda kənd adı. Mənbədə Naxçıvan əyalətinin Qışlağat nahiyəsində kənd kimi qeyd olunmuşdur.[6] Ərəb dilində nəhr – "axar su"[7] və əm – "camaat", "ümumxalq", "icma"[8] sözlərindən ibarət olub, "icma suyu (kanalı)" mənasındadır. Bu fikir hələ keçən əsrdə səslənmişdir.[1] Naxçıvan əyalətində orta əsrlərdə su (suvarma suyu), ayrı-ayrı mülkədarlara məxsus olduğu halda, tək-tək hallarda icmalara, kəndin bütün camaatına mənsub olurdu. Nehrəm kənd adının nəhr – "su" və əm – "camaat" sözlərindən ibarət olduğunu bir mənbə də təsdiq edir.[2] Arazdan keçmişdə nəhrlərin çəkildiyini orta əsr mənbələri də qeyd edirlər.[3] Ağdaş r-nunda Nehrəxəlil kənd adı da Xəlil suyu (kanalı, arxı) mənasındadır.

**NEHRƏM** - Babək r-nunda Bakıdan 516 km məsafədə dəmiryol stansiyasıdır.

**NEHRƏM** - Babək r-nunda Nehrəm kəndinin cənubunda xaraba kənd adı.[4]

**NEHRƏMARX** - Babək r-nunda Nehrəm kəndinin şimal-şərqində arx (kanal) adı.

**NƏBİYURD** - Ordubad r-nunda Nəsirvaz kəndinin yaxınlığında dağ adı. Nəbi adlı şəxsə məxsus məskən mənasındadır. Bu toponim Peyğəmbər (Nuh) yurdu mənasındadır.

**NƏZƏRABAD** - Babək r-nunda kənd adı. Nəzər şəxs adından və abad – "kənd", "yaşayış məntəqəsi" sözündən ibarətdir. "Nəzər kəndi məntəqəsi" mənasındadır. Kəndin keçmiş adı Dəmirzindandır.

**NƏRKEÇİ** - Naxçıvan əyalətinin Dərə-Şahbuz nahiyəsində yaylaq adı.[5] Yaylağın adı ehtimal ki, nər "erkək" və keçi (dağ keçisi) sözlərindən ibarət olub, yaylaqda dağ keçisinin yaşaması ilə əlaqədardır.

**NƏSİRVAZ** - Ordubad r-nunda kənd adı. Mənbədə Naxçıvan əyalətinin Azadciran nahiyəsində kənd kimi qeyd olunmuşdur.[6] Kəndin yaxınlığındakı Qapıcıq (Gəmiqaya) dağında Nəsirvaz çayının sol sahili boyu Qaranquş dağının yamaclarında qədim rumi yazıları (ərəbcə "kəsr") vardır. Nəsirvaz ərəbcə vayz "sıldırım", nəsr "yağı" olub, "yağılı təpə, yüksəklik" mənasındadır. Bax: Qapıcıq (Gəmiqaya).

**NƏSİRVAZÇAY** - Ordubad r-nunda Nəsirvaz kəndinin ərazisindən axan çayın (uz. 12 km) adı.

---

1 *Пахомов Е.А.* Монеты Нахичевана. Известия АН Азербайджанской ССР. Серия общественных наук, 1949, № 5.

2 Армянская география VII века по Р.Х. СПб., 1877, с. 48

3 *Xristiun Burtolomey.* Altiraniscoes Werterbuch, Strassburg, 1905, c. 2353.

4 *Юсифов Ю.Д.* Топонимы и этническая история древнего Азербайджана. "Azərbaycan onomastikası problemlərinə dair konfransın materialları". Bakı, 1987, s. 108-111.

5 İrəvan əyalətinin icmal dəftəri, s. 140.

6 Yenə orada, s. 145.

7 *Баранов Х.К.* Арабско-русский словарь, М., 1958, с. 1061.

8 Yenə orada, s. 688.



1 *Исмайлов Керимбек.* Село Неграм Нахичеванского уезда Эриванской губернии. СИОМПК, в т. 27, отдел II, с. 192

2 Перед. Азия в документах. Кн. I, Нахичеванские рукописные документы. XVII-XIX вв., с. 69.

3 *Ализаде А.А.* Социальная экономическая и политическая история Азербайджана XIII-XIV вв., Баку, 1956, с. 4.

4 İrəvan əyalətinin icmal dəftəri, s. 167.

5 Yenə orada.

6 Yenə orada, s. 147.

**NƏHƏCİR** - Culfa r-nunda kənd adı. Kənd əfsanəvi Nuh peyğəmbərin gəmisinin dayandığı yer kimi mənalandırılan Gəmiqaya dağının yaxınlığında Nəhəcər dağının (hünd. 1799 m) adı ilə adlanmışdır. Kəndin adının Naxçıvan əyalətinin icmal dəftərində qeyd olunmaması göstərir ki, yaşayış məntəqəsi XVIII əsrdən də qabaq yaranmışdır. Bax: Nəhəcir dağı.

**NƏHƏCİR** - Culfa r-nunda dağ (hünd. 1799 m) adı. Naxçıvan ərazisində xalq arasında qədimdən dolaşan toponim (Nuhun tufanı, "Gəmiqaya" və b.) yaranmışdır ki, onlardan biri də Nəhəcir (əsli Nuhəcir) oronimidir. Dağın adı əfsanə Nuh adından və farsca cir – "yamac", "maili yer" sözündən ibarət olub, "Nuhun" (peyğəmbərin) yamacı mənasındadır.

**NƏHƏCİRÇAY** - Culfa r-nunda Naxçıvançayın qollarından birinin (uz. 14 km) adı.

**NƏHƏCİR BULAĞI** - Culfa r-nunda, Naxçıvan şəhərindən 18 km şimal-şərqdə Nəhəcir dağında 7 bulağın adı.

**NƏCƏFLİDİZƏ** – Babək r-nunda kənd adı.

**NƏCƏF QIŞLAĞI** - İrəvan əyalətinin Şərur nahiyəsində kənd adı[1]. "Əhalisi Bayat əşirətindəndir" (yenə orada). "Nəcəf adlı şəxsə məxsus qışlaq" mənasındadır.

**NƏCƏFQULUDİZƏ** - Culfa r-nunda kənd adı. Nəcəfqulu adlı şəxsə məxsus dizə (kənd) mənasındadır.

**NƏCƏFƏLİBƏYDİZƏ** - İrəvan quberniyasının Naxçıvan qəzasında kənd adı [2] (indiki Babək r-nunda Nəcəfəlidizə).

**NOVDƏRƏ** - Ordubad r-nunda, Gilançay kəndindən şimal-şərqdə dağ adı.

**NOVUŞBAŞI** - Ordubad r-nunda Parağa kəndindən şimalda dağ adı.

**NOVUŞÇU** - Ordubad r-nunda Gilançayın sağ qolunun adı.

**NOXUDDAĞ** - Babək r-nunda Cuğa kəndinin şimal-şərqində dağ adı.

**NURSU** - Şahbuz r-nunda kənd adı. Arxiv mənbəyində Naxçıvan əyalətinin Dərə Şahbuz nahiyəsində kənd kimi qeyd olunmuşdur[3].

**NURSUÇAY** - Şahbuz r-nunda Naxçıvançayın sol qolunun adı (uz. 13 km). Mahmudoba kəndinin içərisindən axır. Nurs kəndinin adındandır.

**NUŞRƏVAN** - Naxçıvan əyalətinin Azadciran nahiyəsində kənd adı[4].

---

[1] İrəvan əyalətinin icmal dəftəri, s.72.
[2] *Paqiryev D.D.* Göstərilən əsəri, s. 183.
[3] Yenə orada, s. 167.
[4] Yenə orada, s. 30.



**NÜRGÜT** - Ordubad r-nunda kənd adı. Naxçıvan əyalətinin Dərənürgüt nahiyəsində kənd adı[1]. Monqolca nohur və xut – "düşərgə", "dayanacaq"[2] sözlərindən ibarətdir.

**NÜSNÜS** - Ordubad r-nunda kənd adı. Mənbədə Naxçıvan əyalətinin Şorluq nahiyəsində kənd adı [3]. Fars dilində nəsa – "güney", "dağın gündüşən tərəfi" və ərəb dilində (əsli yunanca - naos "məbəd") naus – "Zərdüşt qəbri üzərində tikinti"[4] sözlərindən ibarətdir. İranda Sasanilər sülaləsinin (III-VII əsrlər) hakimiyyəti illərində və islamın ilk illərində Zərdüşt qəbirləri üzərində tikilən tikinti naus adlanırdı[5]. Kəndin ərazisində həqiqətən də güney tərəfdə qədim məbəd qalıqları vardır.

**OVRATLI** - Naxçıvan əyalətinin Şərur nahiyəsində kənd adı[6]. "Digər adı İshaqlı" (yenə orada).

**OĞLANQALA** - Şərur r-nunda Qaratəpə dağının üstündə qədim qalanın adı. Qədim türk dillərində oğlan həm də hökmdarın qvardiyasının döyüşçüsü mənasında idi. Ehtimal etmək olar ki, Oğlanqala "hərbi dayanacaq (düşərgə)" mənasındadır. Lakin qalanın bu adı sonralar yaranmışdır. Ona görə ki, Oğlanqala Şahtaxtı yaxınlığında nəhəng, kobud yonulmuş dördkünc daşlardan hörülmüş tsiklonik tapıntıdır ki, tədqiqatçılar belə qalaçaları Tunc dövrünə aid edirlər.

**OĞLANGÖZ** - Ordubad r-nunda Qoşadizə kəndindən qərbdə dağ (hünd. 1144 m) adı.

**OĞLANŞAHLI** - Naxçıvan əyalətinin Şərur nahiyəsində kənd adı.[7] "Digər adı Xəlfəkənddir" (yenə orada).

**OĞUZKƏND** - İrəvan əyalətinin Karbi nahiyəsində (indi Naxçıvan MR-in Şərur r-nunda) kənd adı[8]. Oğuz etnonimindən ibarətdir. Oğuzlar Azərbaycan ərazisində məskunlaşmış qədim türk mənşəli etnos adıdır.

---

[1] *Paqiryev D.D.* Göstərilən əsəri, s. 32.
[2] *Budaqov L.Z.* Göstərilən lüğəti, II, s.144.
[3] İrəvan əyalətinin icmal dəftəri, s. 148.
[4] *Бартольд В.В.* Соч. том II, ч. I, с 212.
[5] Yenə orada.
[6] Yenə orada, s.72.
[7] Yenə orada, c. 37.
[8] Yenə orada.

**OĞUZDAŞI** - Naxçıvan əyalətinin Şərur nahiyəsində başqa bir kənd adı[1]. Kənddə cəmi iki ailənin yaşadığı qeyd olunur[2].

**OĞULŞALI** - Naxçıvan qəzasının Şərur nahiyəsində kənd adı[3].

**OYUQLUCAQAYA** - Naxçıvan əyalətinin Dərə-Şahbuz nahiyəsində yaylaq adı[4].

**OYUQLU** - Ordubad r-nunda Düylün kəndinin şimal-qərbində dağ adı.

**ORDUBAD** - Naxçıvan MR-də şəhər adı. Ordubad inzibati r-nun mərkəzidir. Ambaras, Kürdəsər, Mingis, Sərşəhər və Hüştərəngə məhəllələrindən ibarət şəhər idi. Dəqiq mənası indiyədək müəyyən edilməmişdir. Bir mülahizəyə görə toponim qədim türk dillərində ordu – "xan düşərgəsi", "xanın alaçığı qurulan yer", "şəhərcik",[5] bir sıra qədim toponimlərdə əksini tapmış İran mənşəli abad – "kənd", "yaşayış məntəqəsi" sözlərindən ibarətdir.

**ORDUBADÇAY** - Ordubad r-nunda Nüsnüs kəndindən qərbdə olan çay (uz. 24 km) adı.

**ORTAKƏND** - Naxçıvan əyalətinin Dərəşam nahiyəsində kənd adı.[6]

**ORUCDİZƏ** - Babək r-nunda kənd adı. Bu kənd Kalba Orucdizə adlandırılıb.

**OVRATLI** - Naxçıvan əyalətinin Şərur nahiyəsində kənd adı.[7]

**ÖKÜZBATIR** - Naxçıvan əyalətinin Şərur nahiyəsində kənd adı.[8] Mənbədə kəndin Dünbili tayfasının məskunlaşması nəticəsində yarandığı qeyd olunmuşdur.[9] Dünbili tayfası barədə bax: Tumbil k.[10]

---

1 İrəvan əyalətinin müfəssəl dəftəri, s. 327.
2 Yenə orada.
3 Yenə orada, s. 168.
4 Yenə orada.
5 *Şopen İ* Göstərilən əsəri. s. 385.
6 *Mahmud Qaşqari*, I, s. 124.
7 Naxçıvan sancağının müfəssəl dəftəri, s. 329.
8 *Paqiryev D.D.* Göstərilən əsəri, s. 16.
9 Naxçıvan sancağının müfəssəl dəftəri, s. 325.
10 İrəvan əyalətinin icmal dəftəri, s. 146.



**PAYIZ** - Babək r-nunda kənd adı. Naxçıvan əyalətinin Mülki-Arslan nahiyəsində kənd adı.[1] Qədim türk-monqol dillərində bays, bayz – "sıldırım"[2] sözündən təhrifdir.[3]

**PARAĞA** - Ordubad r-nunda kənd adı. Naxçıvan əyalətinin Azadciran nahiyəsində kənd adı.[4] Türk dillərində «para» pul mənasındadır.

**PARAĞAÇAY** - Ordubad r-nunda Gilançayın sol qolunun (uz. 21 km) adı. Parağa kəndinin adı ilə adlanmışdır. Bax: Parağa k.

**PARAĞAÇAY** - Ordubad r-nunda yeni qəsəbə adı. Parağaçayın kənarında molibden mədənləri əsasında yaranmışdır.

**PARADAŞ** - Naxçıvan əyalətinin Əlincə nahiyəsində məzrə adı. Para (parçalanmış mənasında) və daş (qaya) sözlərindən ibarət olub, «parçalanmış qaya», «pul-pul olmuş daş» olan yerdə əkin yeri mənasındadır.[5]

**PARDUQDAĞ** - Ordubad r-nunda Urmis kəndinin şərqində dağ suayrıcının adı.[6]

**PARÇI** - Naxçıvan əyalətinin Şərur nahiyəsində kənd adı.[7]

**PEKAN QIŞLAĞI** - Naxçıvan əyalətinin Şərur nahiyəsində qışlaq adı.[8]

**PƏZMƏRİ** - Ordubad r-nunda kənd adı.

**PİYAZBAŞI** - Ordubad r-nunda Urmis kəndinin cənubunda dağ (hünd. 2610 m) adı. Fars dilində piyaz – "soğan" və azərbaycanca baş sözlərindəndir.

**PİLƏSƏR** - Culfa r-nunda Kərimquludizə kəndinin şimal-qərbində dağ suayrıcının adı.

**PİLOVTƏPƏ** - Babək r-nunda Naxçıvan şəhərindən şimalda yerləşən dağın adı (hünd. 1033 m ). Bu ad təpəyə xarici görkəminə görə verilmişdir.

**PİRVERDİ QIŞLAĞI** - İrəvan əyalətinin Karbi nahiyəsində (indi Naxçıvan MR Şərur r-nunda) kənd adı. Qışlaq adı.[9]

**PİRÇAY** - Şahbuz r-nunda çay adı. Bu, Sələsüz çayı da adlanır.

---

1 İrəvan əyalətinin icmal dəftəri, s. 144.
2 Yenə orada, s. 142.
3 *Qeybullayev Q.Ə.* Bozz toponiminin mənşəyi haqqında. "Tarix və onun problemləri", 1997, № 2, s.135-139.
4 İrəvan əyalətinin icmal dəftəri, s. 147 və 179.
5 Yenə orada.
6 Yenə orada.
7 Yenə orada.
8 Yenə orada.
9 Yenə orada, s. 182.

**PİRİ-PƏNAH** - Naxçıvan əyalətinin Əlincə nahiyəsində məzrə adı.[1] "Mənau piri" adlı yerdə "əkin yeri" mənasındadır.
**PLOVTƏPƏ** - Babək r-nunda Əliabad kəndinin şimalında dağ adı. Bənzətmə addır.
**POMBULOS** - Ordubad r-nun Aza kəndinin cənubunda dağ adı.
**POTIKİN** - Ordubad r-nunda Urmis kəndinin cənubunda dağ adı. Oronimin tam forması "Potıkin gədiyi"dir. Ədəbiyyatda bu dağın adı bəzən "Patıskın gədik" kimi də yazıldığına görə dil mənsubiyyətini müəyyən etmək mümkün deyildir.
**PUL** - Naxçıvan əyalətinin Dərəşam nahiyəsində kənd adı.[2]
**PÜRƏDƏŞT** - Naxçıvan əyalətinin Əlincə nahiyəsində kənd adı.[3]
**PÜSYAN** - Şərur r-nunda kənd adı. Psian tayfasının adındandır. XIX əsrin I yarısında Naxçıvan əyalətində və Zəngəzurda maldarlıqla məşğul olan kürdlər Psman və Qaraçarlu qollarından ibarət idilər. Psman qolunun özü isə Babalı, Sultanlı, Zodbanlı və Potanlı tirələrinə bölünürdü.[4] Türk sultanının əmri ilə XVII əsrdə İbrahim ağa adlı birisinin başçılığı ilə psianlar Türkiyədən Azərbaycana gəlmişlər. Sonralar tayfanı məhz İbrahim xanın nəslindən olanlar idarə etmişlər.[5]
**SABİRKƏND** - Ordubad r-nunda kənd adı. Əvvəlki adı Subatandizə olmuş və sonra dəyişdirilərək M.Ə.Sabirin şərəfinə Sabirkənd adlandırılmışdır.
**SAKKARSU** - Ordubad r-nunda Gilançayın sol qolunun adı. Gəmiqaya dağındakı Göygöldən mənbəyini götürür. Saqarsu kimi də yazılır. Türk dillərində sakar – bitkisiz, çılpaq qum təpəsi[6] və su – "çay" sözlərindən ibarətdir.
**SAL** - Naxçıvan əyalətinin Azadciran nahiyəsində kənd adı.[7]
**SALAHYURDU** - Şərur r-nunda Avuşçayın cənub-şərqində köhnə kənd yerinin adı. Salah şəxs (ehtimal ki, elbaşı, yaxud mülkədar) adından və yurd – "qışlaqda dayanacaq yeri" sözündən ibarətdir.

---

[1] İrəvan əyalətinin icmal dəftəri, s. 182.
[2] Yenə orada s. 167.
[3] Yenə orada, s. 182.
[4] *Зелинский С П.* Экономический быт гос. крест. Зангезурского уезда Елизаветпольской губернии. Материалы для изуч. эконом. быта гос. крестян. Закавказского края, том IV, с. 13.
[5] Yenə orada.
[6] *Murzayev E.M.* Göstərilən lüğəti, s. 493.
[7] İrəvan əyalətinin icmal dəftəri, s. 147.



**SALVARTI** - Şahbuz r-nunda dağ adı (3160 m). Qədim forması Salvartu. Salvar və qədim türk dillərində təə, tuu, tu – "dağ" sözlərindən ibarətdir, Cənubi Azərbaycanda Qaflantu ("qıflan", yəni pələng və tu – "dağ" sözlərindən) dağ adı ilə quruluşca eynidir.
**SALVARTI GÖLÜ** - Şahbuz r-nunda Salvartı dağının yamacında 2840 m hündürlüyündə şirin sulu göl adı. Salvartı dağının adı ilə adlanmışdır.
**SALTAQ** - Culfa r-nunda kənd adı. Naxçıvan əyalətinin Əlincə nahiyəsində kənd kimi qeyd olunmuşdur.[1] «Sal» sözü birinci mənada sal, yastı, hamar (daş), ikinci mənada isə «sal» etnonimidir. Dağ sözünün qədim türk dilləri üçün səciyyəvi "taq" formasını qoruyub saxlamışdır.
**SARADAĞ** - Şərur r-nunda Dəmirçi kəndinin şimal-şərqində dağ adı.
**SARACLI** - Şərur r-nunda Dəmirçi kəndinin qərbində xaraba kənd adı. Kənd orta əsrlərdə Anadolu yarımadasında yaşamış Yeryük tayfa birləşməsinin Saraclı qolunun[2] məskunlaşması nəticəsində yaranmışdır.
**SARACLIDAĞ** - Sədərək rayon mərkəzinin cənubunda dağ adı.
**SARIAĞIL** - Şərur r-nunda Aşağı Daşarx kəndinin şərqində təbii mərz adı. "Sarı rəngli torpaq ərazidə yerləşən ağıllar (qoyunun qışda gecələr salındığı yerlər)" mənasındadır.
**SARIBULAQ** - Şərur r-nunda bulaq adı. Tərkibində kükürd olduğuna görə axdığı yerdə sarı rəngli çöküntü əmələ gətirən bulaqdır. Sarıbulaq həm də dağlararası düzənliyin adıdır.
**SARIBULAQ** - Babək r-nunda Xalxal kəndinin şərqində bulaq adı.
**SARIQAYA** - Ordubad r-nunda Tivi kəndinin şimal-şərqində dağ adı. Rəng bildirən sarı və qaya sözlərindən ibarətdir.
**SARIDAĞ** - Şahbuz r-nunda Mahmudabad kəndinin cənub-şərqində dağ (1982 m) adı.
**SARIDAĞ** - Culfa r-nunda Əbrəqunis kəndinin cənub-qərbində dağ adı.
**SARININ DİBİ** - Culfa r-nunda çay adı.
**SARIDƏRƏ** - Ordubad r-nunda dağ (3754 m) adı.
**SARMIK** - Şahbuz r-nunda Kəçili kəndinin şimal-şərqində dağ adı.

---

[1] İrəvan əyalətinin icmal dəftəri, s. 147.
[2] *Еремеев Е.Д.*, Юрюки, с. 11.

**SƏRXANLI** - Şərur r-nunda kənd adı. Ehtimal ki, kənd Şahsevənlərin XIX əsrin II yarısında 600 çadırdan ibarət Sarıxanlı (əsli Sarıxan eli) tayfasının məskunlaşması nəticəsində yaranmışdır.
**SARDAXUN** - Ordubad r-nunda Nəsirvaz kəndinin cənub-şərqində bulaq adı. Suyun tərkibi kükürdlü olduğuna görə axdıqda sarı çöküntü əmələ gətirən rəng mənasındadır. Türk dillərində saur - dağın ərazisində dəyirmi (yumru) zirvə, "dağlıq ərazidə qaya"[1] və dib (ətək) sözlərindən ibarətdir.
**SEYİDİ-SİRAV** - Naxçıvan əyalətinin Naxçıvan nahiyəsində kənd adı.[2]
**SEYİDHÜSEYN** - Naxçıvan şəhərinin məhəllələrinin birinin adı.[3] Şübhəsiz ki, şəxs adıdır və ehtimal ki, həmin məhəllədə yaşayan nəslin başçısının (yaxud banisinin) adıdır.
**SELBASAR** - Babək r-nunda Naxçıvan şəhərinin cənub-qərbində dağ adı.
**SƏDƏRƏK** - Sədərək r-nunda kənd adı. Mənbədə XVII əsr müəllifi Övliya Çələbinin səyahətnaməsi də çəkilir. İ.Şopenin yazdığına görə, Sədərək kəndinin əhalisi mənşəcə Qacar tayfasına mənsubdur.[4] Ehtimal ki, bir yaşayış məntəqəsi kimi ərəb işğalları vaxtında yaranmışdır. Kəndin ərazisində IX əsrə aid qədim yaşayış yeri müəyyən edilməsi də bu fikri təsdiqləyir. Fikrimizcə, Sədərək toponimi «Kitabi-Dədə Qorqud» qəhrəmanlarından Səkrəyin adı ilə əlaqədardır. Onun yaxınlığında bir neçə Əyrək (əkrək) kəndləri də olmuşdur ki, bunlar da Səkrəyin qardaşı Əkrəyin adı ilə adlanmışdır.
**SƏİD MƏZRƏSİ** - İrəvan əyalətinin Karbi nahiyəsində (indi Naxçıvan MR-in Şərur r-nunda məzrə (əkin yeri)) adı.[5] "Şəhriyar kəndinin yaxınlığında yerləşir" (yenə orada).
**SƏLƏSÜZ** - Şahbuz r-nunda kənd adı. Mənbədə Naxçıvan əyalətinin Dərə-Şahbuz nahiyəsində Sələsus kimi qeyd olunmuşdur.[6] Kəndin digər adı Gülyazdır.[1] Kənd "Sələsus" adlı yerdə yaranmışdır.[2] Türk dillərində sələ - "künc", "yer", "bucaq", "hissə"[3] və sos "bucaq yer", "su çıxan yer"[4] sözlərindən ibarətdir. Sələsus kəndində olan bulaqların suyu ilə əkin sahələri suvarılır.[5]

---
1 *Murzaev E.M.* Göstərilən əsəri, s. 499.
2 İrəvan əyalətinin icmal dəftəri, s. 165.
3 Yenə orada, s. 19.
4 *Şopen İ.* Göstərilən əsəri, s. 537.
5 İrəvan əyalətinin icmal dəftəri, s. 38.
6 Yenə orada, s. 66.



**SƏLƏSÜZ** - Şahbuz r-nunda Naxçıvançayın sol qolunun adı (uz. 19 km). Bu, Pirçay da adlanır.
**SƏNG** - Naxçıvan əyalətinin Qarabağ nahiyəsində kənd adı.[6] Fars dilində səng – "daş", "qaya" sözündəndir.
**SƏNGƏR** - Şahbuz r-nunda Nürs kəndinin şimal-şərqində dağ adı. Qədim türk dillərində sinqir, senqer – "dağ burnu"[7] sözündəndir.
**SƏPƏRDƏRƏ** - Ordubad r-nunda Urmis kəndindən şimal-şərqdə Zəngəzur dağ silsiləsində dağ (3827 m) adı.
**SƏRDAR DÜZÜ** - Şərur r-da Dərələyəz silsiləsinin qolları arasında yerləşən düzün adı.[8]
**SƏRDARABAD MƏZRƏSİ** - İrəvan əyalətinin Şərur nahiyəsində məzrə adı.[9]
**SƏRPİDSİN** - Şahbuz r-nunda Ağbulaq kəndinin cənubunda dağ adı.
**SƏRXU** - Naxçıvan əyalətinin Azadciran nahiyəsində kənd adı.[10]
**SƏRŞƏHƏR** - Ordubad şəhərinin məhəllələrindən birinin adı.[11] Fars dilində sər – "baş", "yuxarı" və şəhər sözlərindən ibarət olub, "şəhərin yuxarı başı" mənasındadır.
**SİYAQUT** - Şərur r-nunda kənd adı. Mənbədə Naxçıvan əyalətinin Şərur nahiyəsində Siyaqutlu kəndinin adı çəkilir.[12] İrəvan xanlığının Zəngibasar mahalında da bir kənd Siyaqut adlanırdı. Siyaqut türk tayfalarından birinin adıdır.
**SINAQ** - Babək r-nunda Nəcəfquludizə kəndinin cənub-şərqində dağ adı.

---
1 Naxçıvan sancağının müfəssəl dəftəri, s. 112.
2 Статистическое описание Нахичеванской провинции, с. 142.
3 *Radlov V.V.* Göstərilən lüğəti, IV c., I hissə, s. 349.
4 Yenə orada.
5 *Nikifirov N.K.* Göstərilən əsəri, s. 574.
6 İrəvan əyalətinin icmal dəftəri, s. 495.
7 Древнетюркский словарь, с. 495
8 Azərb. SSR-in izahlı coğrafi adlar lüğəti, s. 271.
9 İrəvan əyalətinin icmal dəftəri, s. 72.
10 Naxçıvan sancağının müfəssəl dəftəri, s. 30.
11 İrəvan əyalətinin icmal dəftəri, s. 19.
12 Yenə orada.

**SINIQƏLƏK** - Naxçıvan əyalətinin Şərur nahiyəsində kənd adı.[1] Əsli sınıq kələk, yəni "sınıq qala". Orta fars dilində qala sözü "qələ" kimi tələffüz olunurdu.

**SİNORDAĞ** - Naxçıvan qəzasında dağ adı.[2] Türk dillərində sinor "sərhəd", "hüdud"[3] və azərbaycanca dağ sözlərindən ibarətdir.

**SİSKATOR** - Şahbuz r-nunda Biçənək kəndinin şimalında dağ adı. Naməlum "siska" və qədim türk dillərində tor "yüksək dağ örüşü" sözlərindəndir.

**SİRAB** - Babək r-nunda kənd adı. Mənbədə həm də Sarav kimidir.[4] XIX əsrə aid ədəbiyyatda isə Surab kimi yazılış forması da məlumdur.[5] Başqa mənbədə "Naxçıvan qəzasında Surab bulağı" ifadəsi vardır.[6] Lakin əsli Sirabdır ki, bu da qədim türk dillərində siri (axan) "bulaq", "mənbə" və farsca ab – "su" sözlərindən ibarətdir. Həqiqətdə də bulaq kəndin ərazisində 1400 m yüksəklikdədir. Xalq etimologiyasına görə sirab – sirli su deməkdir.

**SÖYÜDLÜ** - İrəvan əyalətinin Sədərək nahiyəsində kənd adı.[7] Mənbədə kəndin Dünbili tayfasının məskunlaşması nəticəsində yarandığı qeyd olunur.[8]

**SOYUQDAĞ** - Ordubad r-nunda dağ adı. Soyuq dağın zirvəsinin havası soyuq olduğundan onu Soyuqdağ adlandırırlar. Türk dillərində soyok – "zirvəsi konusvarı qayalı dağ"[9].

**SURUMÇAL** - Babək r-nunda Kalba Orucdizə kəndinin cənub-şərqində dağ silsiləsinin adı.

**SUSDƏRƏ** - Ordubad r-da Nüsnüs kəndi ərazisində dərə adı. Türk dillərində sus – "su çıxan yer" sözündəndir.

**STANSİYA DAŞARX** – Şərur r-nunda kənd.

**SÜBHANVERDİ DİZƏSİ** - İrəvan əyalətinin Naxçıvan nahiyəsində kənd adı.[10]

---

[1] Naxçıvan sancağının müfəssəl dəftəri, s. 326.
[2] *Paqiryev D.D.* Göstərilən lüğəti, s. 638.
[3] *Budaqov L.Z.* Göstərilən lüğəti, s. 638.
[4] İrəvan əyalətinin icmal dəftəri, s. 140.
[5] *Никифоров Н.К.* Экономический быт госуд. крестьян западной части Нахичеванского уезда, Ереванской губернии "Экономический быт гос. крестьян Закавказского края". т 1, с. 590.
[6] Минеральные воды и лечебные грязи. "Кавказский календарь", 1917, с 233.
[7] Naxçıvan sancağının müfəssəl dəftəri, s. 325.
[8] Yenə orada.
[9] *Murzayev E.M.* Göstərilən əsəri, s. 512.
[10] Naxçıvan sancağının müfəssəl dəftəri, s. 25.



**SUST** - Babək r-nunda kənd adı.

**SÜST** - Babək r-nunda Yuxarı Buzqov kəndinin şimalında dağ adı.

**ŞADA** - Naxçıvan əyalətinin Dərə-Şahbuz nahiyəsində kənd adı.[1] Ehtimal ki, qədim türk mənşəli Şato tayfasının adını əks etdirir. VI-VIII əsrlərdə Qərbi Türk xaqanlığının tərkibində "On ox" adlı tayfaların Çu çayından qərbdə yerləşən 5 tayfasının tərkibində Şato da vardı.[2] Mənşəcə bu tayfa Orta Asiya hunlarının sonrakı nəsilləri sayılır.[3] XII-XIII əsrlərdə Orta Asiyada baş vermiş siyasi hadisələrlə əlaqədar olaraq bu tayfa səpələnmişdir. Ehtimal ki, Azərbaycana oğuzlarla, ya da monqollarla gəlmişlər. Qasım İsmayılov r-nunda Şadılı kənd adı ilə mənşəcə eynidir. XIX əsrdə Azərbaycanda bir maldar tayfa Şadılı idi.[4] Qırğızlarda da bir tayfa Şadı adlanır.[5]

**ŞAHAB** - Naxçıvan şəhərinin məhəllələrindən birinin adı.[6]

**ŞAHBULAQ** – Şərur r-nunda kənd adı. Keçmiş adı Çağayurdu.

**ŞAHBUZ** - Naxçıvan MR-də inzibati rayon mərkəzinin adı. Mənbədə Naxçıvan əyalətinin Dərə-Şahbuz nahiyəsinin adı idi.[7] Şahbuz yaxınlığındakı hündür yerdə qalıqları qalmaqda olan qədim qalanın[8] adıdır. Məntəqə yaxınlıqdakı Şahbuz qalasının adı ilə adlanmışdır. Qalanın adı isə farsca şox "sıldırım (dik) qaya" və buz (türk dillərində bayz – "sıldırım") sözünün təhrif formasından ibarətdir.[9]

**ŞAHBUZKƏND** - Şahbuz r-nunda kənd.

**ŞAHBUZTƏPƏ** - Şahbuz r-nunda, Şahbuz şəhərinin cənubunda dağ.

**ŞAHBUZÇAY** - Şahbuz r-nunda Naxçıvançayın sol qolunun adı.

**ŞAHVƏLLİ** - Naxçıvan əyalətinin Şərur nahiyəsində qışlaq adı.[10] "Şahvəlli adlı şəxsə məxsus (qışlaq)" mənasındadır.

---

[1] İrəvan əyalətinin icmal dəftəri, s. 167.
[2] *Бернштам А.Н., Задненпровский А.* Западно-тюркский Каганат "Очерки истории СССР", III-IX вв. М., 1958, с 266, *Бартольд В.В.* Соч., т. II, ч. 1, с. 33.
[3] *Гумилев Л.Н.* Древние тюрки Л., 1967, I, 266
[4] *Абелов Н.А.* Экономический быт госуд. крестьян Елизаветпольского уезда Елизаветпольской губернии. с. 21
[5] *Абрамзон С.М.* Этнический состав киргизского населения Северной Киргизии. Труды Киргизской археолого-этнографической экспедиции IV. М., 1960, с 135.
[6] İrəvan əyalətinin icmal dəftəri, s. 19.
[7] Yenə orada, s. 141.
[8] *Şopen İ.* Göstərilən əsəri, s. 328.
[9] *Murzayev E.M.* Göstərilən lüğəti, s. 65.
[10] İrəvan əyalətinin icmal dəftəri, s. 168.

**ŞAHQULUBƏY DİZƏSİ OLAN POLADBƏY** - Naxçıvan əyalətinin Naxçıvan nahiyəsində məzrə adı. Digər adı Xocaverdi.[1]
**ŞAHKƏRƏM** - Culfa r-nunda dağ adı.
**ŞAHMƏMİŞ ƏLİABAD** - Naxçıvan əyalətində indiki Culfa r-nu ərazisində kənd adı.[2] Şahməmiş şəxs adından və Əliabad toponimindən ibarətdir. "Şahməmiş adlı şəxsə məxsus Əliabad kəndi" mənasındadır.
**ŞAH HÜSEYN QIŞLAĞI** - İrəvan əyalətinin Karbi nahiyəsində (indi Naxçıvan MR-in Şərur r-nunda) qışlaq adı.[3] Quşçu kəndinin yaxınlığındadır (yenə orada). "Digər adı Hüseyn qışlağı".
**ŞAHTAXTI** - Kəngərli r-nunda kənd adı. Burada uca yer, görkəmli yer, səfalı yer, axar-baxarlı yer mənasındadır.
**ŞƏHRİYAR** – Ordubad r-nunda qəsəbə. Ordubad qəsəbəsinin yeni adı.
**ŞEYX YUSİFLİ** - Naxçıvan əyalətinin Mülki-Arslan nahiyəsində kənd adı.[4] Orta əsrlərdə Səfəvilər hakimiyyətə keçdikdən sonra şiəliyə qulluq edən və onu yayan şeyxlərə torpaq sahələri və ailələr verilirdi. Ehtimal ki, toponim Şeyx Yusifə bağlanmış ailələrin məskunlaşması nəticəsində yaranmışdır.
**ŞİKƏM** - Naxçıvan əyalətinin Şərur nahiyəsində kənd adı.[5]
**ŞEYX MEHRANŞAH** - Naxçıvan əyalətinin Naxçıvan şəhərində məzrə adı.[6]
**ŞEYX SEYİDDƏLİLİ** - Naxçıvan əyalətinin Əlincə nahiyəsində kənd adı.[7]
**ŞEYX HƏMZƏLİ** - Naxçıvan əyalətinin Qışlağat nahiyəsində kənd adı.[8]
**ŞƏKƏRABAD** - Babək r-nunda kənd adı.
**ŞƏRUR** - Naxçıvan MR-də inzibati r-n mərkəzinin adı.[9] Müasir Şərur şəhərindən şimal-qərbdə Şərur adlı qədim (IX-XVII əsrlər) yaşayış yeri vardır.[10] Bəzi tədqiqatçılar Şərur toponimini "Kitabi-Dədə Qorqud" eposundakı Şəruk adı ilə eyniləşdirirlər.

---

1 İrəvan əyalətinin icmal dəftəri, s. 165.
2 Статистическое описание Нахичеванской провинции, с. 130
3 İrəvan əyalətinin icmal dəftəri, s. 168.
4 Yenə orada.
5 Naxçıvan sancağının müfəssəl dəftəri, s. 326.
6 İrəvan əyalətinin icmal dəftəri, s. 165.
7 Yenə orada, s. 182..
8 Yenə orada, s. 145.
9 *Novruzov Ə.* Göstərilən əsəri, s. 26.
10 İrəvan əyalətinin icmal dəftəri, s.145.



**ŞƏHRİYAR** - Şərur rayonunda kənd. Naxçıvan əyalətinin Şərur nahiyəsində kənd adı.
**ŞİLLƏRUD** - Ordubad r-nunda kənd adı.
**ŞİRİNOĞLU** - Babək r-nunda Xalxal kəndinin şərqində kənd xarabalığının adı.
**ŞİRİN SU** - Ordubad r-nunda Parağaçayın sol qolunun adı.
**ŞİRRANLI** - Ordubad r-nunda Nəsirvaz çayının sol qolunun adı.
**ŞIXMAHMUD** - Babək r-nunda kənd adı. Mənbədə Şeyx Mahmud kimi qeyd olunmuşdur.[1]
**ŞORBULAQ** - Şahbuz r-nunda Keçəzur kəndindən cənub-şərqdə göl adı.
**ŞORTƏPƏ** - Şərur r-nunda İbadulla kəndinin cənub-şərqində böyük təpə adı.
**ŞORÇAY** - Şahbuz r-nunda Keçili kəndinin ərazisindən axan çayın adı.
**ŞURUD** - Culfa r-nunda kənd adı. Türkcə - "şu" - "bu", farsca "rud" - "çay" sözlərindən ibarətdir. Şurud kəndində dağ bulaqlarının suyu ilə suvarılan əkin sahələri vardır.[2]
**TANAĞA** - Naxçıvan əyalətinin Şərur nahiyəsində kənd adı.[3] Yuxarı Parçı kəndinin yaxınlığında yerləşir.
**TAPUNQUZU** - Şahbuz r-nunda Keçili kəndinin şərqində yer adı. Azərbaycan dili dialektikasında təp – "su çıxmayan yer", "təpə" və küz – "qoyun-quzu üçün payız otlağı" sözlərindən ibarətdir.
**TAXTAXALI** - Ordubad r-nunda Biləv kəndinin cənubunda dağ adı.
**TAXTAQ** - Naxçıvan əyalətinin Dərə-Şahbuz nahiyəsində yaylaq adı.[4]
**TAXTEYİSƏLİM** - Naxçıvan əyalətinin Şərur nahiyəsində yaylaq adı.[5] "Səlim taxtası" dağlıq yerdə düzən sahəsi mənasındadır.
**TEYVAZ** - Culfa r-nunda kənd adı. Mənbədə Naxçıvan əyalətinin Dərənürgüt nahiyəsində kənd adı kimi qeyd olunmuşdur. Kənddə toplanmış şifahi məlumata görə Teyvaz həmin r-nun Xanəgah kəndindən yaranmış məntəqədir. Qədim türk dillərində tey – "təpə"[6] və vayz –"sıldırım qaya", "ətəyindən dar dərədə çay axan dağ"[7] sözlərindən ibarətdir.

---

1 İrəvan əyalətinin icmal dəftəri, s. 138.
2 *Никифоров И.К.* Экономический быт госуд. крестян западной части Нахичеванского уезда Ереванской губернии, "Материалы для изучения экономического быта гос. крестьян Закавказского края". т. I. с. 574.
3 İrəvan əyalətinin icmal dəftəri, s. 38.
4 Yenə orada, s. 167.
5 Yenə orada, s. 67.
6 Naxçıvan sancağının müfəssəl dəftəri, s. 32.
7 Bax: *Qeybullayev Q.Ə.* Bəzz toponiminin mənşəyi haqqında, s. 135-139.

**TEYVAZ MİNERAL BULAQLARI** - Culfa r-nunda Teyvaz kəndinin yaxınlığında bulaq adıdır.
**TƏZƏKƏND** - Kəngərli r-nunda kənd.
**TƏZƏKƏND** - Babək r-nunda kənd. Çalxanqala kəndindən ayrılmışdır.
**TƏKƏLİK** - Şahbuz r-nunda dağ (2888 m) adı. Təkə (dağ keçisi) olan dağ mənasındadır.
**TƏKƏDAĞ** - Şahbuz r-nunda Şada kəndindən qərbdə dağ (1944 m) adı. Uzaqdan təkəyə oxşadığına görə belə adlanmışdır.
**TƏNƏQT** - Naxçıvan əyalətinin Şərur nahiyəsində kənd.[1]
**TƏNDİRLİ** - Şərur r-nunda Gümüşlü yaşayış məntəqəsinin şimal-şərqində dağ adı. Görünür, dağda qədim təndir yerlərinin olması ilə əlaqədardır.
**TƏNƏNƏM** - Şərur r-nunda dağ adı.
**TƏNƏNƏM** - Şərur r-nunda kənd adı.
**TƏHMASQULU MƏZRƏSİ** - Naxçıvan əyalətinin Naxçıvan nahiyəsində məzrə adı.[2] "Təhməzqulu adlı şəxsə məxsus əkin yeri" mənasındadır.
**TİVİ** - Ordubad r-nunda kənd adı. Mənbədə Naxçıvan əyalətinin Azadciran nahiyəsində kənd adı kimi qeyd olunur.[3]
**TİVİ MİNERAL BULAQLARI** - Ordubad r-nunda Tivi kəndində 5 bulağın adı. Tivi kəndinin adı ilə adlanmışdır.
**TİVİÇAY** - Ordubad r-nunda Tivi kəndinin içindən axan çayın adı. Tivi kəndinin adı ilə adlanmışdır.
**TİZXİRAB** - Naxçıvan şəhərinin məhəllələrindən birinin adı.[4]
**TİLYAN** - Naxçıvan əyalətinin Azadciran nahiyəsində (indiki Ordubad r-nu ərazisində) kənd adı.[5]
**TİLLƏK** - Naxçıvan əyalətinin Dərə Nürgüt nahiyəsində kənd adı.[6] Ərəbcə tel - təpə sözündən və türk dillərində məkan bildirən -lək (ləq) şəkilçisindən ibarətdir.
**TOYDAMI** - Babək r-nunda Sirab kəndinin şimalında dağ adı.
**TOPDAĞ** - Babək r-nunda Qaraxanbəyli kəndinin cənub-qərbində dağ adı. Dağ adlarında top sözü həm dağın zirvəsinin yumruvarı formasını, ilk dəfə dağlıqda ağaclığın topa halda yerləşməsini ifadə edir.

---

[1] Naxçıvan sancağının müfəssəl dəftəri, s. 326.
[2] İrəvan əyalətinin icmal dəftəri, s. 165.
[3] Yenə orada.
[4] Yenə orada, s. 79.
[5] Yenə orada, s. 180.
[6] Yenə orada, s. 149.



**TOXLUQGƏDİK** - Ordubad r-nunda Urmis kəndinin şimalında aşırım adı. Ehtimal ki, türk dillərində toqolak – "iriölçülü qumsal təpə"[1] sözündəndir.
**TOXLUQAYA** - Şahbuz r-nunda Keçili kəndinin şimal-şərqində dağ adı.
**TULUD** - Naxçıvan əyalətinin Azadciran nahiyəsində kənd adı.[2]
**TUMASLI** - Şərur r-nunda kənd adı. XIX əsrdə Naxçıvan bölgəsində yaşamış Tumaslı elinin adını əks etdirir. Etnonimdir.
**TUMBUL** - Babək r-nunda kənd adı. Ehtimal ki, Dumbuli tayfa adındandır. Şairə Heyran xanım da bu tayfadandır. Mənbələrə görə bu tayfa Qaraqoyunlu dövlətinin başçısı Qara Yusif (1410-1420) dövründə Suriyadan Cənubi Azərbaycana gətirilmişdir. Səfəvilərdə hərbi xidmət etdiklərinə görə Şah Təhmasib bu tayfaya Xoy vilayətini vermişdir.[3]
**TÜĞAVİL** - Naxçıvan əyalətinin Qarabağ nahiyəsində kənd adı.[4]
**TÜLTƏPƏ** - Babək r-nunda Naxçıvan şəhərinin şimal-şərqində dağ adı. Mənası məlum deyil.
**TÜRKEŞ** - Şahbuz r-nunda kənd adı.[5] VII-VIII əsrlərdə Qərbi türk xanlığına daxil olan bir tayfa Qurqəş (Tirqəş) adlanırdı. VIII əsrin sonlarında bu tayfa türk xanlığına son qoymuş və bir müddət öz xaqanlığını yaratmışdır. Sonrakı əsrlərdə siyasi hadisələrlə əlaqədar olaraq müxtəlif ərazilərə köçmüşlər. Tatarların və başqırdların içərisində tirkəş adlı tayfalar vardır.[6] Dağlıq Altayda bir türkdilli etnoqrafik qrup indi də Tirkəş adlanır.[7] Ehtimal ki, tirkəşlər monqolların tərkibində Azərbaycana gəlmişlər.[8] Tirkəşəvənd (Kəlbəcər r-nu) və Tərkəş (Oğuz r-nu) kənd adları ilə mənşəcə eynidir.

---

[1] *Murzaev E.M.* Göstərilən lüğəti, s. 555.
[2] Naxçıvan sancağının müfəssəl dəftəri, s. 31.
[3] Yenə orada.
[4] Yenə orada, s. 29.
[5] İrəvan əyalətinin icmal dəftəri, s. 180.
[6] *Юсупов Г.В.* Булгаро-татарская эпиграфика и топонимы как источник исследования этногенеза казанских татар. Вопросы этногенеза тюркоязычных народов Среднего Поволжья Казань. Вып. 1. 1971
[7] *Потапов Л.П.* Этнический состав и происхождение алтайцев, Л., 1969, с. 186
[8] *Гейбуллаев Г.А.* О происхождении некоторых этнотопонимов Азербайджана (Деллер, Тюлю, Тиркеш, Шадили, Тубакент, Тулус, Чалхан, Кузанлы. DAN Azerb. SSR, 1978, № 1.

**UZUNABAD** - İrəvan əyalətinin Karbi nahiyəsində (indi Naxçıvan MR-in Şərur r-nunda) kənd adı.[1] "Vayxır-Arçi kəndinin yaxınlığında yerləşir" (yenə orada).
**UZUNOBA** - Naxçıvan əyalətinin Qışlağat nahiyəsində (Babək rayonu) kənd adı.[2]
**UZUNOBA** - Naxçıvan əyalətinin Naxçıvan nahiyəsində (Babək rayonu) kənd adı.[3] Aşağı Uzunoba və Yuxarı Uzunoba kəndləri də vardır.
**UNUS** - Ordubad r-nunda kənd adı. Naxçıvan vilayətinin Azadciran nahiyəsində kənd kimi qeyd olunmuşdur.[4]
**UMUS** - Culfa r-nunda Kərimquludizə kəndinin cənubunda dağ adı.
**URMİS** - Ordubad r-nunda kənd adı. Bu kənd ləğv edilib. Türk dillərində ur – "yüksəklik" və mis – "dağın cənub tərəfi", "güney" sözlərindən ibarətdir.
**UCAĞAC** - Culfa r-nunda Kərimquludizə kəndinin cənub-qərbində dağ adı.
**UCAGÜNEY** - Ordubad r-nunda Biləv kəndinin şimalında dağ adı.
**UCUBİZ** - Sədərək r-nunda dağ adı. Azərbaycan dilində uc ("zirvə", "baş" mənasında) və qədim türk mənşəli bayz "sıldırım"[5] sözünün danışıqda təhrifi olan "biz" sözlərindəndir. Ucu+biz – zirvəsi sivri və ya zirvəsi biz mənasındadır.
**UÇURDAĞ** - Ordubad r-nunda Ordubad şəhərindən şimalda dağ (hünd. 2572 m) adı.
**ÜÇQARDAŞ** - Şahbuz r-nunda Keçili kəndinin şimal-şərqində dağ adı.
**ÜÇTƏPƏ** - Şərur r-nunda Kabıllı kəndinin qərbində dağ adı.
**ÜSTÜPÜ** - Ordubad r-nunda kənd adı. Mənbədə Naxçıvan əyaləti Ordubad qəzasının Azadciran nahiyəsində kənd adı kimi qeyd olunmuşdur. Həm də mənbədə bu toponim Ustupi kimi yazılmışdır.[6]
**ÜZSÜZ** - Naxçıvan qəzasının Dərə-Şahbuz nahiyəsində kənd adı.[7] Azərbaycan dilində üz (üst) və sus "su olan yer", "su çıxan yer" (bax: Sələsuz) sözlərindən ibarətdir.

---

[1] İrəvan əyalətinin icmal dəftəri, s. 147.
[2] Naxçıvan sancağının müfəssəl dəftəri, s. 30.
[3] Yenə orada, s. 138.
[4] *Murzayev E.M.* Göstərilən əsəri, s. 369.
[5] Yenə orada, s. 65.
[6] Yenə orada.
[7] İrəvan əyalətinin icmal dəftəri, s. 167.



**ÜÇDUZ** - Naxçıvan əyalətinin Qarabağ nahiyəsində mədən (duz mədəni) adı.[1]
**VAYXIR** - Babək r-nunda kənd adı. Mənbədə kəndin həm də Aşağı Parçı adlandığı göstərilir.[2] Ədəbiyyatda iki Vayxır adlı kəndin olduğu göstərilir. İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında və həmin quberniyanın Naxçıvan qəzasında[3] Vayxır qədim müalicə əhəmiyyətli mineral bulağın adıdır. Kəndin yaxınlığında (0,5 km-liyində) (Naxçıvan şəhərinin 16 km-liyində) "Yel suyu" və həm də "Zorbulaq" adlanan bulaq vardır. Kənd Kəngərlərin Xalxallı tayfasının "Vayxır" adlı yerdə məskunlaşması nəticəsində yaranmışdır.[4] Vayxır adı İran dillərində bəh "xoş", "yaxşı", "xeyirxah"və xvar "yer" sözlərindən ibarətdir.
**VƏZİRABAD** - İrəvan əyalətinin Karbi nahiyəsində (indi Naxçıvan MR-in Şərur r-nunda) məzrə (əkin yeri) adı[5]. Vəzir şəxs adından və abad "kənd", "yaşayış məntəqəsi" sözündən ibarətdir.
**VƏKİLBƏND** - Babək r-nunda Nəcəfəli-Dizə kəndinin şimal-şərqində təbii mərz adı. Toponim Vəkil şəxs adından və azərbaycanca bənd "suyun (arxın, kanalın) qarşısını kəsmək üçün düzəldilmiş "torpaq sədd" sözündən ibarətdir.
**VƏLİDAĞ** - Şərur r-nunda Sədərək kəndinin cənubunda dağ (hünd. 1243 m ) adı. Vəli şəxs adından və dağ sözündən ibarətdir. Yardımlı r-nunda Vəlidağ (Alaşar-Burovar) silsiləsinin qərb yamacında zirvə adı (oronimi) ilə eynidir.
**VƏLİDAĞ** - Şərur r-nunda Sədərək kəndinin cənubunda xarabalıq. Kənd dağın adı ilə adlanmışdır.
**VƏLƏVER** - Ordubad r-nunda kənd adı. Kəndin adı fars dilində valə - "hündür yer", "yüksəklik"[6] və yer – "yer"[7] sözlərindən ibarətdir.
**VƏNƏND** - Ordubad r-nunda kənd adı. Mənbədə Naxçıvan əyalətinin Azadciran nahiyəsində kənd kimi qeyd olunmuşdur.[8] Kənd Şərqi

---

[1] Naxçıvan sancağının müfəssəl dəftəri, s. 326.
[2] İrəvan əyalətinin icmal dəftəri, s. 37.
[3] *Paqiryev D.D.* Göstərilən əsəri, s.47.
[4] Статистическое описание Нахичеванской провинции, с.32.
[5] İrəvan əyalətinin icmal dəftəri, s.37.
[6] *Ягелло И.Д.* Göstərilən lüğəti, s. 220.
[7] *Миллер Б.В.* Персидско-русский словарь. М., 1960, с.581
[8] İrəvan əyalətinin icmal dəftəri, s. 179.

Türkiyədə Qars əyalətindəki Vənənd mahalından XIII əsrdən sonra[1] bir qrup ailənin gəlib məskunlaşması nəticəsində yaranmışdır. "Vənənd" adı gətirilmə toponimdir. Şərqi Türkiyədəki Vənənd isə (ilk dəfə V əsrdən adı çəkilir)[2] er.əv. II əsrdə Şimali Qafqazdan türkdilli bolqar (yaxud bulqar) tayfasının Vəhəndur Bulqar Vəndin başçılığı ilə gəlib məskunlaşması nəticəsində yaranmışdır.[3] Məntəqə başçının adı ilə Vənənd adlanmışdır.[4]

**VƏNƏNDÇAY** - Ordubad r-nunda çay adı. Çay Vənənd kəndinin adı ilə adlanmışdır. Bax: Vənənd k. Araz çayının sol qollarından birinin adıdır. Vənəndçay mənbəyini Zəngəzur silsiləsinin cənub-qərb yamacından (hünd. 3400 m) alır. Uzunluğu 29 kilometrdir,[5] aşağı axarında Dəstəçay adlanır.

**VƏRGƏARX** -Naxçıvan əyalətinin Dərə Nürküt nahiyəsində kənd adı.[6]

**VƏRMƏZİYAR** - Şərur r-nunda kənd adı. Qədim farsca var "gecələr heyvan salmaq üçün hazırlanmış yer", "qala", "möhkəmləndirilmiş yer" sözündən və Məzyar şəxs adından ibarətdir. Kəndin adı "Məzyar qalası" mənasındadır. Vərməziyar adlı kəndin biri İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, biri də Naxçıvan qəzasındadır.[7] Digər Vərməziyar İrəvan xanlığının Zəngibasar mahalında (indi Masis r-nunda) vardı.[8]

**YAĞLIDƏRƏ** - Ordubad r-nunda Urmis kəndinin şərqində dağ adı. Dağ oradakı "Yağlıdərə" dərəsinin adı ilə adlanmışdır. Ad həmin dərədə mal-qara otarıldıqda südünün yağlılıq dərəcəsinin artması ilə əlaqədar yaranmışdır. İsmayıllı r-nunda Köhnə Dahar kəndində Yağlıbulaq hidronimindəki "yağ" sözü ilə mənaca eynidir.

---

1 XIII əsr müəllifi Stepan Orbelian yalnız Qars vilayətində Vənəndi qeyd edir, Ordubad mahalından danışdıqda Vənənd toponimini göstərmir; bax. *Stepan Orbelian. Из истории рода Сисакан.* Пер. Г. Тер - Григоряна. Azərb. SSR EA Tarix İnstitutunun Elmi arxivi, inv. № 1274, s.55.

2 История Армении Моисея Хоренского. М., 1893, с 81.

3 Очерки истории СССР, III-IX вв. М., 1958, с.587.

4 *Кананян Г.* Историческое значение топонимики Древней Армении, с. 374

5 Azərbaycan SSR-in izahlı coğrafi adlar lüğəti, s.55.

6 Naxçıvan sancağının müfəssəl dəftəri, s.32.

7 *Paqiryev D.D.* Göstərilən əsəri, s.49.

8 *Şopen İ.* Göstərilən əsəri.



**YAQUTXAN** - İrəvan əyalətinin Sədərək nahiyəsində kənd adı.[1] Mənbədə kəndin Dünbili tayfasının məskunlaşması nəticəsində yarandığı qeyd olunmuşdur.[2]

**YAYCI** - Culfa r-nunda kənd adı.[3] Qədim türk mənşəli Yaycı tayfasının adını[4] əks etdirir.

**YAYCI DƏRƏSİ** - Şərur r-nunda Aşağı Yaycı kəndinin cənubunda Arpa çayına tökülən çayın adı. Yaycı kəndinin yaxınlığındakı dərə mənasındadır.

**YALQIZAĞAC** - Naxçıvan əyalətinin Şərur nahiyəsində kənd adı[5]

**YAMXANA** - Babək r-nunda kənd adı. Mənbədə Naxçıvan əyalətinin Qışlağat nahiyəsində kəndin adı kimi qeyd olunur.[6] Türk-monqol dillərində yam – "poçt məntəqəsi", "çaparxana"[7] və farsca xana – "ev", "bina" sözlərindən ibarətdir.[8] Orta əsrlərdə hakimin fərmanını tələb olunan yerə çatdırmaq üçün yollarda yamxanalar təşkil edilirdi və bir qayda olaraq bir yamxanadan o birisinə atlı çaparaq gedərək fərmanı çatdırırdı.

**YAMACYURD** - Şahbuz r-nunun şimal-şərqində təbii mərz adı.

**YARIMCA** - Babək r-nunda kənd adı. Mənbədə "Yarımca məzrəsi" kimidir.[9] Kəndin (obanın) yarısı mənasındadır. Keçmişdə müəyyən bir kənddən ayrılmış bir nəsil (məhəllə adamları) həmin kəndə məxsus icma torpağına köçüb yeni yaşayış məntəqəsi yaradır və dövlətə vergini çıxdığı ana kəndlə birgə verirdisə, bu yarımca adlanırdı.

**YARIMCA** - Naxçıvan əyalətinin Naxçıvan nahiyəsində kənd adı.[10] "Bədəxşan kəndinin yaxınlığında yerləşir" (yenə orada).

**YARPAXLI** - Ordubad r-nunda Şurut kəndinin şimalında dağ adı.

**YEZDABAD** - Naxçıvan əyalətinin Qışlağat nahiyəsində kənd adı.[11] Yezid şəxs adından və abad – "kənd", "yaşayış məntəqəsi" sözündən ibarətdir.

---

1 Naxçıvan sancağının müfəssəl dəftəri, s. 324.

2 Yenə orada.

3 Yenə orada.

4 *Kononov A.N.* Göstərilən əsəri.

5 Naxçıvan sancağının müfəssəl dəftəri, s. 326.

6 Yenə orada, s. 145.

7 *Радлов В.В.* Опыт словарь тюркских наречий, II, 2, 1488.

8 İrəvan əyalətinin icmal dəftəri, s. 138.

9 Naxçıvan sancağının müfəssəl dəftəri, s. 25.

10 İrəvan əyalətinin icmal dəftəri, s. 138.

11 Yenə orada, s. 145.

**YƏMŞƏNLİ** - Naxçıvan əyalətinin Əlincə nahiyəsində məzrə adı.[1] Yemişan ağacının bitdiyi yerdə əkin sahəsi.
**YENİCƏ** - Naxçıvan əyalətinin Qışlağat nahiyəsində kənd adı.[2] Təzəcə yaranmış kənd mənasındadır. Orta əsrlərdə kəndin bir hissəsi başqa yerdə məskunlaşdıqda Yenicə, yaxud Yengicə adlanırdı.
**YENİCƏ** - Naxçıvan əyalətinin Naxçıvan nahiyəsində məzrə adı.[3]
**YENİCƏ** - Naxçıvan əyalətinin Azadciran nahiyəsində kənd adı.[4]
**YENİCƏYİ ƏRƏB** - Naxçıvan əyalətinin Şərur nahiyəsində kənd adı.[5] Təzə yaranmış ərəb (mənşəcə ərəblərdən) kəndi mənasındadır.
**YENİCƏYİ ÇOMAXTUR** - Naxçıvan əyalətinin Şərur nahiyəsində kənd adı.[6] Çomaxtur (bax) kəndindən ayrılmış bir qrup ailənin həmin kəndə məxsus icma torpağında məskunlaşması nəticəsində yaranmışdır. Çomaxtur kəndindən yaranmış təzə kənd mənasındadır.
**YENİKƏND** – Kəngərli r-nunda kənd adı.
**YENİKƏND** - Şahbuz r-nunda kənd adı.
**YENGİCƏ** - Şərur r-nunda kənd adı.
**YOLLU** - Naxçıvan əyalətinin Naxçıvan nahiyəsində kənd adı.[7]
**YUMRUDAŞ** - Naxçıvan əyalətinin Əlincə nahiyəsində məzrə adı.[8] Dəyirmi formalı sahə mənasındadır.
**YURDÇU** - Kəngərli r-nunda kənd adı. Ehtimal ki, Şahsevənlərin Poladlı tayfasının Yurdçu tirəsinin adını əks etdirir.
**YUXARI ARALIQ** - Şərur r-nunda kənd adı. İrəvan əyalətinin Karbi nahiyəsinə daxil idi.[9] XIX əsrin sonlarına aid ədəbiyyatda Aralıq Balakənd adı ilə də qeyd olunmuşdur.[11]
**YUXARI BUZQOV** - Babək r-nunda kənd adı. Buzqov kəndindən yeni məntəqə (Aşağı Buzqov) yarandıqdan sonra adına "Yuxarı" sözü əlavə olunmuşdur.

---

1 Naxçıvan sancağının müfəssəl dəftəri, s. 182.
2 Yenə orada, s. 145.
3 Yenə orada, s. 25.
4 Yenə orada, s. 31.
5 İrəvan əyalətinin icmal dəftəri, s. 168.
6 Yenə orada.
7 Yenə orada, s. 164.
8 Yenə orada, s. 182.
9 *Paqiryev D.D.* Göstərilən əsəri.
11 Yenə orada.



**YUXARI DAŞARX** - Şərur r-nunda kənd adı.[1] Qədim Daşarx kəndindən yeni məntəqə (Aşağı Daşarx) əmələ gəldikdən sonra adına "Yuxarı" sözü əlavə olunmuşdur.
**YUXARI QIŞLAQ** - Şahbuz r-nunda Qışlaq kəndinin içərisindən axan çay.
**YUXARI ƏYLİS** - Ordubad r-nunda kənd adı. Mənbədə ilk dəfə çəkilmişdir.[2] Əsli – Əylis. Ondan digər məntəqə (Aşağı Əylis) yarandıqdan sonra Yuxarı Əylis adlandırılmışdır. XVI əsrə aid mənbədə Kilis qalası,[3] farsca mənbədə Akulis[4] kimidir. XIX əsrə aid mənbədə də Naxçıvan qəzasında Akulis kimi qeyd olunmuşdur.[5] Əsl qədim adı Ağ Kilis olmuşdur. Həqiqətdə də orada müqəddəs Foma monastırı vardır. Azərbaycanca ağ və ərəbcə kilis (əsli yunancadan) "kilsə", "monastır" sözlərindən ibarətdir. Gürcüstanda Qarakilis kənd adı vardır.
**YUXARI ƏLİŞAR** - İrəvan əyalətinin Karbi nahiyəsində (indi Naxçıvan MR-in Şərur r-nunda) kənd adı.[6] "Digər adı "Mexta Qala" (yenə orada, s. 72). Əsli – Yuxarı Alışar. Həmin Alışar kəndi dağıldıqdan sonra əhalisi indiki Alışar kəndini yaratmışdır. Bax: Alışar.
**YUXARI YAYCI** - Şərur r-nunda kənd adı. Kollektivləşmə illərində (1930-cu illərdə) Yaycı kəndindən yeni məntəqə əmələ gəldikdən və Aşağı Yaycı adlandırıldıqdan sonra kəndin adına "Yuxarı" sözü əlavə olunmuşdur. Hər iki kənddə "Qaradaş" və "Ağ zəmilər" adlı yer vardır. Qədim türk mənşəli Yaycı tayfasının[7] adını əks etdirir. XIX əsrdə Cənubi Qafqazda mövcud olmuş 8 Yaycı kənd adı[8] ilə mənşəcə eynidir. Bax: Yaycı.
**YUXARI ƏNDƏMİC** - Ordubad r-nunda kənd adı. Əndəmic kəndindən yeni məntəqə (Aşağı Əndəmic) yarandıqdan sonra adına Yuxarı sözü əlavə olunmuşdur. Əndəmic adının mənası barədə bax: Aşağı Əndəmic.
**YUXARI PARÇI** - Naxçıvan əyalətində kənd adı.[9]

---

1 *Paqiryev D.D.* Göstərilən əsəri.
2 İrəvan əyalətinin icmal dəftəri, s. 147.
3 Rövzətüs-Səfəviyyə, II hissə. Azərb. EA Tarix İnstitutunun Elmi arxivi, inv. № 3275, s. 451.
4 Naxçıvan sancağının müfəssəl dəftəri, s. 83.
5 *Гахраманов Дж.* Описание археографических документов. Баку, 1969.
6 *Paqiryev D.D* Göstərilən əsəri, s. 10.
7 *Кононов А.Н.* Родословная туркмен Абул-Гази хана Хивинского М-Л, 1948. с. 24-25.
8 *Paqiryev D.D.* Göstərilən əsəri, s. 323.
9 Yenə orada, s. 147.

**YUXARI SÜRƏMƏRƏC** - Naxçıvan əyalətinin Sair-Məvazi nahiyəsində kənd adı.[1]
**YUXARI UZUNOBA** - Babək r-nunda kənd adı.
**YUXARI XANƏGAH** - Naxçıvan əyalətinin Azaciran nahiyəsində kənd adı.[2] Ehtimal ki, Xanəgah adının təhrifidir. Bax: Xanağa.
**YUXARI COMATUR** - Naxçıvan əyalətinin Şərur nahiyəsində kənd adı.[3]
**YUXARI ŞƏHRİYAR** - Naxçıvan əyalətinin Şərur nahiyəsində kənd adı.[4] Əsli – Şəhriyar. Ondan digər kənd (Aşağı Şəhriyar) yarandıqdan sonra Yuxarı Şəhriyar adlanmışdır. Şəhriyar şəxs (mülkədar) adındandır.
**ZEYVƏ** - Şərur r-nunda kənd adı. Ərəb dilində zaviyə – "künc", "bucaq" (cəmiyyətdən kənar mənasında), "hücrə", "ibadətgah" sözündəndir. Fars dilindəki xanəgah sözünün sinonimidir.[5]
**ZEYNƏDDİN** - Babək r-nunda kənd adı.[6] Zeynəddin şəxs adındandır.
**ZƏVALIQ** - Naxçıvan əyalətinin Əlincə nahiyəsində kənd adı.[7] Zeyvəlik adından təhrif. Həm də kəndin Zəvələ adlandığı qeyd olunur.[8] Bax: Zeyvə.
**ZƏYDƏRƏ** - Ordubad r-nunda Gilançayın sol qolunun adı. "Zəy (boyaqçılıqda işlədilən mineral maddə) çıxarılan dərə" mənasındadır.
**ZƏRDƏDƏRƏ** - Şərur r-nunda Danzik kəndinin şimalında dərə adı. Fars dilində zərd – "sarı" və azərbaycanca "dərə" sözlərindəndir.
**ZƏRNƏTÜN** - Babək r-nunda kənd adı. Naxçıvan əyalətinin Dərə-Şahbuz nahiyəsində kənd kimi qeyd olunur.[9] Farsca zərnə – "əkin yeri" və türkcə tun – "təpə" sözlərindən ibarətdir.
**ZƏRNƏTÜNÇAY** - Şahbuz r-nunda Naxçıvançayın sol qolunun adı.
**ZƏRNİL** - Şahbuz r-nunda kənd adı. «Qızıl çay» mənasını verir. Kənd sürüşmədən dağılmışdır.

[1] Naxçıvan sancağının müfəssəl dəftəri, s. 27.
[2] İrəvan əyalətinin icmal dəftəri, s. 72.
[3] Naxçıvan sancağının müfəssəl dəftəri, s. 327.
[4] Yenə orada, s. 182.
[5] *Budaqov L.Z.* Göstərilən lüğəti, I, s. 603.
[6] İrəvan əyalətinin icmal dəftəri, s. 138.
[7] Yenə orada.
[8] Naxçıvan sancağının müfəssəl dəftəri, s. 27.
[9] İrəvan əyalətinin icmal dəftəri, s. 167.



**ZİYARƏTTƏPƏ** - Şərur r-nunda Mahmudkəndin cənubunda dağ adı. Keçmişdə əhali tərəfindən müqəddəs yer kimi ziyarət edilmiş təpə mənasındadır. Təpədə pir vardı.
**ZİMMİ KEÇİDİ** - Naxçıvan əyalətinin Dərə-Şahbuz nahiyəsində kənd adı.[1] Orta əsrlərdə müsəlmanlar içərisində yaşayan və himayə edilən xristian ailələri ərəbcə Zimmi adlanırdı.
**ZOQ** - Naxçıvan əyalətinin Dərə-Şambul nahiyəsində məzrə adı. Qədimdə Naxçıvan əyalətində yaşamış naməlum mənşəli kiçik bir tayfa Zoq adlanırdı.
**ZOĞALASU** - Culfa r-nunda çay adı. Suyun qırmızı rəngdə olması ilə əlaqədar verilmişdir.
**ZÜLFÜQARBULAQ** - Şərur r-nunda Tənənəm kəndinin cənub-qərbində bulaq adı.
**ZÜLFÜQARQIŞLAQ** - Naxçıvan əyalətində qışlaq adı.[2] "Əhalisi Bayat əşirətindəndir" (yenə orada). Zülfüqar şəxs (mülkədar) adındandır.

[1] İrəvan əyalətinin icmal dəftəri, s. 167.
[2] Yenə orada, s. 144.

## KİTABIN İÇİNDƏKİLƏR

**Giriş** ........ 3

**I. Naxçıvan bölgəsinin siyasi və etnik tarixinə dair** ........ 6
1. Etnik mənşəli toponimlərin tarixinə dair ........ 8
2. Etnik tərkibli coğrafi adların mənşəyinə bir baxış ........ 14

**II. Toponimlər** ........ 23
Oykonimlər ........ 23
Oronimlər ........ 24
Hidronimlər ........ 26
Zoonimlər ........ 28
Fitonimlər ........ 29
Təbii sərvətləri əks etdirən toponimlər ........ 31
Ayrıq (kövşən) coğrafi adları ........ 32

**İzahlı toponimik lüğət** ........ 34

**Budaq Budaqov**
**Qiyasəddin Qeybullayev**

# NAXÇIVAN DİYARININ YER YADDAŞI

BAKI – 2004

Azərbaycan MEA Geologiya İnstitutunun Elmi nəşr şöbəsində yığılmış, səhifələnmiş və çap olunmuşdur.

*Nəşriyyatın direktoru* **Hafiz Abıyev**
*Kompüter tərtibçisi* **Qabil Xeyrullaoğlu**
*Operator* **İradə Həsənli**

Çapa imzalanmışdır: 10.12.2004. Formatı 84X108$^{1/32}$. Əla növlü ofset kağızı. Şrifti ədəbi qarnitur.Çap vərəqi 7,75. Tirajı 500 nüsxə. Sifariş № 41. Qiyməti müqavilə əsasında.

*"**Nafta-Press**" nəşriyyatı. Az1143. Bakı, H.Cavid prospekti 29$^{A}$, Akademiya şəhərciyi, Geologiya İnstitutunun binası. Tel.: 439-39-72.*